Məhz bu nöqteyi- nəzərdən də faktiki statistikaya müraciət edəndə aydın olur ki, "qara qızılın" ən böyük ehtiyatları Yaxın Şərq ölkələrindədir. Burada dünyadakı neft ehtiyatlarının 47,9%-i və ya 109,4 mlrd. ton neft cəmlənib. Bundan başqa, dünyadakı neft ehtiyatlarının 19,5%-i Mərkəzi Amerikanın, 13,6%-i - Şimali Amerikanın, 8,8%-i - Avropa və Avrasiyanın, 7,7%%-i Afrika qitəsinin və 2,5%-i Asiya-Sakit okean regionunun payına düşür. Sübut edilmiş neft ehtiyatlarının həcmi aşağı olan ölkələrə gəldikdə, burada birinci yer Venesuelaya məxsusdur. Bü ölkənin 46,6 mlrd. ton (298,3 mlrd. barel) həcmində neft ehtiyatları var ki, bu da ümumdünya neft ehtiyatlarının 17,7%-ni təşkil edir. İkinci yeri Səudiyyə Ərəbistanı tutur - onun ehtiyatları 36,5 mlrd. ton (265,9 mlrd. barel) kimi qiymətləndirilir. Səudiyyə Ərəbistanında dünyadakı bütün neft ehtiyatlarının 15,8%-i cəmlənib. Növbəti yerdə Kanada - 28,1 mlrd. ton (174,3 mlrd. barel), İran - 21,6 mlrd. ton (157 mlrd. barel), İraq - 20,2 mlrd. ton (157 mlrd. ton), Küveyt - 14 mlrd. ton (101,5 mlrd. barel), Birləşmiş Ərəb Əmirlikləri - 13 mlrd. ton (97,8 mlrd. barel), Rusiya - 12,7 mlrd. ton (93 mlrd. barel), ABŞ - 5,4 mlrd ton (44,2 mlrd. barel), Qazaxıstan - 3,9 mlrd ton (30 mlrd. barel).

Bu mənada BP-nin 2008-ci ildəki hesabatına görə Ərəbistan yarımadasında neft ehtiyatları 68100 milyard ton,qaz ehtiyatları 41900 milyard kub m., Rusiyada müvafiq olaraq 10.900 milyard t.,44650 milyard kub m., Mərkəzi Asiya və Azərbaycanda neft ehtiyatları 6.500 milyard t., qaz ehtiyatları 7600 milyard kub m. olmuşdur. [2;22] Tarixi reallığa ekskurs edən məhz belə mənzərə alındı.

Bu mənada fikirlərimizi nəzəri baxımından əsaslandıraq: Azərbaycanlı siyasətşünas E.Nəsirov enerji siyasətinin Azərbaycan iqtisadiyyatının inkişafına müsbət təsirini aşağıdakı amillərlə izah edir: “Neft və qazın dünya bazarında satılması ilə ölkəyə çoxlu miqdarda gəlirlər daxil olur, nəticədə, dövlət büdcəsinin mədaxili yüksəlir, valyuta ehtiyatları artır. Büdcənin



artması ilə büdcədən maliyyə-ləşən təşkilatların maliyyə vəsaitləri artırılır, işçilərin əmək haqları, sosial müavinat-lar qaldırılır, səhiyyə, tıhsil sahələrində köklü dəyişikliklər baş verir, ordu gücləndirilir.

Valyuta ehtiyatları artdıqca qeyri-neft sektorunun inkişafı üçün bir çox layihələr həyata keçrilir, yeni sənaye sahələri yaradılır. Milli proqramların reallaş- dırılması sürətləndirilir, sosial islahatlar həyata keçrilir.

Yeni sənaye və istehsal sahələrinin yaradılması ilə daxili tələbat ödənilir, ticarət dövriyyəsi artırılır, işsizliyin qarşısı alınır, dövlət büdcəsinin gəlirləri artırılır.

Ölkəyə investisiya axını güclənir, xidmət və turizm sahələri genişlənir." [3,29]

Xarici şirkət və dövlətlərin Azərbaycanın enerji ehtiyatlarına artan marağına baxmayaraq burada və ümumilikdə Xəzər dənizində ehtimal edilən bu ehtiyatlar haqqındakı məlumatlar xeyli dərəcədə bir-birindən fərqlənir. Cefri Kemp və Robert Harvey yeni çap etdirdikləri çox qiymət "Strateji coğrafiya və dəyişən Yaxın Şərq" adlı tədqiqatlarında Xəzərdəki ehtiyatların 8,8 milyard barel ola biləcəyini göstərirlər [4;135]. Digər bir mənbəyə müraciət edək. Belə ki,"Foreign Affairs" jurnalında neft üzrə nüfuzlu mütəxəssislər isə Xəzərin ehtiyatlarının 100 milyard bareldən az olmayacağını iddia edirlər. Onların fikrincə, bu ehtiyyatlara görə, Xəzər İran körfəzindən sonra ikinci yeri tutur. [5;23]ABŞ Enerji Nazirliyinin məlumatına əsasən, Xəzər hövzəsində 200 milyard bareldən artıq neft ehtiyatlarının olması təxmin edilir ki, bunun da dörddə biri Azərbaycan sektorundadır. Başqa bir Qərb qaynağına görə, Xəzər hövzəsində ümumi dəyəri 4 trilyon ABŞ dolları olan 178 milyard barel neft var [7;38]. Xəzərin və Azərbaycanın ehtimal edilən ehtiyatlarını şübhə altına alan dairələr də var. [6;32] 1998-ci ilin fevralda Beynəlxalq Münasibətər komissiyasının dinləmələrində göstərildi ki, onların hesablamalarına görə: "Xəzər hövzəsinin neft ehtiyatları 60 milyard barelə çata bilər. Bu, Avropanın neftə ehtiyacını 11 il ödəməyə qadirdir. Bəzi təxminlər 200 milyard barrelə çatır [8].1998-ci ilin aprelində neft kəmərlərinin istiqaməti ətrafında qızğın mübahisələrin getdiyi vaxt Londonda yerləşən Strateji Araşdırmalar üzrə Beynəlxalq İnstitut Xəzərin neft ehtiyatları haqqında raporunu çap etdirdi. Bu sənəddə göstərilirdi ki, ABŞ Energetika Nazirliyinin iddia etdiyi 200 milyard rəqəmi şişirtmədir, bu mərkəzin iddiasına görə, Xəzərin neft ehtiyatları olsa olsa 25 və 35 milyard barrel arasında ola bilər. Raporda göstərilirdi ki, Xəzərin neft ehtiyatları İran körfəzi ilə deyil, yaxşı olar, Şimal dənizinin ehtiyatları ilə müqayisə edilsin [5;23]. 1998-ci ilin aprelində Ulu öndər Heydər Əliyevin o zaman açıqladığı məlumata görə, Azərbaycanın neft sərvətlərinin miqdarının süni şəkildə azaldılması haqqında iddiaların əksinə, yeni yataqların kəşfi və köhnə ehtiyatların dəqiqləşdirilməsi hidrokarbon ehtiyatları haqqında verilən proqnozların doğruluğunu təsdiq edir. Beynəlxalq Əməliyyat Şirkətinin istifadəsində olan 3 yatağın ehtiyatlarının gözləndiyindən (511 milyon ton) təxminən 120 milyon ton artıq idi. [9].Nəzərə yetirsək ki,Azərbaycanın təsdiq edilmiş neft ehtiyatları azı 1,4 milyard ton,təbii qaz ehtiyatları isə 430 milyard kub metrdir. [5;25]

Mövzunu Ə.Həsənovun fikirləri ilə əsaslandıraraq göstərək ki: "Mütəxəssislərin hesablamalarına görə, Xəzər dənizi dünyanın ən zəngin



karbohidrogen ehtiyatlarına malik olan bölgələrindən biridir. Bu faktor bölgənin ümumi geosiyasi və geoiqtisadi ab-havası, dünya ölkələrinin bölgəyə can atması və s transmilli proseslərlə yanaşı, həm də Xəzərətrafı ölkələrin bir-birilə regional münasibətlərinə, bütövlükdə xarici siyasətlərinə, daxili ictimai-siyasi vəziyyətinə və regional dövlətlərarası münasibətlərin xarakterinə də ciddi təsir göstərmişdir" [10;10].

Təqribi ekspert hesablamalarına görə, hər şey planlaşdırıldığı kimi getsə, 2015–ci ilə qədər Azərbaycan hər il 40 milyon ton neft istehsal edə bilər. Müqayisə üçün hazırda Azərbaycan hər il 9 milyon ton neft istehsal etməkdədir.Bəzi məlu- matlara görə neft sənayesi 2001-ci ildə 5 milyard dollar gəlir gətirə bilər. 1997-ci ilin mayında Vaşinqtonda Azərbaycanın Baş naziri bəyan etmişdir ki, respublika- nın neft gəlirləri 25 il ərzində 210 milyard dollar olacaq. Təkcə birinci kontraktdan Azərbaycan büdcəsinə 80 milyard dollar gəlir gözlənilir. [11] Məhz bu nöqteyi-nəzərdən V.İnozemtsevin fikirləri də xüsusi diqqət cəlb edir. V.İnozemtsev Azərbaycanın geosiyasi mühitə gələcəyi haqqında belə yazır: "Vaxtilə dünyanın neft ehtiyatının 50 faizindən coxunu hasil edən, "Super enerji gücü" hesab olunan Azərbaycan artıq Xəzər dənizindıki neft-qaz ehtiyatlarına görə dünyada mühüm yer tutdu.1994-cü ildə müstəqil Azərbaycan xam neftin faktiki inhisarçısı sayılan Rusiya ilə birlikdə ildə 9.6 milyon ton neft çıxarırdı. Bu ölkənin unudulmuş rekordları yalnız tarixdə qalmalıdı.[12;60]

Statistika və rəqəmlərdən görürük ki, əsrlər boyu istər Çar Rusiyasının, istərsə də sonradan Azərbaycanın da müttəfiq respublika kimi tərkibinə daxil olduğu keçmiş SSRİ-nin cənubi Qafqazda apardığı münaqişələrin əsasında məhz Xəzər kimi böyük iqtisadi potensiallı hövzənin sərvətlərinə yiyələnmək, sahiblik etmək "planı" dururdu. E.Abdullayevin yazdığı kimi: "1872-ci ildən Avropanın neft nəhəngləri bölgüdəki neft sahələrinə böyük maraq göstərmiş, 1873-cü ildə R. Nobel Abşeron, Xəzər neft yataqlarının istifadəsinə, ağ neft fabrikinin tikintisinə öz qardaşları ilə birlikdə 25 min rubl sərf etmiş və 1879-da neft şirkəti yaratmışlar. 1877-ci ildə Nobellərin sifarişi ilə dünyada ilk neft gəmisi tikilib istifadəyə veril-mişdir. Xəzər neftinə sonradan Rotşildlər maraq göstərmişdir" (13; 25). Keçmiş Azərbaycan Sovet Respublikası dövründə dünyada ilk dəfə sənaye metodu ilə neft istehsalına başlanmışdır. Xəzər nefti keçmiş SSRİ-nin nəinki iqtisadi enerji siyasətində, həmçinin iqtisadi-maliyyə sahəsində də əvəzsiz gəlir gətirən faktor idi.

Təbii ki, keçmiş SSRİ-nin süqutundan sonra Xəzər hövzəsi ətrafında da Xəzəyanı dövlətlərin maraq dairəsi zaman-zaman toqquşdu. Müstəqilliyinə qovuşan Azərbaycan da Xəzəryanı dövlət kimi artıq XX əsrin 90-cı illərindən başlayaraq "Xəzər hövzəsindən yeni istifadə"nin qaydalarına uyğun iqtisadi siyasət yürütdü. Ulu Öndər Heydər Əliyevin 1994-cü il fevralında "Azərbaycan Respublikasında dəniz neft yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında" qərarına əsasən dəniz yataqlarının işlənilməsi üçün yeni avadanlıqlar gətirilmiş, Bakı dərin özüllər zavodu tikilmişdir. 1994-cü ildən etibarən Beynəlxalq "Xəzər neft, qaz, neftayırma və neft kimyası" sərgi və konfranslarının ənənəvi olaraq Bakıda keçirilməsi Azərbaycan neft elminə verilən qiymətin təzahürüdür. Azərbaycan nefti geoiqtisadi baxımdan Azərbaycan xalqının milli sərvətidir. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin neft strategiyasının gerçəkləşməsini təmin edən "Əsrin müqavilə-si"ni imzalaması uzaqgörən siyasətin bariz nümunəsidir.

Azərbaycan öz əvvəlki rekordunu bərpa etmək üçün xarici neft şirkətlərilə "Əsrin müqaviləsi"ni bağladı. Xalq ilk dəfə olaraq öz maddi sərvətlərinin, o cümlədən neftin sahibi kimi çıxış etməyə başladı. Azərbaycan Xəzərdəki neft-qaz ehtiyatları hesabına qabaqcıl mövqeyə çıxdı, iqtisadiyyatın yeni təməli qoyuldu, dinamik milli inkişafın möhkəmlənməsi üçün əsaslı zəmin yarandı.

"Əsrin müqaviləsi" çərçivəsində qazılmış birinci və ikinci quyu 1997-ci ilin noyabrında neft verməyə başladı.Yerli və bir sıra xarici mətbuat orqanları bu tarixi hadisəni Azərbaycan Pespublikasında "ikinci neft bumunun" başlanğıcı kimi səciyələndirdi. Bu tarixi sənədin imzalanması mərasimində 7 ölkənin 11 neft şirkəti təmsil olunurdu. Müqaviləyə əsasən dünyanın ABŞ, Rusiya, Fransa, Türkiyə, Böyük Britaniya, Norveç kimi dövlətlərinə məxsus olan aparıcı şirkətlər 10 milyard ABŞ dollarına bərabər ortaq vəsait yatırmaqla, Xəzər dənizinin Azərbaycan sektorundan 30 il müddətinə dəyəri 50 milyard dollara bərabər olan 511 milyon ton nerft çıxarmağı hədəfə alırldılar. Müqaviləyə görə,ümumi investisiya qoyuluşunun 7,4 milyardını Qərb şirkətləri qoymalı idilər.

Belə ki, ABŞ-ın Enerji İnformasiya İdarəsinin 2013-cü ilin avqustunda Xəzər dənizi hövzəsi ölkələrinin su və qurudakı neft-qaz ehtiyatları ilə bağlı Hesabatında İranın Xəzər dənizindəki neft ehtiyatları 500 mln. barel, qaz ehtiyatları isə 3 mlrd. kubmetr, quru sektorundakı qaz ehtiyatlarının 1 trln. kubmetr olduğu, ancaq qurudakı neft ehtiyatlarının heç nəzərə çarpmadığı deyilir. Xəzər dənizinin su sektorunda ümumi neft ehtiyatlarının 19,6 mlrd. barel, qaz ehtiyatlarının 106 trln. kub fut, quru sektorunda isə müvafiq olaraq 28,6 mlrd. barel və 186 trln. kub fut (təxminən 7 trln. kubmetr) həcmində qiymətləndirilir. Azərbaycanın Xəzər dənizinin su sektorundakı qaz ehtiyatlarının həcmi 46 trln. kub fut (1,5 trln. kubmetr), Qazaxıstanın 36 trln. kub fut (1,3 trln. kubmetr), Rusiyanın 14 trln. kub fut (0,5 trln. kubmetr), Türkmənistanın isə 9 trln. kub fut (0,3 trln. kubmetr) kimi dəyərləndirilir. Qazaxıstanın Xəzərin su sektorundakı neft ehtiyatları 15,8 mlrd. barel, Azərbaycanın isə 6,8 mlrd. barel təşkil edir. Bununla yanaşı qeyd olunur, 5 sahilyanı ölkənin Xəzər dənizinin su və quru sektorundakı ümumi neft ehtiyatları 48,2 mlrd. barel, qaz ehtiyatları isə 285 trln. kub fut (10,6 trln. kubmetr) həcmindədir. (14) Hesabatda vurğulanır ki, İran istisna olmaqla, bütün digər sahilyanı dövlətlər Xəzərin su sektorundakı enerji ehtiyatlarının işlənməsindən mənfəət götürür. [15]

Sənədin sonunda qeyd olunur ki, bütün sahilyanı ölkələrin ümumi gündəlik neft hasilatı 945 min barel təşkil edir və bunun 890 min bareli (94%) Azərbaycanın payına düşür.

Bu hesabatlara görə, bu gün dünyada neft ehtiyatları 238.2 milyard tondan ibarətdir. Britaniya şirkətinin hesabatına əsasən, Azərbaycanın sübut edilmiş neft ehtiyatları 2014-cü ilin əvvəlinə 1 mlrd. ton (7 mlrd. barel) təşkil edir.

Beləliklə, Azərbaycanda neft ehtiyatları dünya üzrə neft ehtiyatlarının 0,4%-ni təşkil edir. Ölkə üzrə neft hasilatının cari həcmini nəzərə alaraq, hələ 20,5 illik neft ehtiyatları

qalıb. Bu mənada Azərbaycanlı tədqiqatçı Ə.Mehdiyevin "Azərbaycan Respublikasının neft siyasəti, əsas vəzifələr, ilkin nəticələr" adlı təhlilində də qeyd olunduğu kimi: "Azərbaycan neft siyasəti qarşısında sosial-iqtisadi və beynəlxalq sahədə bir sıra məsələlərin həlli ilə bağlı mühüm vəzifələr qoyurdu. Əvvəla, müqavilənin ("Əsrin kontraktı" - müəllif) imzalanması ölkənin iqtisadi həyatında aparıcı yer tutan neft-qaz sənayesinin dirçəlişinə və davamlı inkişafına yeni perspektivlər açırdı. Bununla yanaşı saziş neft sənayesi ilə bağlı olan digər sənaye sahələrinə, habelə infrastruktura investisiya qoyuluşuna güclü stimul verir və onların inkişafı üçün əlverişli zəmin yaradırdı… Xarici investisiyanın köməyi ilə yenidən qurulan neft-qaz sənayesi Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiya olunmasına təkan verərək, bazar iqtisadi münasibətlərinə keçidin sürətlənməsi prosesində mühüm amilə çevrildi" (16; 5/7).

Azərbaycan rəsmiləri və geoloqları ölkələrinin quruda və dənizdə kəşf olunmuş neft ehtiyatlarının miqdarını 1-1,5 milyard ton, (təxminən 7-11 milyarad barel) ehtimal olunan miqdarını isə 2-3 milyarad ton (14 - 21 milyard barel) və daha çox olduğunu söyləyirlər. [14]

BP şirkətinin 2010-cu ilə olan dünya energetikasının illik statistik icmalın- da və ABŞ mənbələrində Azərbaycanın sübut olunmuş neft ehtiyatlarının həcmi 7 milyard barel (1 milyard tondan artıq), qaz ehtiyatları isə 1,3 trln. kub metr səviyyəsində göstərilir. Bu rəqəmləri Azərbaycan Dövlət Neft Şirkəti də təsdiq edir. Lakin şirkət rəsmiləri həmin rəqəmləri bir qədər köhnəlmiş hesab edirlər. Belə ki, ARDNŞ-in geologiya, geofizika və yataqların kəşfiyyatı üzrə birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə bildirmişdir ki, hazırda Azərbaycanın sübut olunmuş neft ehtiyatları 1,5 milyard ton (təxminən 11 milyard barel.) təşkil edir və perspektivdə bu göstəricinin 3 milyard tona çatması gözlənilir. [10;28]

Xəzər regionunun yüksək geoiqtisadi imkanlara malik olduğu üçün ABŞ hökuməti Azərbaycan. Qazaxıstan, Türkmənistan və Ukrayna ilə enerji sektorunda əməkdaşlıq etməyə cəhd edir. ABŞ-ın Enerji İnformasiya Adminstrasiyası hələ 2007-ci ildə Xəzər hövzəsinin gündəlik enerji hasilatının 2015-ci ilə qədər 4,3 milyard proqnozlaşdırmaqla regionun ehtiyatlarının 2017-ci ildən 49 milyard barelə qədər artacağını təsdiq edib [17].

Qeyd etdik ki, ABŞ Xəzər regionu ilə bağlı olan bütün bütün layihələrində Azərbaycana xüsusi önəm verir. Xəzər hövzəsinin neft-qaz ehtiyatları Azərbaycanın geoiqtisadi dəyərini artırdı, milli inkişafına səbəb oldu, Azərbaycana həmçinin regionun vahid liderlik statusunu qazandırdı.

Nəzərə yetirək ki, "Əsrin müqaviləsi" imzalandığı tarixdən bu günə qədər Azərbaycan Respublikasında 308 milyon ton neft hasil edilmişdir [18,75].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər hövzəsinin Azərbaycan sektorunu geoiqtisadi cəhətdən səciyyələndirərək demişdir: "Bakı-Tbilisi-Ceyhan kəmərinin inşa olunduğu zaman Azərbaycan ildə 15-16 milyon ton neft hasil edirdisə, hazırda bu rəqəm 50 milyon tondan artıqdır. Eyni sözləri qaz ehtiyatları haqqında da söyləmək olar. Bu gün Azərbaycan ildə 30 milyard kub metrə yaxın qaz hasil etməklə,regionun əsas qaz ixracatçılarından birinə çevrilmişdir" [19]. Təbii ki, ölkə başçısının bu fikirləri Azərbaycanın hazırki geoiqtisadi xarakteristikasını əks etdirən reallıqdır.

Bu yanaşmada da Xəzər dənizindəki neft-qaz ehtiyatları Azərbaycanı Cənubi Qafqazda geosiyasi və geoiqtisadi liderə cevirib söyləyərkən, məhz bu kimi reallıqlar əsas götürülür. Belə ki:"2015 –ci ilin məlumatına görə Azərbaycanın enerji ehtiyatları iki milyard ton neft və 2,6 trilyon kubmetr təbii qazdan ibarət idi" [20;1].

Diqqət yetirək ki, vaxtilə "Əsrin müqaviləsi" bağlanarkən neft ehtiyatları 511 milyon ton (4 milyard barel) neft dəyərləndirilirdi. Azərbaycanın mülkiyyəti 258 milyon ton neft və 55 milyon kub metr qazdan ibarət, ölkənin gəlirinin 34 milyard ABŞ dollarından ibarət olduğu göstərilirdi. Mövzunu araşdıranda problemin bütün istiqamətlər üzrə təhlilini verən Ə.Həsənovun Xəzər hövzəsinin müasir geosiyasi münasibətlərində öz milli və geoiqtisadi maraqlarını təmin etməyə çalışan aşağıda- kı əsas aktorları diqqətə çatdırdığını görürük. Bunlar:

-müstəqillik qazanmış yerli ölkələr;

-regionda özünün ənənəvi üstün mövqelərini qorumağa çalışan ölkələr (Rusiya,İran və Türkiyə);

-hövzədə fərqli qlobal maraqlar üzrə əlverişli mövqelər qazanmağa çalışan ölkələr (ABŞ, AI,Cin,Yaponiya və s". Bu aktorların hər biri Xəzər hövzəsinin əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərinə yiyələnərək, özlərinin və müttəfiqlərinin maraqlarını təmin etməyə çalışırlar" [1;5] Böyük Britaniyanın BP şirkətinin "Energetika sahəsinin icmalı 2016" hesabatna görə, dünyanın bütövlükdə təsdiqlənmiş 1.383 milyard barel neft ehtiyatlarının 371 milyard bareli, dörddən biri,187 trilyon kub metr, təbii qaz ehtiyatlarının isə 107 trilyon kub metri, yaxud üçdən ikisi Xəzər hövzəsi ölkələrinin payına düşür" [21;12]

Problemi analiz edərkən mövzu ilə bilavasitə bağlı olan "şelf" anlayışına da rast gəlinir. Bəs "şelf" hansı mənanı ehtiva edir? Bu mənada "şelf" ingilis sözü olub "qurunun suda davamı"anlamını verir. Şelfdə karbohidrogen istehsalı quruya nisbətən daha mürəkkəb və baha başa gəlir." İndi artıq dünyada istehsal olunan karbohidrogenin 30 faizi şelfdən əldə olunur. Proqnoza görə, bu pay 60 faizə çatmalıdı. İş ondadır ki, quru çox ciddi öyrənilib, orada yeni iri yataqların kəşf edilməsini gözləmək olmaz". [22;13]

Yer kürəsinin geoloji cəhətdən öyrənilməsinin müasir mərhələsində dünyanın neft ehtiyatları 140 milyard ton olduğu göstərilir.

Xəzər dənizinin dibinin neftegeoloji rayonlaşmasına uyğun olaraq onun neftli hövzəsi üç yerə: Şimali Xəzər, Orta Xəzər və Cənubi Xəzərə bölünür. Rusiya geoloqlarının kəşfiyyat məlumatlarına əsasən, regionun karbohidrogen xammalının-neft, qaz kandonseti və qazın ehtiyatı 12 milyard ton, o cümlədən 7 milyard ton neft oıduğu qeyd edilir. Bəzi məlumatlara görə, Xəzər hövzəsinin təkində neft ehtiyatları 13 milyard, bir başqa məlumata görə, 22 milyard ton, digərinə görə isə 50 milyard ton qiymətləndirilir. Amerika mütəxəssisləri belə hesab edirlər ki, Xəzər hövzəsində ehtiyatlar ehtimal olunandan daha coxdur. ABŞ-ın Dövlət departamentinin məruzəsində göstərilir." 27,5 milyard ton neftə çatan potensial ehtiyatlara malik Xəzər regionu dünya neft bazarında daha əhəmiyyətli yeni oyunçuya çevrilə bilər" [10;86]

Bu proqnozlara inansaq Xəzər hövzəsinin geoiqtisadi çəkisi yüksəkdir və neft ehtiyatları dünya ehtiyatlarının beşdən bir hissəsini təşkil edir və İraqla Küveytin birgə

götürülmüş ehtiyatlarına bərabərdir. Belə hesab olunur ki.Xəzər nefti son 100 ildə dünya tələbatını ödəməyə kifayət edər. [10;86]

İndiyədək qazılmış 71 neft-qaz yatağının dənizdə yerləşən 38 yataqdan 17-sində istismar davam edir. Azərbaycan nefti dünya bazarında marker növünə görə yüksək keyfiyyətli təbii xammal kimi qəbul edilir. Xəzərdə hasilatda sürətlənən meyllər respublikanın neft-qaz potensialına yeniliklər gətirmişdir. Hazırda Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının ümumi həcminin 6-8 milyard ton neftə bərabr olması daha çox səslənməkdədir. Quru sahələrində də proqnoz ehtiyatları 1 milyard ton həcmində ehtimal edilir. Ümumilikdə ölkənin karbohidrogen ehtiyatları orta hesabla 8 milyard ton neftə ekvivalent tutulur. Bu, indiki əhali sayında hər nəfər üçün 1000 tona yaxındır. Digər tərəfdən bu göstərici ayrı-ayrılıqda dünyanın inkişaf etmiş 7 sənaye dövlətlərindən xeyli yüksəkdir. Ehtiyatların həcminə görə,respublikamız Şərqi Avropa, Avstraliya və Okeaniya, Cənub-Şərqi Asiya ölkələrindən xeyli irəlidə gedir. Bizim Xəzər şelfində aşkarlanan qaz ehtiyatları dünya ehtiyatlarının 1%-i həcmində qiymətləndirilir. [24;17]

Beləliklə, araşdırmaya yekun vuraraq göstərək: a) müasir dövrdə böyük dövlətlər arasında rəqabətdə hərbi-siyasi sahə öz yerini geosiyasi və geoiqtisadi sferalara vermişdir; b) Xəzər hövzəsinin geoiqtisadi vəziyyəti alimlərin də elmi nəzəri fikirlərində təhlilə cəlb olunmuşdur; c) Xəzər hövzəsinin neft-qaz ehtiyatları geoiqtisadi çəkisinə görə dünya ehtiyatları arasında əhəmiyyətli yer tutmuşdur, regional dövlətlərarası münasibətlərin xarakterinə də əsaslı təsir etmişdir; d) Xəzər hövzəsi regionu qonşu yaxın, uzaq dövlətlərin diqqətini cəlb edən, onların geosiyasi və geoiqtisadi maraqlarının kəsişdiyi bölgəyə çevrilmişdir; e) Xəzər hövzəsinin neft-qaz ehtiyatları Xəzərətrafı dövlətlərin transmilli proseslə yanaşı, region və Avropa, ABŞ ölkələrinin enerji təhlükəsizliyinin və iqtisadi təhlükəsizliyinin təmin olunasında əhəmiyyətli rol oynayır; f) Xəzər hövzəsinin ehtiyatlarına yiyələnmə və yaxud ondan daha çox istifadə etmək Xəzəryanı dövlətlərin əsas maraq dairəsi olmuşdur.

## ƏDƏBİYYAT


1. *Ə.Həsənov Xəzər hövzəsinin geosiyasi xarakteristikası və müasir dünya siyasətindəki rolu// Geostrategiya. 2016, may-iyun,N.3(33), s.3-7*
2. *BP-nin Dünya enerjisinə statistik baxış. iyun 2008. p. p 6.9 22 və 24.*
3. *E.Nəsibov Siyasət. Bakı, Elm, 2009 1-ci cild, 540 s.*
4. *Geofrey Kemp and Robert Harvey, Strategic Geography and the Changing Middle East (Washington. DC.Carnegir Endowment for international Peace. 1997). p.135*
5. *Nəsibli N.Azərbaycanın geopolitikası və neft. Bakı, XUN, 2000, 190 s.*
6. *Anthony Hyman,"Central Asia.Kuwait by the Caspian" The Middle East Oktober 1994, p.32*
7. *Associated Press (25 Februaru 1998).*
8. *Federal News Servise (12 february 1998).*
9. *Azər.Tac 21 aprel 1998*
10. *Əli Həsənov. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti, Bakı, 2016.*
11. *A.Rasizade, Azerbaijanandthe Oil Trade/Prospects and Pitfalls. The Brown Journal of Word Allairs 4, no2 (Summer/Fall 1997)/283.*
12. *İnozemtsev B.Kiçik məkanda böyük siyasətlər:Azərbaycanın geosiyasi arenada gələcək planları nədir? //Azərbaycan FOCUS, Bakı. SAM.2009.1/1s 59-70*
13. *E.Abdullayev. Azərbaycan neft sənayesinin inkişafında xarici kapital Qanun jurnal,1999, N2, səh 25-27.*
14. *AzərTac 28 avqust 2013-cü il (ABŞ Xəzər dənizini enerji ehtiyatları ilə bağlı hesabat yayılıb)*
15. *Real Cəfərli.ABŞ Xəzər dənizinin enerji ehtiyatlatı ilə bağlı hesabat yayıb. //AzərTac. 28 avqust 2013-cü il.*
16. *Ə.Mehdiyev. Azərbaycan Respublikasının neft siyasəti: əsas vəzifələri ilkin nəticələr", "Geostrategiya" jurnalı N04(34), iyul-avqust 2016*
17. *C.Deli Xəzər boru kəməri müharibələri /17 avqust 2007))İnternational Sekuritu/ Enerji/Analisus/2007/08/17/*
18. *E.Nəsirov Azərbaycanın neft və qaz sənayesi, nailiyyətlər və perspektivlər Azerbayjan FOCUS, Bakı,SAM,2010, 2/2/s.75-85.*
19. *Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynanın DEN, PROFİL və Birinci Milli televiziya kanalına müsahibəsi //www.prezident. az.*
20. *Гасанов А.Азербайджан несомненным геополитический и геоэконо-мический лидер Южново Кавказа благодаря бассейну Каспийского моря. // Bakuinform.az.Новости. 20.11.2016. s 1*
21. *British Petroleum Statistikal of World Enerju, 2016, London: 2016, 88p*
22. *A.Осадчин Большая нефть Каспия. //Наука и жизнь.N.12 декабрь 2016 с.12-25*
23. *Литера Б.Нефть и газ в бассейне Каспийсково моря:состояние и перс-рективы //Журнал Кавказ и глобализация, 2007.том 1/2//с.32-78*
24. *Azərbaycan Neft Strafegiyası haqqında ümumi məlumat //QALEREYA, 2012 21 oktyabr, s.10-28*



**Ключевые слова:**
*Каспийский бассейн, Прикаспийские государства, Энергетические ресурсы Азербайджана, Международная Оперативная Компания.*

**Key words:**
*Caspian Basin, Caspian littoral states, Energy Resources of Azerbaijan, International Operation Company.*



**РЕЗЮМЕ**

В статье, ссылаясь на мысли мировых ученых, сделана попытка раскрыть экономически-торговый рисунок состояния Энергетических ресурсов Прикаспийских государств на основании различных источников, с освещением геополитической и геоэкономической характеристик Каспийского бассейна и показать позицию Азербайджана.

**SUMMARY**

In this article by highlighting the geopolitical and geo-economical characteristics of Khazar basin in relation with opinions of world scientist according to the various sources tried to explain economical-commercial appearance of energy resources of Caspian littoral states and to show the position of Azerbaijan.

# İqtisadiyyat



ŞƏFA ƏLİYEV
İqtisad elmləri doktoru

## AZƏRBAYCANDA STRATEJİ YOL XƏRİTƏLƏRİNİN REALLAŞDIRILMASINDA XÜSUSİ İQTİSADİ ZONALARIN ƏHƏMİYYƏTİ



Dünya iqtisadiyyatında müasir tendensiyalar milli iqtisadiyyatların rəqabətqabiliyyətinin artırılmasını, iqtisadi inkişaf proseslərinin davamlılığını, milli iqtisadiyyatın maliyyə böhranları və iqtisadi tənəzzüllərə qarşı güclü immunitetinin olmasını şərtləndirir. Son illərdə qlobal iqtisadi çağırışların və tendensiyaların təsirindən dünya ölkələrinin milli iqtisadiyyatlarının mövcud strukturunun, mexanizmlərinin yenilənməsi istiqamətində tədbirləri güclənmişdir. Bunlarla əlaqədar olaraq, dünya iqtisadiyyatının müasir prioritet istiqamətləri hər bir dövlətin iqtisadi siyasətində daha mütərəqqi iqtisadi mexanizmlərin və iqtisadi alətlərin tətbiqinə zərurət yaratmışdır. Dünyanın 135-ə qədər ölkəsində tətbiq edilmiş, bir çox ölkələrin iqtisadi inkişaf proseslərində tarixi nailiyyətlər qazanılmasında mühüm əhəmiyyət kəsb etmiş, investisiyaların və müasir texnologiyaların cəlbinə, sosial-iqtisadi problemlərin kompleks həllinə ciddi töhfələr vermiş və müasir dövrdə də məhsuldar fəaliyyəti ilə diqqət mərkəzində olan Xüsusi İqtisadi Zonalar (XİZ) bu kimi effektiv iqtisadi mexanizmlərdən hesab olunur[1]. Qeyd edək ki, ölkələrarası inteqrasiya proseslərində, ümumiqtisadi inkişaf proseslərindən geri qalmış iqtisadiyyat sahələrinin və ayrı-ayrı ərazilərin inkişafının sürətləndirilməsində, iqtisadi islahatların daha da dərinləşdirilməsi və bazar iqtisadiyyatı infrastrukturunun gücləndirilməsində, sahibkarlığın inkişafının sürətləndirilməsində, müxtəlif strateji hədəflərin reallaşdırılmasında XİZ əlverişli və çevik iqtisadi-maliyyə və gömrük güzəştləri vasitəsilə qarşıya qoyulan mühüm vəzifələrin yerinə yetirilməsinə imkan verir[2]. XİZ-in tədqiqi əsasında doktorluq işlərini müdafiə etmiş bir qrup elmi tədqiqatçıların (P.V.Pavlov, A.M.Basenko və A.N.Brıntsev) XİZ-in mahiyyəti ilə bağlı irəli sürdükləri mülahizələr, bu kimi zonaların müasir funksiyalarının mahiyyəti ilə üst-üstə düşür. P.V.Pavlova görə XİZ ölkənin iqtisadi sistemində əhəmiyyətli yer tutmaqla, burada pozitiv iqtisadi və sosial mühit yaratmağa və iqtisadi sistemin iyerarxiyasının müxtəlif səviyyələrində özünü müsbət tərəfdən göstərməyə qadirdir[3]. A.M.Basenkoya görə, XİZ iqtisadi ərazi qurumu baxımından bazar münasibətləri meyarları üzrə inkişaf etmiş mexanizm kimi diqqəti cəlb edir. Burada sahibkarlıq fəaliyyətinin nizamlanması üçün xüsusi mexanizm qüvvədədir və bunlara effektiv iqtisadi alətlər və texnologiyalar, güzəştli vergi-gömrük və valyuta-maliyyə rejimləri daxildirlər[4]. A.N.Brıntsev isə XİZ-in mahiyyətini onların yaranması ilə bağlı qarşısına qoyulan məqsədlərlə uyğunluğunda axtarmışdır[5].

Qeyd edək ki, klassik iqtisadi nəzəriyyənin banisi A.Smit "Xalqların sərvəti" adlı əsərində "iqtisadi zona" anlayışının formalaşdığı əsas fəaliyyət sahəsi olan ticarətin inkişafı məsələlərinə, sərvətlərdən səmərəli istifadəyə xüsusi önəm vermişdir[6]. Məlumdur ki, dünya iqtisadi proseslərində ən mühüm təsir qüvvəsinə malik amil-lərdən biri kimi milli iqtisadiyyatların Beynəlxalq Əmək Bölgüsündə iştirakı və ixtisaslaşması məsələləridir. Xüsusilə, son 20 il ərzində dünya təsərrüfat sistemində və inteqrasiya məkanında qloballaşma proseslərinin sürətlənməsi, bu məsələlərə sistemli yanaşmanı və strateji hədəflərin mümkün qədər milli iqtisadiyyatların inkişaf prioritetlərinin və milli iqtisadi maraqların nəzərə alınması şərti ilə müəyyənləşdirilməsi tələb olunur. Bu proseslərdə əksər iqtisadi fəaliyyət prioritetləri XİZ-in bu və ya digər fəaliyyət elementləri ilə üst-üstə düşür[7]. XİZ-dən uğurlu istifadə sahəsində hazırda dünya iqtisadiyyatının önündə gedən ölkələrin tarixi nailiyyətləri və təcrübəsi diqqət çəkir[8]. Belə ki, Azad iqtisadi zonalar üzrə Qanun ilk dəfə 1934-cü ildə ABŞ-da qəbul edilmiş və bu zonaların ölkədə iqtisadi islahatların sürətləndirilməsində, sahibkarlığın inkişafında əlavə stimulların verə bilmək iqtidarında olmasında rolu dövlətin iqtisadi siyasətinin mühüm elementlərindən biri səviyyəsinə qaldırılmışdır. ABŞ-da XİZ-in yeni funksiyalarla ölkənin iqtisadi sisteminə daxil edilməsi, tezliklə bu effektiv iqtisadi alətin müxtəlif modifikasiyalarının

formalaşmasına və yeni tipli XİZ-in yaradılmasına səbəb olmuşdur. Amerika iqtisadçıları M.Frazye və R.Rey XİZ-in mahiyyəti və formaları ilə bağlı dəyişiklikləri əsasən 3 mərhələyə bölmüşlər: anbar və tranzit zonalar (sərbəst limanlar, ticarət-anbar zonaları), sərbəst sənaye zonaları (ixrac-istehsal təyinatlı) və kompleks azad sahibkarlıq zonaları[9]. Ümumilikdə, XX əsrin ilk on altı ilinin əvvəlinə artıq dünyanın 136 ölkəsi bu kimi zonaların yaradılmasına nail olmuşdur. Dünya XİZ-inin coğrafi baxımdan bölgüsündə Asiya ölkələri 33 %, ABŞ - 26 %, Mərkəzi Amerika və Meksika - 6 %, Karib regionu ölkələri - 9 %, Yaxın Şərq - 2 %, Şimali Amerika - 2 %, Cənubi Amerika - 2 %, Avropa - 2 % və keçid iqtisadiyyatlı ölkələr 15 % yer almışlar[10]. Digər bir inkişaf etmiş ölkədə - Yaponiyada uğurlu və spesifik XİZ modeli kimi formalaşdırılan texnopolislərin yaradılması bir sıra meyarlarla bilavasitə bağlıdır və bunların əsasında universitet və biznes strukturları, həmçinin yerli hakimiyyət orqanlarının qarşılıqlı maraqlarının olması durur. Ölkədə texnopolislərin yaradılmasına 1960-cı illərin əvvəllərində başlanmışdır[11]. Həmin dövrdə Yaponiya hökuməti özünün iqtisadi siyasətində ən yüksək texnologiyaların işlənməsi və tətbiqinə mühüm yer verməyi strateji vəzifə kimi müəyyənləşdirmişdi. Hazırda dünyanın ən böyük texnopolisi olan "Tsikuba" 1963-cü ildə İbaraki prefekturasında və Tokiodan 60 km şimal-şərqdə 28 hektar ərazidə təşkil edilmişdir. İlk dövrlərdə bu texnopolisin fəaliyyəti üçün zəruri iri investisiya resursları əsasən Yapon hökuməti tərəfindən ayrılmış və yalnız texnopolisin uğurları genişləndikdə iri biznesin və özəl investorların bu effektiv XİZ-ə marağı xeyli artmışdır. Hazırda dünya iqtisadiyyatında öz gücünə görə ikinci yerdə möhkəmlənən Çinin iqtisadi inkişaf proseslərində XİZ-in əhəmiyyəti olduqca böyükdür. Bu ölkənin XİZ-ni bir çox dünya mütəxəssisləri, o cümlədən akademik Z.Səmədzadə "Çin möcüzələri" kimi xarakterizə edirlər[12]. 1980-ci illərin əvvəllərində bu ölkədə 5 kompleks XİZ zonaları təşkil olunmuşdur. Bunlara Şençjen, Çyuxay, Şantou, Syamin və Xaynan XİZ-i daxildirlər. Əvvəlcədən kiçik bir kənd olan Şençjen qısa müddət ərzində 2 milyon nəfərlik əhalisi olan şəhər səviyyəsinə qədər inkişaf etmişdir. Burada 4 mindən çox rəqabətqabiliyyətli müəssisələr, o cümlədən, minə yaxın müştərək müəssisələr fəaliyyət göstərirlər. Bu zonanın ərazisində illik ixracın həcmi son 20 ildə orta illik 15 milyard ABŞ dolları həcmində təşkil etmişdir. Azərbaycanla hərtərəfli və sıx strateji əməkdaşlıq əlaqələri olan Türkiyədə "Sərbəst bölgələr" qanunu 1985-ci ildən qüvvəyə minmişdir. Türkiyə XİZ-nin strateji məqsədlərinə ixracatla bağlı istehsalın stimullaşdırılması, xarici investisiya və texnologiyaların gətirilməsinin sürətləndirilməsi, ticarətin inkişafı ilə bağlı imkanların genişləndirilməsi və iqtisadi fəallığın artırılması aiddir. Bundan əlavə, Azərbaycanla ümumi sərhədlərə malik olan İranın XİZ təcrübəsi xüsusilə diqqəti cəlb edir. Bu ölkədə XİZ-ə rəhbərlik Ali Şura tərəfindən həyata keçirilir və bu sahə üzrə müvafiq qanunvericilik bazası 1993-ci ildən qüvvədə olan "Ticarət və İstehsal zonaları haqqında" Qanunla tənzimlənir. İranda 15-ə yaxın müxtəlif modifikasiyalı XİZ fəaliyyət göstərirlər. Ölkə XİZ-nin əsas xüsusiyyətlərinə 15 il ərzində mənfəətdən vergi tutulmamasını qeyd etmək olar. İranda XİZ statusuna malik zonalardan biri kimi Fars körfəzinin ən iri adalarının birində - , Şəkidə yerləşən XİZ-i göstərmək olar. Bu regiona yatırılan investisiyaların həcmi 2 milyard dollar səviyyəsində olmuşdur. İran XİZ-indən biri - "Aras" XİZ-i Azərbaycanla - Naxçıvanla sərhəd zonasında təşkil olunmuşdur. 2003-cü ildən fəaliyyət göstərən bu XİZ-in ərazisi 1670 kv km-ə bərabərdir. İranın bu XİZ-i yaratmaqda əsas hədəflərindən biri ölkənin sərhədyanı ərazilərinin iqtisadi inkişafının təmin edilməsi, sosial və regional problemlərin həllinə əlavə stimulların verilməsi və qonşu ölkələrlə ticarət əməliyyatlarının genişləndirilməsidir.

Qeyd edək ki, Azərbaycanda "iqtisadi zona" anlayışları və XİZ-in mahiyyətinin formalaşması proseslərinin tarixi ölkəmizin müstəqillik əldə etməsi tarixi ilə üst-üstə düşmüşdür[13]. 1990-cı illərin əvvəllərindən başlayaraq, Azərbaycanda "iqtisadi zona" anlayışları üzrə diskussiyalara başlanılmışdı, lakin növbəti 10 ildə bu sahədə ciddi irəliləyişlər əldə etmək mümkün olmamışdır. Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixli "Azərbaycan Respublikasında XİZ-in yaradılması haqqında" Fərmanından sonra XİZ barədə diskussiyalar xeyli intensivləşmişdir. Fərmanla Azərbaycanda bu kimi zonaların rəsmi olaraq, ilk dəfə xüsusi iqtisadi zonalar kimi yaradılmasının nəzərdə tutulması və bununla bağlı müvafiq tədbirlərin görülməsi, dövlətin iqtisadi siyasətinin formalaşdırılması, bu sahədə dünya təcrübəsinin öyrənilməsi və XİZ mahiyyətindən doğan mexanizmlərin reallaşdırılması üçün qanunvericilik bazasının hazırlanması və qəbul edilməsi məsələləri üçün tapşırıqlar verilmiş və nəhayət, XİZ haqqında Azərbaycan Respublikasının Qanunu 2009-cu ilin aprel ayının 14-də qəbul edilmişdir[14]. Həmin Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2009-cu il tarixli Fərmanı verilmişdir[15]. Qanunda qeyd edilir ki, XİZ sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi rejimin tətbiq edildiyi Azərbaycan Respublikası ərazisinin məhdud hissəsidir. Xüsusi rejim dedikdə isə sahibkarlıq fəaliyyətinin güzəştli şərtlərlə həyata keçirilməsi XİZ ərazisində onun rezidentlərinə tətbiq edilən rejim nəzərdə tutulur. Bu Qanunla ölkəmizdə XİZ-in yaradılmasının məqsədi kimi xüsusi hüquqi rejimin və müasir texnologiyaların tətbiqi əsasında yeni istehsal və xidmət sahələrinin təşkili yolu ilə Azərbaycan Respublikasında sahibkarlığın və ümumilikdə milli iqtisadiyyatımızın inkişafının sürətləndirilməsi müəyyənləşdirilmişdir.

Qeyd edək ki, XİZ-rin təşkil və tətbiqi kompleks məsələlərin həllini şərtləndirir[16]. Azərbaycanda XİZ institutunun milli iqtisadi sistemə daxil edilməsinə başlanılmasına baxmayaraq, bu proseslərin sürətləndirilməsinə zərurət vardır. Bu proseslərin intensivləşdirilməsi məqsədilə dünya iqtisadi proseslərinin müasir tələbləri və tendensiyaları nəzərə alınmaqla, Azərbaycan Respublikasının XİZ üzrə Milli İqtisadi Strategiyanın işlənib hazırlanması, qəbul edilməsi və bu strategiyanın həyata keçirilməsi üçün dövlət proqramlarının qəbul edilməsinə zərurət qalmaqdadır. Hər hansı bir milli iqtisadi konsepsiyanın və ya strategiyanın qəbul edilməsi, bu mühüm iqtisadi vəzifələrin gerçəkləşdirilməsi sistemli yanaşma və optimal təcrübi reallaşdırma proseslərinin təşkilini tələb edir[17]. Məsələn, vaxtilə XİZ-in ABŞ iqtisadiyyatında hansı meyarlarla əhəmiyyət daşıması və yeni iqtisadi mexanizm kimi hansı nəticələrin əldə edilməsinə

imkan verə bilməsi məsələləri konseptuallaşdırılmış və Milli İqtisadi Strategiya səviyyəsinə qaldırılmışdır[18]. Rusiyada XİZ üzrə əhəmiyyətli prioritet vəzifələr içərisində son on ildə texniki-tətbiq və elmi-texniki təyinatlı XİZ modellərinə üstünlük verilməsi tendensiyası güclənməkdədir[19]. Başqa bir MDB ölkəsində-Azər-baycanla iqtisadi inkişaf prioritetləri daha çox oxşar olan Qazaxıstanda isə milli iqtisadiyyat sahələrinin inkişafı, xüsusilə, hasilat sənaye sahələri ilə bərabər, digər iqtisadiyyat sektorlarının davamlı inkişafı məqsədilə konseptual yanaşmalardan istifadə daha çox diqqəti cəlb edir. Maraqlıdır ki, hazırda MDB ölkələri içərisində, XİZ yaradılması və fəaliyyəti ilə bağlı, xüsusilə, sənaye-innovasiya təyinatlı XİZ modellərinin təşkili ilə daha çox əlaqəli olan Konsepsiyanın işlənib hazırlanması və qəbul edilməsi Qazaxıstanda daha uğurlu olmuşdur. Belə ki, 2007-ci ildən qüvvədə olan bu konsepsiya Qazaxıstanda XİZ-in yaradılması və fəaliyyəti proseslərinə əsaslı müsbət təsir göstərə bilmişdir. Bu dövrdən başlayaraq, ölkədə sənaye zonalarının, texnoparkların, sənaye klasterlərinin və biznes-inkubatorların təşkili prosesləri intensivləşmişdir.

Mövcud dünya təcrübəsi və ölkə iqtisadiyyatının strateji prioritet inkişaf istiqamətləri nəzərə alınmaqla, Azərbaycanın XİZ-lər üzrə Milli İqtisadi Strategiyasına bu kimi strateji hədəflərin daxil edilməsi məqsədəuyğun olardı:

– ölkə iqtisadiyyatının davamlılığının və iqtisadi artımın təmin edilməsinə əlavə stimulların verilməsi;

– milli iqtisadiyyatın strukturunun modernləşdirilməsi və iqtisadiyyat sahələrinin innovasiyalaşdırılması;

– ölkənin milli iqtisadiyyat sahələrinə yeni texnologiyaların gətirilməsi və bu sahələrə qeyri-neft investisiyaların cəlbinin sürətləndirilməsi;

– qeyri-neft sektorunun potensialının gücləndirilməsi, ənənəvi iqtisadiyyat sahələrinin müasirləşdirilməsi proseslərinin intensivləşdirilməsi, bu sahələrdəki müəssisələrinin rəqabətqabiliyyətinin artırılması;

– müasir elm və innovasiya tutumlu iqtisadiyyat sahələrinin təşkilinin sürətləndirilməsi və innovasiya məhsullarının həcminin artırılması, innovasiyaya mane olan amillərin aradan qaldırılması;

– idxaləvəzedici istehsal sahələrinin yaradılması və ixractəyinatlı məhsulların çeşidinin artırılması üçün modern və yüksək texnologiya əsaslı müəssisələr şəbəkəsinin təşkili, bununla ölkənin ixrac potensialının, xüsusilə, qeyri-neft məhsulları üzrə ixracın artırılması və s.

Müasir dövrdə, xüsusilə ölkədə tarixi və strateji iqtisadi hədəflərin müəyyənləşdirildiyi bir şəraitdə XİZ-in milli iqtisadi sistemə verə biləcəyi töhfələr və milli iqtisadiyyatın şaxələndirilməsində bu kimi zonaların əhəmiyyəti xüsusi diqqət çəkir. Hazırda ölkəmizdə iqtisadi artımın iqtisadi inkişafa çevirəcək strateji yol xəritəsinin reallaşdırılmasına başlanılmışdır və bu tarixi sənəd dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün kifayət qədər ciddi və ümidverici bir sənəddir[20]. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndən məlum olur ki, milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmış, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışları hazırlanmışdır[21]. Bundan əlavə, milli iqtisadiyyatın perspektivi çərçivəsində müəyyənləşdirilən dörd strateji hədəfdən biri biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlıdır. Biznesin və sahibkarlığın inkişafının sürətləndirilməsində dünya təcrübəsində XİZ-in mühüm əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda XİZ-in tətbiqinin sürətləndirilməsi problemlərinə sistemli yanaşma mühüm zərurət kimi ortaya çıxır. Belə ki, XİZ-in dünya iqtisadiyyatı proseslərində və bir çox iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin rəqabətqabiliyyətinin artırılmasında səmərəli iqtisadi mexanizm kimi özünü doğrultmasına baxmayaraq, ölkəmizdə XİZ-in milli iqtisadi sistemə daxil edilməsi proseslərini sürətləndirmək üçün XİZ modellərinin yaradılması üzrə operatorların seçilməsi məqsədilə müsabiqələr keçirilməmişdir. Bu mühüm tədbirlərin reallaşdırılması, XİZ kimi mürəkkəb iqtisadi mexanizmin tətbiqi problemlərinə sistemli yanaşma ilə bərabər, bu istiqamətdə təcrübi proseslərin intensivləşdirilməsi üçün Milli İqtisadi Strategiyanın qəbul edilməsi və onun yaxın on ildə, məsələn, 2017-2026-cı illəri əhatə edən 10-illik Dövlət Proqramı çərçivəsində reallaşdırılması daha əhəmiyyətli olmaqla bərabər, ciddi səmərə verə bilərdi. Bundan əlavə, XİZ-in milli iqtisadi fəaliyyət sahələrində tətbiqinin genişləndirilməsi və XİZ institunun gücləndirilməsi milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə hazırlanmış



və təsdiq edilmiş strateji yol xəritələrinin reallaşdırılmasında mühüm əhəmiyyət kəsb edə bilər, bu kimi zonaların məhsuldar fəaliyyətləri hesabına strateji yol xəritələrində nəzərdə tutulduğu kimi Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin etməkdə əlavə stimullar yaranacaqdır və s.

## ƏDƏBİYYAT


1. *Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların yeni iqtisadi instrument kimi tətbiqi problemləri və onların modelləşdirilməsi // "Məruzələr", AMEA, №3, Bakı, 2008, S.144-151.*
2. *Алиев Ш.Т. Роль специальных экономических зон в развитии предпринимательства и инвестиционной активности // «Российское предпринимательство», Россия, Москва, № 7(205), 2012, С. 180-184.*
3. *Павлов П.В. Особые экономические зоны как институциональные инструменты включения России в глобализирующееся мировое хозяйство. Дисс. д-ра экон, наук, Таганрог (Россия), 2006-360 с.*
4. *Басенко А.М. Функции свободных экономических зон в механизме интеграции национальной экономики в системе мирохозяйственных связей. Дисс. д-ра экон. наук. Ростовский Государственный Экономический Университет (Россия), 2002-342 с.*
5. *Брынцев А.Н. Формирование инвестиционного климата в промышленности в условиях свободной экономической зоны. Дисс... д-ра экон. наук, Академия Народного Хозяйство при Правительстве РФ. Москва, 2004-322 с.*
6. *Smith Adam. An Inquiry into the Nature and Causes of the Wealth of Nations (1776).*
7. *Aliyev Sh.T. Importance of Special Economic Zones in Innovation of National Economics. Pensee multidisciplinary journal – Paris, France (IF = 0,063 – by Thomson Reuters), 2014, Vol.76, Issue, 11.-P. 12-20.*
8. *Aliyev Sh.T. The Perspectives of Enforcement of the Special Economic Zones Role in Acceleration of Extension of the Social-Economic Problems in Azerbaijan in the Context of the Experience of Poland, X International Scientific Conference of Economics – E-society in Central and Eastern Europe, Nalenchov, May 11-13, 2009.- P. 409-412.*
9. *Фразье М.И., Рей Р. «Возможности создания зоны свободного предпринимательства в Болгарий» // Журнал «Вопросы экономики» - 1991. - №10.- С. 115 – 125.*
10. *Алиев Ш.Т. Проблемы вариативности создания и функционирования специальных экономических зон в Азербайджане в контексте мирового опыта // Журнал «Маркетинг и менеджмент инноваций», Сумы, 2010, С.144-148.*
11. *Алиев Ш.Т. Вектор специальных экономических зон в инноватизации // Журнал «Инновационная деятельность», Саратов, № 4 (13), 2010, С. 7-11.*
12. *Səmədzadə Z.Ə. Çin iqtisadi möcüzəsi. Bakı, Gənclik, 2001. -324 s.*
13. *Алиев Ш.Т. Фактор особых экономических зон в экономическом развитии Азербайджанской Республики // «Философия и хозяйства». Альманах центра общественных Наук и Экономического факультета МГУ, №2 (50), Москва, 2008.- С. 95-102.*
14. *"Xüsusi iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının Qanunu". 14 aprel 2009-cu il.*
15. *«Xüsusi iqtisadi zonalar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 iyun tarixli 101 nömrəli Fərmanı.*
16. *Əliyev Ş.T. Qeyri-neft sektorunun inkişafında xüsusi iqtisadi zonaların təşkili məsələləri // Audit jurnalı. 2014, № 3, S. 43-47.*
17. *Aliyev Sh.T. The Strategics and The Role of Oil Factor in Transition to the Innovation Economics of Azerbaijan. International symposium on Innovative Economic Policies FOF Climate Change Mitigation, Italia, 2009.-P. 265-268.*
18. *Aliyev Sh.T. «The Realization Problems of Effective Integration Methods of the Economic Model Formation of Azerbaijan». International Business-Economic Research Conference, Las Vegas (USA), The Clute Institute, October 5-7, 2009.*
19. *Алиев Ш.Т. Важность управления процессом создания и функционирования особых экономических зон в странах СНГ//Журнал «Менеджмент в России и за рубежом », Москва, № 3-2009.-С.69-72.*
20. *Babayev V. İqtisadi artımı iqtisadi inkişafa çevirəcək Strateji Yol Xəritəsi/http:www.science.gov.az.*
21. *Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il/http://www.president.az.*


**Açar sözlər:** *Azərbaycan, strateji yol xəritələri, strateji hədəflər, xüsusi iqtisadi zonalar, milli iqtisadiyyat, xüsusi iqtisadi zonaların tətbiqi problemləri, xüsusi iqtisadi zonların tətbiqi perspektivləri.*

**Ключевые слова:** *Азербайджан, стратегические дорожные карты, стратегические цели, специальные экономические зоны, национальная экономика, проблемы внедрения специальных экономических зон, перспективы внедрения специальных экономических зон.*

**Key words:** *Azerbaijan, strategic road maps, strategic purpose, special economic zones, the national economy, the problems of implementation of special economic zones, the prospects for the implementation of special economic zones.*

## РЕЗЮМЕ

В статье исследована важность применения специальных экономических зон в реализации стратегических дорожных карт в Азербайджане. Анализированы мировой опыт по организации и функционированию специальных экономических зон, их эффективность и роль в развитии национальной экономики. Раскрыты эффективность специальных экономических зон в усилении развития отдельных секторов экономики и регионов страны. Обоснована важность ускорения внедрения специальных экономических зон в экономическую систему Азербайджана.

В конце статьи дан ряд предложений и рекомендаций по важности применения специальных экономических зон в реализации стратегических дорожных карт в Азербайджане в ближайшей перспективе.

## SUMMARY

The importance of the use of special economic zones in the implementation of strategic road maps in Azerbaijan is investigated in the article. The world experience on the organization and functioning of special economic zones, their effectiveness and role in the development of the national economy are analyzed. The effectiveness of the special economic zones in strengthening the development of individual economic sectors and regions of the country are revealed. The importance of accelerating the implementation of special economic zones in the economic system of Azerbaijan is substantiated.

The number of proposals and recommendations on the importance of the use of special economic zones in the implementation of strategic road maps in Azerbaijan in the near future are given at the end of the article.

# İqtisadiyyat

## MÜASİR DÖVRDƏ MİLLİ İQTİSADİ İNKİŞAF MODELİNİN STRATEJİ ASPEKTLƏRİ

HƏNİFƏ CƏFƏRLİ
İqtisad elmləri namizədi

Müasir dövrdə dünya ölkələrinin iqtisadi inkişaf proseslərinin tənzimlənməsi, təkmilləşdirilməsi və milli iqtisadi inkişaf modelinin strateji aspektlərinin müəyyənləşdirilməsi kifayət qədər mürəkkəb xarakter daşıyır. Qeyd edək ki, strateji və tarixi əhəmiyyət kəsb edən həmin məsələ hazırda ölkəmiz üçün də xeyli aktuallıq təşkil edir və milli iqtisadi inkişaf modelinin formalaşması, inkişafı proseslərinin dərindən təhlili, müxtəlif amillər, o cümlədən geostrateji amillər nəzərə alınmaqla bu proseslərin obyektiv qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Milli iqtisadi inkişaf modelinin formalaşdırılması prosesləri və bu inkişaf modelinin optimallığının, adekvatlığının təmin edilməsi hər bir ölkə üçün mürəkkəb və çətin problemlərdən hesab olunur. Heç bir yüksək inkişaf etmiş iqtisadiyyata malik dünya ölkəsi və ya hər hansı bir iqtisadi inkişaf modeli dünya maliyyə böhranının mənfi təsirindən yan keçə bilməmiş və yüksək mənada dayanıqlıq nümayiş etdirməmişdir. Bu baxımdan, dinamik inkişaf etməkdə olan hər bir dünya ölkəsi, ilk növbədə milli iqtisadiyyatın davamlı inkişafına nail olunması mexanizmləri yaratmalı, milli iqtisadiyyatın inkişafının ölkəsi üçün adekvat olan iqtisadi inkişaf modelini formalaşdırmalıdır.

Qeyd edək ki, bu vəzifə Azərbaycan üçün də kifayət qədər aktualdır və hazırda ölkəmizin iqtisadi inkişaf modelinin modernləşdirilməsi və təkmilləşdirilməsi prosesləri güclənməkdədir. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra tamamilə dağıdılmış və xaotik bir vəziyyətdə olan milli iqtisadiyyatla üzbəüz qalmışdı. Milli iqtisadiyyatın ənənəvi sektorları və iri müəssisələri böhran vəziyyətinə düşmüş, iri qurğular istismarını dayandırmış və ya istehsal gücünün cüzi hissəsindən istifadə olunması vəziyyətində idi. Yalnız 1994-cü ildə sentyabrın 20-də Ümummilli liderimiz Heydər Əliyevin tarixi səyləri nəticəsində imzalanmış "Əsrin konrtaktı"nın qüvvəyə minməsindən sonra reallaşdırılmasına başlanılan neft strategiyasının sayəsində, bununla əlaqədər milli iqtisadi qanunvericilik bazasının hazırlanmasının sürətləndirilməsi, iqtisadi islahatların aparılmasına başlanılması, iqtisadi qurumların yaradılması, institusional tədbirlərin görülməsi, bank sisteminin təşkili, pul kredit siyasətinin formalaşdırılması, valyuta tənzimləmələrinin sürətləndirilməsi, milli iqtisadiyyatın fəaliyyət sahələrinin, xüsusilə xarici ticarətin liberallaşdırılması, aqrar islahatların aparılması, real iqtisadiyyatın kreditləşdirmə mexanizmlərinin yaradılması, bütövlükdə milli iqtisadiyyatın inkişafının müxtəlif komponentləri üzrə müəyyən nəticələrin əldə edilməsinə imkan yaranmış və nəhayət, milli iqtisadi inkişaf modelinin formalaşdırılması proseslərinə başlanılmışdır. Növbəti on il ərzində ölkəmiz regionda dünya səviyyəli iri enerji layihələrinin reallaşdırılmasında təşəbbüsçü ölkə statusundan, həm də maliyyələşdirici ölkə statusuna



keçməyi təmin edə bilmişdir. Neft ixracından əldə edilən valyuta vəsaitləri hesabına ölkəmizdə maliyyə sabitliyinin əsası qoyulmuş, valyuta ehtiyatlarının yaradılması sürətləndirilmiş, ölkənin hər yerində, o cümlədən ucqar rayonlarında belə infrastuktur şəbəkəsinin yaradılması proseslərinə başlanılmış, neftqaz ixracı və nəqli üzrə beynəlxalq boru kəmərlərinin inşası və başa çatdırılmasına əsaslı zəmin yaradılmışdır. 2004-cü ildən sonrakı keçən dövrdə isə artıq ölkəmizin özünəməxsus, milli maraqlar və milli iqtisadi prioritetlər, ölkə əhalisinin sosial problemləri və yaşayış səviyyəsinin yüksəldilməsi hədəfləri nəzərə alınmaqla, milli iqtisadi inkişaf modelinin formalaşdırılması və inkişafı prosesləri sürətlənmişdir. Bu proseslərdə milli iqtisadi inkişafın əksər komponentləri dünya iqtisadi inkişaf proseslərinin əldə etdikləri tarixi təcrübəyə söykənməklə yanaşı, ölkəmizin özünün ənənəvi iqtisadi inkişaf sahələri, istiqamətləri, təmayülləri, milli özəllikləri, mentalı əsas götürülməklə, ölkə əhalisinin əksəriyyətinin rəğbətini qazanan və dünya ölkələri tərəfindən qəbul edilən, beynəlxalq qurumlar və mütəxəsisilər tərəfindən müsbət qiymətləndirilən milli iqtisadi inkişaf mexanizmlərinin hazırlanması və tətbiqi mümkün olmuşdur.

Qeyd edək ki, bu məsələlərin və strateji hədəflərin yerinə yetirilməsi üçün, ilk növbədə ölkəmizin milli iqtisadi inkişaf modelinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və mexanizmlərinin hazırlanması vəzifəsinin öhdəsindən gəlmək lazımdır. Akademik Z. Səmədzadə qeyd edir ki, müstəqil dövlətlərdən heç də hamısı sərbəst iqtisadi siyasət aparmaq iqtidarında deyildir. Azərbaycan Respublikası bütün çətinliklərə baxmayaraq, ötən 20 ildə uğurlu iqtisadi inkişaf yolunu tutdu və bu yolda inamla irəliləyərək böyük nəticələrə imza atdı. Bu gün Azərbaycan iqtisadiyyatında əldə olunan nəticələrin dünya miqyasında "inkişafın Azərbaycan modeli" dəyərləndirilməsi təsadüfi deyildir… Azərbaycan dünya maliyyə böhranından ən az itki ilə çıxan ölkələrdəndir və bu, olduqca böyük nailiyyətdir… Ölkəmizin iqtisadi sistemi uğurla fəaliyyət göstərir, qarşıya qoyulan bütün məsələlər praktik şəkildə gerçəkləşir[1]. Ölkəmiz dünya ölkələri içərisində yüksək imic qazanmış, rəqabətqabiliyyətliliyinə görə isə MDB ölkələrini geridə qoymuşdur. Görülən bütün işlər, ilk növbədə əhalinin sosial-iqtisadi rifahının yüksəldilməsi konteksində həyata keçirilmişdir. Bununla belə, obyektivlik naminə qeyd etmək lazımdır ki, son dünya maliyyə böhranının ağır fəsadlarından nisbətən qorunmağa nail olan milli iqtisadi inkişaf modelimiz, dünya bazarlarında neftin qiymətinin bir neçə dəfə aşağı düşməsindən sonra daha çətin və mürəkkəb sınaqla üzləşmiş, ölkənin uzun dövr ərzində sabit dinamika nümayiş etdirən maliyyə-bank sistemi zəifləmiş, bir neçə bank iflasa uğramış, istehlak kreditlərinin verilməsi çətinləşmiş, real iqtisadi sektorların kreditləşdirilməsində məhdudiyyətlər yaranmış, əsas kapitala investisiyya qoyuluşu əhəmiyyətli şəkildə, o cümlədən ölkə ixracının həcmi xeyli azalmışdır. Bir sözlə, milli iqtisadi inkişaf modelinin əsas mexanizmlərinin qlobal təhlükələr və dünya bazarlarının qeyri-sabitliyi konteksində yenidən baxılması, modernləşdirilməsi və təkmilləşdirilməsi problemləri ciddi şəkildə ortaya çıxmışdır.

Ölkənin iqtisadi inkişaf hədəflərinin balanslaşdırılması,



təbii və iqtisadi resurslara müvafiq olaraq real iqtisadi sektorların inklüziv inkişafının təmin edilməsi vacib şərt kimi diqqət çəkir. Bu məqsədlə milli iqtisadiyyatın inkişafına mane olan problemlərin və onun artım dinamikasını əngəlləyən məsələlərin kompleks öyrənilməsi mühüm məsələlərdəndir. Akademik A.Nadirov bildirir ki, Azərbaycan iqtisadi modelinin xüsusiyyətlərinin kompleks şəkildə tədqiqi iqtisad elminin bundan sonra da əhəmiyyətli istiqamətlərindən biri olaraq qalacaqdır[2]. Belə ki, milli iqtisadi inkişaf modelinin əsas amilləri, iqtisadi sistemə daxil olan vacib komponentlər, təbii və iqtisadi resursların adekvatlığı və xüsusiyyətləri, mövcud resurslardan hansı səviyyədə istifadə edilməsinin obyektiv qiymətləndirilməsi, cəmiyyətin və ölkə əhalisinin rifah halının yaxşılaşdırılması tədbirlərinin mahiyyəti və ciddi arqumentlərlə əsaslandırılması, istehsal qüvvələrinin məsuldar yerləşdirilməsi, əmək proseslərinin müasir iqtisadi aspektlər baxımından tənzimlənməsi və əmək ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, sosial-iqtisadi münasibətlərin dərinləşən bazar iqtisadiyyatı şəraitində harmoniyalaşdırılması, insan amilinin önə çıxarılması, davamlı iqtisadi inkişaf meyarlarının qorunması, milli iqtisadiyyatın davamlı inkişafı üçün iqtisadi münasibətlərin və iqtisadi mexanizmlərin, təşkilati-iqtisadi yanaşmaların, müasir texnologiyaların tətbiqində mühüm əhəmiyyət kəsb edən texniki-iqtisadi münasibətlərin tənzimlənməsi, bütövlükdə milli iqtisadi inkişaf modelinin və mövcud iqtisadi sistemin əsas komponentlərinin təkmilləşdirilməsi məsələlərinin həll edilməsi zərurəti ortaya çıxmışdır. Professor Ə.Nuriyev qeyd edir ki, ölkənin sosial-iqtisadi inkişaf strategiyasını müəyyən edərkən, hər dövrün, mərhələnin xüsusiyyətlərinin öyrənilməsi və nəzərə alınması, həmin dövrü yenidən yaşamaq üçün deyil, bu dövrün daxilində gələcək inkişafın səmərəli toxumunu, cücərtilərini tapmaq və gələcək inkişafın xüsusiyyətlərini və istiqamətlərini düzgün müəyyənləşdirmək üçün lazımdır... Yaddan çıxarmaq olmaz ki, cəmiyyətin inkişafında müəyyən dövrlər, mərhələlər bizdən asılı olmayaqraq obyektiv proseslər kimi yaranır və mövcud olur[3,s.18]. Son illərdə bunun əyani şahidi olmuşuq, belə ki, dünya iqtisadi proseslərinin bir çox ənənəvi mexanizmləri və tendensiyaları əsaslı transformasiyalara məruz qalmış, qlobal böhranlar önündə immunitet nümayiş etdirməkdə çətinlik çəkmişlər. Professor İ.Alıyev və bir qrup tədqiqatçıların milli iqtisadi inkişaf modelinin formalaşması və inkişaf problemləri ilə bağlı apardıqları tədqiqatlar nəticəsində belə bir fikir formalaşmışdır ki, Azərbaycanın

gələcək talehi əhəmiyyətli dərəcədə hansı iqtisadi model əsasında inkişaf etdiriləcəyindən asılıdır. Ancaq iqtisadiyyatın inkişaf modeli hazır şəkildə verilmir. O, müstəqillik əldə etmiş ölkənin əvvəlki tarixi ərzində mövcud olmuş təcrübənin ümumiləşdirilməsi, dünya ölkələrində fəaliyyətdə olan modellərin hərtərəfli öyrənilməsi və müqayisə edilməsi yolu ilə Azərbaycanın mövcud reallıqlarına uyğun gələn formada seçilməlidir. Bu zaman hansısa ölkənin inkişaf modelini olduğu kimi götürmək, kor-koranə tətbiq etmək yolverilməzdir[4,s.11]. Dayanıqlı inkişaf modelinə keçidin və milli iqtisadi inkişafın sürətləndirilməsinin təmin edilməsi üçün ölkəmizdə mövcud olan əlverişli və real şəraitin, məsələn iqtisadi-coğrafi və geopolitik-geoiqtisadi yerləşmə, inkişaf etmiş nəqliyyat, torpaq, su, meşə resursları, bir sıra ən əhəmiyyətli faydalı qazıntıların mövcudluğu, mühüm elmi-texniki potensial, çoxsahəli sənaye kompleksi, güclü tikinti bazası, regionalrın kompleks inkişafı, daxili bazarların genişlənməsinə səbəb olan çoxvektorlu xarici- iqtisadi əlaqələrin olması amillərinin nəzərə alınmasını vacib edir[5,s.58]. Hər bir ölkənin iqtisadi inkişaf modeli onun real resurs potensialına, imkanlarına və müvafiq şəraitinə uyğun olaraq inkişaf edir və bu baxımdan milli iqtisadiyyatın davamlı inkişafı, dinamik artımı üçün zəruri tədbirlərin və adekvat mexanizmlərin tətbiqinin intensivləşdirilməsi dövlət tərəfindən ciddi diqqətdə saxlanılmalıdır. Professor Ə. Babayev qeyd edir ki, iqtisadi inkişaf modellərinin fərqli təsərrüfat mexanizmlərinə malik olması xüsusiyyətləri nəzərə alınmaqla onlara bazar mexanizmlərini, dövlət tənzimi və inzibati amirlik mexanizmlərini aid etmək olar[6,s.205-206]. Bundan əlavə, ölkəmizdə strateji hədəflərin gerçəkləşdirilməsində xüsusi dövlət proqramlarından və iri layihələrdən fəal istifadə edilməsi təcrübəsi formalaşdırılmışdır. Müxtəlif iqtisadiyyat sahələri ilə yanaşı, ölkə əhalisinin sosial-iqtisadi problemlərinin həllinin sürətləndirilməsi, sahibkarlığın-kiçik və orta sahibkarlığın stimullaşdırılması, bütövlükdə ölkə əhalisinin iqtisadi fəallığının artırılmasında bu dövlət proqramlarının, strategiyalar və milli konsepsiyaların əhəmiyyətli rolu vardır.

Mühüm strateji konsepsiyaların reallaşdırılmasına başlanıldığı bir şəraitdə - müasir dövrdə Azərbaycan iiqtisadiyyatının manevrlik və dayanıqlılıq qabiliyyətinin əhəmiyyətli səviyyədə artırılması üçün dünya təcrübəsində uğurla sınaqdan keçmiş və ölkəmizin iqtisadi sistemi üçün qeyri-ənənəvi olan iqtisadi mexanzimlərin cəsarətli tətbiqi zamanı gəlib çatmışdır[7]. Eyni zamanda, ölkənin iqtisadi sisteminin yenilənməsi və təkmilləşdirilməsi, milli iqtisadi inkişaf modelinin formalaşması proseslərinin əsas mexanizmlərinin adekvatlıq səviyyəsinin qiymətləndirilməsi zamanı, mövcud iqtisadi mexanizmlərin maksimum səmərəlilik və məsuldarlıq səviyyələri bəlli olduğundan onların milli iqtisadiyyata verə biləcəyi töhfələrin hesabatının aparılması, əlavə dövriyyəyə cəlb edilən iqtisadi mexanizmlərin formalaşdıra biləcəyi iqtisadi gücün - milli məhsulun proqnozlaşdırılmasının optimallığı vacib şərtlərdəndir. Bu proseslər içərisində iqtisadi inkişafın müxtəlif istiqamətləri ilə bağlı məsələlərdə ölkəmizin milli iqtisadiyytatının neftdən bağlı olmayan sahələr üzrə dərin ixtisaslaşmasının və milli dəyər yaradılmasında, valyuta ehtiyatlarının formalaşmasında neft amilinin minimuma endirilməsi, real sektorlara və perspektivli xidmət sahələrinə söykənmiş milli iqtisadi sistemin gücləndirilməsi, manevr qabiliyyətli milli iqtisadi inkişaf modelinin formalşdırılması vacib şərtlər kimi diqqət çəkirlər.

Bütün bunlarla belə milli iqtisadi inkişaf modelinin formalaşması və təkmilləşdirilməsi istiqamətində müasir dövrün tələblərindən yaranan yeni strateji vəzifələr, bunlarla bağlı bir çox problemlər ortaya çıxmışdır və yaxın perspektivdə bu vəzifələrin reallaşdılrılması, problemlərin həll edilməsi üçün geniş miqyaslı tədbirlərin görülməsi lazım gələcəkdir. Azərbaycan Respublikasının iqtisadi inkişaf baxımından regionun lider dövlətindən beynəlxalq iqtisadi münasibətlər sistemində yüksək rəqabətqabiliyyətli iştirakçı statusuna yüksəlməsi reallaşdırılacaqdır[8,s.56]. Son dövrlərdə, xüsusilə neftin qiymətinin dünya bazarında bir neçə dəfə düşməsi ilə bağlı, başqa sözlə neftdən sonrakı dövr təmayüllü və yönümlü iqtisadi siyasət mexanizmləri formalaşdırılmaqdadır. Bunlarla əlaqədar olaraq, milli iqtisadi inkişaf modelinin özünün yenilənməsi və müasir dövrdə milli iqtisadi inkişaf modelinin prioritet vəzifələrinin, yaxın 10-15 il üçün və həmçinin uzunmüddətli bir dövr nəzərə alınmaqla strateji hədəflərin müəyyənləşdirilməsi, mühüm tədbirlərin görülməsi istiqamətində real addımlar atılmışdır.



Dövlətin iqtisadi siyasətinin təkmilləşdirilməsi, davamlı iqtisadi islahatların dərinləşdirilməsi, qlobal iqtisadi çağırışlara adekvat və müasir konseptual yanaşmaların təmin edilməsi, milli iqtisadiyyatın səmərəli formada diversifikasiyalaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi, milli iqtisadiyyatın davamlı artımının məhsuldar mənbələrinin formalaşdırılması və bunlarla bağlı prioritet qeyri-neft sahələrinin inkişafının sürətləndirilməsi, qlobal çətinliklər şəraitində və dünyada qeyri-sabit maliyyə mühitinin hökm sürdüyü dövrdə ölkə əhalisinin sosial rifahının davamlı olaraq yaxşılaşdırılmasına nail olunması kimi mürəkkəb vəzifələr və problemlər həllini gözləyir. Bütün bunlar 6 dekabr 2016-cı il tarixli “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı”nda öz əksini tapmışdır[9]. Strateji Yol Xəritəsi özündə 2016-2020-ci illər üçün strateji inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı ehtiva edir. Fərmanla 12 istiqamət üzrə Strateji Yol Xəritəsi təsdiq edilmişdir, bunların sırasında milli iqtisadiyyat perspektivi, neft və qaz sənayesinin inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırmanın inkişafı, ixtisaslaşmış turizm sənayesinin inkişafı, logistika və ticarətin inkişafı, maliyyə xidmətlərinin inkişafı, telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritələri, xüsusilə əhəmiyyətli və perspektivlidir. Göründüyü kimi, yaxın perspektivdə ölkəmizin milli iqtisadiyyat inkişaf modelinin əsaslı şəkildə yenilənməsi və təkmilləşdirilməsi imkanları vardır.

Beləliklə, müasir dövrdə milli iqtisadi inkişaf modelinin strateji aspektlərinin optimal müəyyənləşdirilməsi və bununla bağlı olaraq, zəruri fəaliyyət mexanizmlərinin işlənib hazırlanması, tətbiqinin reallaşdırılması bir qrup mühüm vəzifələrin öhdəsindən gəlməyi şərtləndirir:

- Ilk növbədə hər bir ölkənin milli maraqları və geostrateji iqtisadi inkişaf üstünlükləri nəzərə alınmaqla, strateji iqtisadi inkişaf hədəfləri müəyyənləşdirilməli və konseptual yanaşma təmin olunmmalıdır;
- Milli iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün güclü qanunvericilik bazası formalaşdırılmalı və fəaliyyət mexanizmləri hazırlanmalıdır;
- Milli iqtisadi inkişaf modelinin uzunmüddətli və effektiv inkişafının strateji aspektləri əsas götürülməklə milli iqtisadiyyatın inklüziv sahələrinin inkişafı sürətləndirilməslidir və s.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir.*
2. *İnkişafın Azərbaycan modeli. Dövlətçilik. http://www.azpress.az.*
3. *Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşdirmə siyasətinin konseptual əsasları. Bakı- “AVROPA”, 2013.- 422 s.*
4. *Qloballaşma mühitində milli iqtisadi inkişaf modelin: formalaşması və inkişafı problemləri. Bakı: 2010. – 258 s.*
5. *Babayev Ə. P. İqtisadi Nəzəriyyə. Bakı, 2001.*
6. *İnkişafın Azərbaycan modeli. Dövlətçilik. http://www.azpress.az.*
7. *Aliyev Sh.T. The role of special economic zones in the development of the national economy//International Journal of Engineering Sciences & Managment Research. Impact Factor: 2.805; №3(12), 2016.– p.101-109.*
8. *Qasımlı V. İqtisadi modernizasiya. Azərbaycan Respublikasının Prezidenti yanında strateji araşdırmalar mərkəzi. Bakı, 2014.-312 s. http://www.sam.az.*
9. *Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il. http://www.president.az.*



**Açar sözlər:** *milli iqtisadiyyat, milli iqtisadi inkişaf modeli, geostrateji amillər, strateji aspektlər, effektivlik, davamlı iqtisadi inkişaf, milli iqtisadiyyatın rəqabətqabilliyyətliliyi.*

**Keywords:** *the national economy, national economic development model, geo-strategic factors, the strategic aspects of efficiency, sustainable economic development, the competitiveness of the national economy.*

**Ключевые слова:** *национальная экономика, модель национального экономического развития, геостратегические факторы, стратегические аспекты, эффективность, устойчивое экономическое развитие, конкурентоспособность национальной экономики.*



**SUMMARY**

The strategic aspects of the national model of economic development in the modern period are explored in the article. The basic principles, mechanisms, criteria, direction and nature of the development of national economy, its formation, development and growth are investigated with this purpose. The relationship dynamic growth of the national economy with qualitative and quantitative indicators of the economy is studied. The possibilities of realization of the groups of strategic directions of development of the national economy in the short term are estimated.

A number of proposals and recommendations on the strategic aspects of the national model of economic development in the modern period are given at the end of the article.

**РЕЗЮМЕ**

В статье исследованы стратегические аспекты национальной модели экономического развития в современный период. С этой целью исследованы основные принципы, механизмы, критерии, направления и сущность развития национальной экономики, её формирование, развитие и рост. Изучены взаимосвязь динамичного роста национальной экономики с качественными и количественными индикаторами развития экономики страны. Оценены возможности реализации групп стратегических направлений развития национальной экономики в ближайшей перспективе.

В конце статьи дан ряд предложений и рекомендаций по стратегическим аспектам национальной модели экономического развития в современный период.

# İqtisadiyyat

ƏSLİ KAZIMOVA
İqtisad üzrə fəlsəfə doktoru

## QEYRİ-NEFT SEKTORU SAHƏLƏRİNİN FƏALİYYƏTİNİN VƏ MALİYYƏ MƏNBƏLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

Son on ildə ölkəmizin milli iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün tarixi işlər görülmüşdür. Ölkəmizin geostrateji və geoiqtisadi üstün amilləri nəzərə alınmaqla milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, milli iqtisadiyyatın inkişaf səviyyəsinin yeni mərhələyə qaldırılması, xüsusilə neft-qaz sektoru ilə yanaşı, qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi üçün böyük həcmdə tədbirlər görülmüşdür. Ölkənin mərkəzi şəhərləri-sənaye mərkəzləri ilə bərabər regionlarda qeyri-neft sektoru sahələrinin inkişafının təmin edilməsi məqsədilə güclü və etibarlı zəmin yaradılmış, zəruri infrastruktur bazası qurulmuş, regionların spesifik inkişaf təmaülləri nəzərə alınmaqla sənaye və aqrosənaye təyinatlı müasir müəssisələr şəbəkəsi yaradılmışdır. Bunlarla belə, son illərdə dünya iqtisadi proseslərindəki deformasiyalar və təlatümlər, dünya bazarlarında ölkəmizin əsas ixrac məhsulu olan neftin qiymətinin bir neçə dəfə aşağı düşməsi ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinə yenidən baxılmasını, xüsusilə qeyri-neft sektoru sahələrinin ixrac qabiliyyətinin artırılması şərtilə inkişafının sürətləndirilməsi vacib məsələlər kimi ortaya çıxmışdır. Qeyd edək ki, bu problemlərin əksəriyyəti konseptual formada "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı"nda (06 dekabr 2016-cı il) öz əksini tapmışdır. Fərmanda qeyd edilir ki, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, qeyri-neft sahələrinin və bütövlükdə regionların tarazlı inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əlverişli biznes və investisiya mühiti formalaşmış, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır... Bununla belə, son dövrlərdə istər regionda istərsə də qlobal iqtisadiyyatda gedən proseslər, neft gəlirlərinin kəskin azalması, mürəkkəb xarici iqtisadi mühit ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərməkdədir [1]. Buradan belə bir nəticəyə gəlmək olar ki, yaxın perspektivdə milli iqtisadiyyatın davamlı iqtisadi inkişafının təmin edilməsi, əsas etibarı ilə qeyri-neft sektoru sahələrinin fəaliyyət istiqamətlərinin təkmilləşdirilməsi və sürətlənməsi üzrə məqsədli şəkildə bir çox strateji planların, dövlət proqramlarının, inkişaf konsepsiyalarının, strategiyaların, tədbirlər planlarının hazırlanması və reallaşdırılmasının şahidi olacağıq.



Qeyd edək ki milli iqtisadiyyatın inkişafı, onun ayrı-ayrı sahələrinin fəaliyyətinin səmərəli təşkili problemləri bütün dövrlərdə aktual olmuşdur. Hələ alman iqtisadi məktəbinin yaradıcısı List Fredrix qeyd edirdi ki, milli iqtisadi sistemin inkişaf etdirilməsi zamanı üç əsas müddəaya – istehsal gücləri, iqtisadi inkişafın mərhələsi və dövlətin iqtisadi rolunun fəallığına ciddi önəm verilməlidir[2]. Müasir dövrdə də bu prinsiplər öz aktuallığını qoruyub saxlamışdır. Real və güclü istehsal potensialı olmadan ayrı-ayrı iqtisadiyyat sahələrinin sürətli inkişafı mümkün deyildir. Məsələn, XX əsrin 80-ci illərində Ümummilli Liderimiz Heydər Əliyevin

tarixi səyləri sayəsində kimya və neftkimya kompleksi neftdən sonra güclü potensiala malik olmuş, bu sahənin rəqabətqabilliyyətli müəssisələrindən yüzlərlə ünvanlara məhsullar ixrac edilmişdir. Həmin dövrdə bu sektorda ölkə sənayesinin 20%-i cəmlənmişdi və sənayedə çalışanların səkkizdə biri burada işləyirdi[3,s.46]. Digər tərəfdən, həmin dövrdə Azərbaycanda güclü metallurgiya kompleksi və cihazqayırma müəssisələri, o cümlədən kondisionerlər istehsal edən və keçmiş SSRİ-də yeganə müəssisə olan - Bakı məişət kondisionerləri zavodu fəaliyyət göstəririd. Təsadüfi deyildir ki, bir qrup Nobel mükafatları laureatları milli iqtisadiyyatların ayrı-ayrı sahələrinin inkişafı və onların rəqabətqabiliyyətlərinin artırılmasını, iqtisadi inkişafı proseslərində ölkənin mövcud olduğu təbii və iqtisadi resurslarından maksimum səmərəli istifadə olunmasını, iqtisadiyyat sahələrinin məhsuldar fəaliyyəti üçün yetərincə etibarlı və effektiv fəaliyyət mexanizmlərinin işlənib hazırlanmasını və tətbiq edilməsini, milli istehsal güclərindən və məhsuldar qüvvələrindən səmərəli istifadə hesabına ölkə regionlarının iqtisadi inkişafları arasındakı disporsiyaların aradan qaldırılmasını, ölkənin təkmilləşdirilmiş və balanslaşdırılmış milli iqtisadi siyasətinin olmasını, xüsusilə ticarətin inkişafı konsepsiyasının mövcudluğunu, xarici ticarətin səmərəliliyini, ölkənin ixrac potensialının ardıcıl və məqsədli şəkildə artırılmasını, ixracyönümlü istehsal sahələrinin və müəssisələr şəbəkəsinin yaradılmasını, ölkənin üstün amilləri, resurs potensialı və ixrac imkanları obyektiv qiymətləndirilməklə beynəlxalq əmək bölgüsü proseslərində fəal iştirakını vacib saymışlar[4;5;6;7]. Artıq dünya ölkələrində bu istiqamətlərdə çoxlu sayda strateji tədbirlərin görülməsi, milli konsepsiyaların reallaşdırılması, uzunmüddətli davamlı iqtisadi inkişaf konsepsiyalarının hazırlanması məlumdur. Bir çox dünya ölkələrində milli iqtisadiyyatın davamlı inkişafı, onun ayrı-ayrı sahələrinin strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilməklə işinin təşkili, milli iqtisadiyyatın resusrs potensialının və maliyyə resurslarının mənbələrinin diversifikasiyalaşdırılması, maliyyə sabitliyinin təmin edilməsi, maliyyə mexanizmlərinin təkmilləşdirilməsi, yeni iqtisadi mexanizmlərin müasir dünyanın qlobal çağırışlarına uyğun hazırlanması və tətbiq edilməsi, daxili və xarici təsir amillərinin mənfi nəticələrinin əvvəlcədən proqnozlaşdırılması və onların təsirinin minimuma endirilməsi, ölkənin milli maraqlarının qorunması və milli təhlükəsizliyinin təmin olunması, dövlət iqtisadi siyasətinin müasir dövrün tələblərinə adekvat olaraq təkmilləşdirilməsi, iqtisadiyyat sahələrinin inkişafının sürətləndirilməsi üçün əlavə tədbirlərin görülməsi və dövlət dəstəyinin gücləndirilməsi istiqamətində davamlı işlərin görülməsi diqqət çəkir. Dünyanın 150-dən çox ölkəsində milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, ayrı-ayrı iqtisadiyyat sahələrinin inkişafının sürətləndirilməsi, yoxsulluğun azaldılması və əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün konseptual xarakterli strateji tədbirlər görülməkdədir[8]. Bu baxımdan, milli iqtisadiyyatın davamlı inkişafının balanslaşdırılması üçün onun ayrı-ayrı sahələrinin inkişafı



üzrə dövlətin iqtisadi siyasətinin strateji hədəfləri və əsas mexanizmləri kompleks və sistemli meyarlar əsasında baxılmalı, müəyyənləşdirilməli və həyata keçirilməlidir[9]. Hələ nəzəri baxımdan bu məsələlərin nə dərəcədə mürəkkəb olmasından asılı olmayaraq, elə etmək lazımdır ki, praktiki proseslərdə milli iqtisadiyyatın davamlı inkişafında mühüm əhəmiyyət kəsb edən ayrı-ayrı iqtisadiyyat sahələri milli iqtisadiyyata güclü töhfə verə bilsinlər və əlavə dəyər yaratmaq xüsusiyyətinə malik olsunlar[10]. Tədqiqatçı K.Roşkov haqlı olaraq bildirir ki, iqtisadiyyat sahələrinin davamlı inkişafı və məhsuldar fəaliyyəti üçün onların potensialı real qiymətləndirilməli, strateji inkişaf hədəfləri rəqabətqabiliyyətlilik meyarları nəzərə alınmaqla müəyyənləşdirilməli, hər bir iqtisadiyyat sahəsinin ölkənin milli iqtisadiyyatının strukturunda yeri və əhəmiyyəti nəzərə alınaraq bu sahənin problemləri kompleks baxılmalı və həll edilməlidir[11]. Belə olduğu halda, real iqtisadiyyat sahəsinin inkişafının prioritet istiqamətlərinin və səmərəli fəaliyyət imkanlarının obyektiv qiymətləndirilməsi, buna uyğun olaraq strateji hədəflərin müəyyənləşdirilməsi, ixrac istiqamətli müəssisələrin yaradılması daha real ola bilər. Digər tərəfdən, bu cür yanaşma hər hansı bir iqtisadiyyat sahəsinin ətrafında belə zəncirvari istehsal şəbəkəsinin - istehsal müəssisələrinin yaradılmasına imkan verər, əlavə məhsul istehsalına, əlavə milli məhsul mənbəyinin yaradılmasına, əlavə maliyyə mənbələrinin formalaşmasına şərait yaradar, insanların işlə təminatında fayda verər, insanların gəlirləri artar, həyat səviyyəsi yaxşılaşar, sosial-iqtisadi problemlərin həllində yeni imkanlar formalaşar və s. Və yaxud, milli iqtisadiyyatın diversifikasiyalaşdırılmasını sürətləndirilməsi üçün hər bir iqtisadiyyat sahəsinin inkişafı özünün verə biləcəyi töhfəsi ilə xüsusi əhəmiyyət kəsb edir. Elə götürək Azərbaycanın milli iqtisadiyyatının strukturunu, məlumdur ki, bu strukturda neft və onunla bağlı sahələrin rolu böyükdür, eyni zamanda ixracın strukturunda da əsas yeri neft və qaz ixracı tutur, buna görə də hər hansı bir qeyri-neft sektorunun ixrac potensialının artması, bu sahənin ixrac məhsulları hesabına ölkəyə valyuta daxil olmalarının həcminin yüksəlməsi əhəmiyyətli irəliləyiş kimi qiymətləndirilməlidir[12]. Ümumiyyətlə, ölkədə davamlı iqtisadi inkişafın təminatı üçün qeyri-neft sənayesinin inkişaf



etdirilməsi və bununla əlaqədar olaraq təbii və iqtisadi resurslardan maksimum səmərəli formada istifadəni təmin etmək vacibdir[13]. Digər tərəfdən, milli iqtisadiyyatın transformatik xüsusiyyətləri və iqtisadi inkişaf tendensiyaları nəzərə alınmaqla, hər bir iqtisadiyyat sahəsinin imkanları milli iqtisadi maraqlar əsas götürülməklə təhlil olunmalı və bu sahənin inkişafının sürətləndirilməsi təmin edilməlidir[14]. Dünya təcrübəsində milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişaf etdiriməsində müxtəlif mexanizmlərdən, bir sıra səmərəli iqtisadi vasitələrdən, o cümlədən xüsusi iqtisadi zonalardan və bu qəbildən olan iqtisadi mexanizmlərdən fəal istifadə olunur[15]. Azərbaycanda da bu istiqamətdə güclü perspektivlər mövcuddur, məsələn, Sumqayıt sənaye mərkəzində və sənaye-istehsal kompleksində bir sıra sənaye sahələrinin inkişaf etdirilməsi məqsədilə son illərdə texnoparklar yaradılmaqdadır. Bununla belə, bu kimi iqtisadi mexanizmlərin təşkili və onun ixrac potensialının əsaslandırılması və proqnozlaşdırılması məsələləri əvvəlcədən ciddi arqumentlər üzərində baxılmalıdır [16]. Məlumdur ki, Sumqayıt şəhərinin sosial-iqtisadi inkişaf potensialı kifayət qədər güclüdür və bu şəhərdə bir çox ağır sənaye sahələrinin, xüsusilə kimya və neftkimya, metallurgiya, kənd təsərrüfatı gübrələri, digər kimya məhsulları, həmçinin cihazqayırma, yüngül və yeyinti sahələrinin inkişafı üzrə əlverişli imkanlar, o cümlədən texniki və kadr potensialı mövcuddur. Buna görə də, Sumqayıt sənaye mərkəzində qeyri-neft sektoru sahələrinin potensialının obyektiv qiymətləndirilməsi və onların innovativ funksiyalar, yüksək texnologiyalar əsasında müasirləşdirilməsi aktuallığı ilə seçilir[17]. Qeyd etdiyimiz kimi bu kimi problemlərin həllində yeni yanaşmalar, yeni mexanizmlər, milli iqtisadiyyat üçün qeyri-ənənəvi olan iqtisadi mexanizmlərin hazırlanması və tətbiqi obyektiv bir zərurət kimi ortaya çıxmışdır. Artıq Azərbaycanda, Ələtdə Beynəlxalq Dəniz Ticarət Limanının bazasında Sərbəst Ticarət Zonasının yaradılması reallaşdırılmaqdadır. Amma, qeyd etmək lazımdır ki, bu kimi iqtisadi mexanizmlərin ölkədə tətbiqinin sürətləndirilməsinə ehtiyac qalmaqdadır[18]. Bundan əlavə, milli iqtisadiyyatın davamlı inkişafı, onun strikturunun təkmilləşdirilməsi, ayrı-ayrı iqtisadiyyat sahələrinin modernizasiya edilməsi və yüksək texnologiyalar əsasında inkişafının sürətləndirilməsi üçün külli miqdarda maliyyə resurslarına ehtiyac vardır. Bu baxımdan milli iqtisadiyyatın ayrı-ayrı sektorlarının, xüsusilə hasilat sənayesi ilə bağlı olmayan sahələrin, yəni qeyri-neft sektoru sahələrinin özlərinin maliyyə mənbələrinin gücləndirilməsi, etibarlı maliyyə resursları kanallarının formalaşdırlması bazalarının yaradılması və bunlarla bərabər, zərurət yarandıqda xarici investisiyaların cəlb edilməsi mənbələrinin müəyyənləşdirilməsi mühüm məsələlərdəndir. Ümumilikdə, konkret olaraq, Azərbaycanda milli iqtisadiyyat sahələrinin, əsas etibarı ilə qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi və onların maliyyə mənbələrinin gücləndirilməsi məqsədilə bir sıra tədbirlərin ardıcıl olaraq reallaşdırılması məqsədəuyğun sayılır:

- qeyri-neft sektoru sahələrinin hər birinin strateji hədəfləri müəyyənləşdirilərkən, onların ixrac potensialını artırmaq, maliyyə mənbələrinin manevrlik, dünya bazarlarına çıxmaq qabiliyyətləri və imkanları araşdırılmalı və obyektiv qiymətləndirilməlidir;
- qeyri-neft sektoru sahələrinin inkişaf hədəflərinin əsasında real iqtisadi fəaliyyət sahələrinin genişləndirilməsi, istehsalın həcminin artırılması, istehsal tsiklinin səmərəliliyi, istehsalın əlavə dəyər yaratmaq xüsusiyyətinin olması, bu sahənin sosial-iqtisadi problemlərin həllində potensialının yüksəkliyi nəzərə alınmalıdır;
- qeyri-neft sektoru sahələrinin artan dinamika və yüksələn rəqabət mühiti şəraitində inkişafının maliyyə təminatının gücləndirilməsin həll edilməli, maliyyə mənbələrinin modelləşdirilməsi və xarici investisiyaların cəlbi mexanizminin adekvat səmərəli variantlarının işlənib hazırlanması, bunlarla bağlı tədbirlərin ardıcıllıq, effektivlik prinsipləri və meyarları əsasında həyata keçirilməsi vacib şərtlərdəndir və s.

## ƏDƏBİYYAT

*1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il. http://www.president.az.*

*2. List Friedrich D. Nationale System der politischen Ökonomie, 1841.*

*3. Əliyev Ş.T. Azərbaycanın kimya və neftkimya kompleksinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı, "Elm və təhsil", 2012. -156 s.*

*4. Krugman P. The Return of Depression Economics and the Crisis of 2008. Norton, New York. 2009.*

*5. Samuelson Paul.A. The Gains from International Trade Once Again// Economic Journal 72, 820-9 (1962).*

*6. Stiglitz E.Jozeph, Charlton Andrew. Fair Trade For all. How trade can promote development. Oxford University Press, 2005.*

*7. Solow Robert Merton. The Economic of Resources and the Resources of Economics, 1974.*

*8. World Economic and Social Survey 2013. Sustainable Development Challenges. United Nations publication. Sales No. E.13.II.C.1. United Nations, 2013.-216 p. http://www.sustainabledevelopment.un.org.*

*9. Современные проблемы развития. Материалы теоретического семинара в ИМЭМО РАН. Выпуск II: в 3 томах/Отв. ред. - В.Г.Хорос. Москва, ИМЭМО РАН, 2016.-412 с.*

*10. Новичков А.В. Экономическая теория (Политическая экономия): Москва. Издательско-торговая корпорация «Дашков и К», 2005.-1008 с.*

*11. Рожков К.Л. Процесс глобализации и национальная экономика. Дисс. д-ра экон. наук. Москва, 2000.-257 с.*

*12. Əliyev Ş.T. Azərbaycanda sənaye sektorunun və ixrac potensialinin gücləndirilməsinin konseptual istiqamətləri//İpək Yolu, №04, 2016.-S.35-42.*

*13. Гаджиев А.В. Развитие ненефтяного сектора экономики Азербайджана//Журнал Актуальные вопросы экономических наук. Выпуск №50-2, 2016.-С. 86-91.*

*14. Рустамбеков Г.Б. Национальные экономические интересы в процессе постсоциалистической трансформации и глобализации. Баку: Чашыоглы, 2009, 370 с.*

*15. Алиев Ш.Т. Роль специальных экономических зон в развитии предпринимательства и инвестиционной активности// Журнал Российское предпринимательство. Россия, Москва, № 7(205), 2012.- С. 180-184.*

*16. Əliyev Ş.T. Azərbaycanda xüsusi iqtisadi zonalarin gerçəkləşdirilməsində Sumqayit sənaye-istehsal kompleksi amili//Audit jurnalı, №4, 2011.- C. 46-55.*

*17. Əliyev Ş.T. Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafı potensialının qiymətləndirilməsi problemləri və müasirləşdirilməsi perspektivləri//Xəbərlər AMEA, 2011, № 3.- S.99-103.*

*18. Əliyev Ş.T. Xüsusi iqtisadi zonalarin tətbiqi problemləri. Monoqrafiya. (Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2011-ci il I "Qrant" müsabiqəsinnin əsasında layihəsi hazırlanmışdır). Bakı, 2012.-360 s.*



**Açar sözlər:** *milli iqtisadiyyat, qeyri-neft sektoru sahələri, milli iqtisadi inkişaf pirioritetləri, geostrateji və geoiqtisadi amillər, strateji iqtisadi hədəflər, effektiv iqtisadi mexanizmlər, xüsusi iqtisadi zonalar, maliyyə sabitliyi, maliyyə təminatı.*

**Ключевые слова:** *национальная экономика, сферы ненефтяного сектора, приоритеты национального экономического развития, геостратегические и геоэкономические факторы, стратегические экономические цели, эффективные экономические механизмы, специальные экономические зоны, финансовая стабильность, финансовая обеспеченность.*

**Key words:** *the national economy, the scope of the non-oil sector, the priorities of the national economic development, geostrategic and geoeconomic factors, strategic economic purpose, effective economic mechanisms, special economic zones, financial stability, financial security.*



## РЕЗЮМЕ

В статье исследованы проблемы и перспективы по усилению финансовых источников и деятельности сферы ненефтяного сектора. Анализированы основные проблемы, механизмы, используемые в развитии отдельных секторов национальной экономики. Изучены научные и практичные подходы и взгляды по решению проблемы развития ненефтяных секторов экономики страны. Определены более эффективные методы и приоритетные направления по обеспечению продуктивности деятельности разных сфер национальной экономики. Рассмотрена важность усиления финансовых источников для соблюдения финансовой стабильности и развития секторов экономики.

В конце статьи дан ряд предложений и рекомендаций по решению проблем и перспектив усиления финансовых источников и деятельности сферы ненефтяного сектора в современных условиях.



## SUMMARY

The problems and prospects of strengthening of financial resources and the scope of activities of the non-oil sector are explored in the article. The main problems, the mechanisms used in the development of individual sectors of the national economy are analyzed. The scientific and practical approaches and views on decision the problems of development of non-oil sectors of the economy are studied. The importance of more effective methods and priorities to ensure the efficiency of the activities of the different spheres of the national economy is determined. The importance of strengthening financial resources to comply with the financial stability and economic development sectors are considered.

The number of proposals and recommendations to address the problems and prospects of strengthening of financial resources and the scope of activities of the non-oil sector in the current conditions are given at the end of the article.

# Tarix

## HƏSƏN PADŞAH AĞQOYUNLUNUN DİNİ SİYASƏTİNƏ DAİR

DİLAVƏR ƏZİMLİ
Tarix üzrə fəlsəfə doktoru

Ağqoyunlu imperiyasının yenilməz bahadırı Həsən padşah özünün qüdrətiylə deyil, həm də dövrünün mədəniyyətinə, alimlərinə, pirlərinə və seyyidlərinə qayğı ilə yanaşması ilə seçilən bir şəxs idi. Təbrizdə möhtəşəm bir saray təşkilatı qurmuş, ülamə, şüara və mütəsəvvüfləri ətrafında toplamağa çalışmış, bunlarla elmi mübahisələr və elmi münaqişələrdən böyük zövq almışdır. Bu mənada hər tərəfdən gələn elm, fikir və sənət adamları onun ətrafında toplanmışdır. Onun dövrünün tanınmış alimlərini, din xadimlərini, sənətkarlarını himayə etməsini dövrün mənbələri də təsdiq edir (18, 449). 1471-ci il iyunun 20-də Həsən padşahın Təbrizə daxil olduğu zaman gördüyü işləri təsvir edən Əbubəkr Tehrani yazır: “Sahibqıran... uğurlu bir saatda Təbriz şəhərinə daxil oldu və Azərbaycan diyarını öz qədəmləri ilə şərəfləndirdi. O diyarın fəqir və miskinlərinin üzünə xeyrat və ehsan qapılarını açdı. Bir neçə gün ardıcıl şəkildə etibarlı adamlara böyük məbləğdə vəsait verdi ki, ölkənin alimlərindən, möminlərindən kimin nə qədər ehtiyacı varsa, onlara paylasın. Hər gün ariflərin başçısı Baba Əbdürrəhmanın dərvişləri üçün təşkil olunmuş yerdə halal süfrələr açıldı və dərvişlər tam asudəliyə çıxdılar. Hər cümə günü axşamlar ətraf yerlərdən öz ehtiyaclarını bildirmək üçün gələn alim və əyanlar Sahibqıranın məclisinə dəvət olunurdu. Sahibqıran öz söhbətləri ilə hamını feyzyab edir, təam və ənam verirdi” (30, 296).

Tarixi məlumatlar sübut edir ki, dövrünün digər hökmdarları kimi Həsən padşah və oğlu Sultan Yaqub savaşlara verdikləri önəmdən heç də geri qalmayacaq dərəcədə mədəniyyət aləminin yaradıcılarına; alim, şair və sənətkarlara dəyər vermiş, bu sahədə dövrün digər hökmdarlarıyla yarışa girmişdilər. Bu məsələ ilə bağlı Türkiyə tədqiqatçısı S.Ərşahinə istinad edən T.Nəcəfli yazır ki, “Ağqoyunlu hömdarlarından Həsən padşah və Sultan Yaqub elmi mübahisələrə qatılacaq qədər dərin elmi biliklərə malik olmuşdular. Onlar həmişə elm, din və sənət adamlarını himayə etmiş, onlara qayğı göstərmişdilər” (18, 449-450). Həmin dövrlərdə Herat, İstanbul, Qahirədən geri qalmamaq üçün zamanın inciləri sayılan şəxsləri bol hədiyyələrlə və vədlərlə öz saraylarına yığmağa çalışmışdılar. Həsən padşahın dərvişliyə meylli bir şəxs olduğu qeyd olunur. Hətta bildirilir ki, o, təsəvvüfə meylliliyinin sonucu olaraq Səfəviyyə təriqəti şeyxlərinə dərin maraq göstərmiş, bu təriqəti qəbul edərək Şeyx Cüneydin müridi olmuşdur (11, 536). Təbii ki, bu məsələdə Səfəviyyə təriqətinin həmin ərəfədə geniş bir məkanda yayılması və güclü bir hərbi struktura malik olması az rol oynamamışdır. Məsələ ondadır ki, sözügedən ərəfədə Həsən padşahla qonşuları arasında münasibətlər gərgin idi və bu münasibətlər tezliklə hərbi toqquşmaya gətirib çıxaracaqdı. Həmin ərəfədə isə Şeyx Cüneyd Ərdəbildə baş verən hadisələrə görə bu və ya digər səbəbdən öz vətənini




tərk edərək müridlərinin daha çox toparlandığı Suriya, Qərb (Məğrib) və Rum ərazilərinə üz tutdu. Suriyada bir neçə dəfə oranın hakimlərinə qarşı üsyan qaldırdı. Bunun nəticəsi olaraq Diyarbəkirə getməyi qərara aldı. Orada isə zahidlərə, dərvişlərə böyük məhəbbət bəsləyən Həsən padşah tərəfindən qayğı ilə qarşılandı. Həsən padşah onunla daha çox yaxınlaşmaq üçün özünün bacısı Xədicə bəyimi ona ərə verdi. Tarixçinin göstərdiyi kimi, bu nigahın sorağı Kiçik Asiyanın və Suriyanın ən uzaq guşələrinə yayıldı və "əvvəlki şeyxlərin" xəlifələri Cüneydin görüşünə gəldilər (15, 78-79; 8, 36). Sonralar bu qohumluq əlaqələri daha da gücləndi. Yəni, Həsən padşahın qızı Aləmşah bəyimin Şeyx Cüneydin oğlu Şeyx Heydərlə evlənməsi onları daha da yaxınlaşdırdı. Bu isə onların vahid düşmənə qarşı birgə çıxışını labüdləşdirirdi. Bu ittifaq özünü teymuri Əbu Səidə qarşı mübarizədə bir daha sübut etdi. Həmin ərəfədə Həsən padşah Əbu Səidlə mübarizədə Şirvanşah Fərrux Yəsarı da öz tərəfinə çəkə bilmişdi. Bununla da Əbu Səidə qarşı güclü bir koalisiya yaratmışdı. (1, 76; 21, 171; 14, 10-11). Bu məsələyə öz münasibətini bildirən Seyfettin Erşahin

də göstərir ki, Ağqoyunlu sultanlarının hakimiyyətlərini gücləndirmə vasitələrindən biri də təsəvvüfi zümrələr idi. Onun fikrincə, təsəvvüfü bir zövq və tərbiyə üsulu olaraq qəbul edən Ağqoyunlu sultanları bu məsələdən həm də hakimiyyətlərini xalq kütlələrinin gözündə məhşurlaşdırmaqdan ötəri istifadə etmişlər (24, 162). Ağqoyunlu-Səfəvi münasibətlərinə geniş şəkildə toxunan Türkiyə tədqiqatçısı Himmet Konur isə haqlı olaraq göstərir ki, Həsən padşahın Səfəvi şeyxləri ilə qohumluq əlaqələrini təkcə onların siyasi nüfuzlarından istifadə etməklə deyil, həm də onun təsəvvüfə olan dərin sevgisindən izah etmək lazımdır. Belə olmasaydı, Həsən padşah Şeyx Cüneydin müridi olmazdı. Həm də Həsən padşah təkcə Səfəviyyə təriqəti şeyxlərinə deyil, eyni zamanda bütün şeyx və dərvişlərə yaxınlıq göstərmişdir (11, 536; 12, 104-105). Burada başqa bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır. Həsən padşah yaratdığı Azərbaycan imperiyasını gələcəkdə baş verəcək böhranlardan qorumaq üçün dini münasibətləri yoluna qoymağa çalışırdı. Onun zamanında sünni-şiə münasibətləri, o cümlədən təriqətlər arasında ziddiyyətlər dərinləşməkdə idi. Bu isə dövlətçilik məsələlərinə ciddi zərbə ola bilərdi. Buna görə də Azərbaycan Ağqoyunlu dövlətində həyata keçirdiyi dini siyasət dini vəhdətə xidmət edirdi. Onun öz bacısını Şeyx Cüneydə, qızını da Şeyx Heydərə verməsini bu prizmadan da izah etmək lazımdır. Həsən padşah ağıllı adam idi. Bilirdi ki, bu məsələ dövlətçilikdə ən vacib məsələdir. Yaratdığı imperiyanın uzun ömürlü olması həm də bu məsələdən asılı idi. Hesab edirik ki, sağlığında buna demək olar ki, nail oldu. Yaratdığı Azərbaycan Bayandurilər imperiyasında dini vəhdət öz əksini tapmışdı. Bu həm də onun islam aləmində tarixi xidməti idi. Həsən padşah özünü həm də islam dünyasının sultanı saymaqla dini vəhdətə nail olub, islam qarşısında özünün tarixi borcunu yerinə yetirirdi.

Vaxtilə ondan əvvəl bu addıma Əmir Teymur da getmişdi (1336-1405). Əmir Teymur elə bir dövrdə hakimiyyət uğrunda döyüşürdü ki, o zaman bütün Şərqi dini bayraqlar altında üsyanlar bürümüşdü. Hülakuların süqutu dövründə (XIV əsrin 30-cu illəri) bütün Yaxın Şərqi kəndli və sənətkarların üsyanları bürümüşdü. Bütün bu üsyanlar da dini şüarlar altında baş verirdi. Bunlara Xorasanda baş verən “sərbədarlar” (farscadan “özünü asanlar”) (1337-1381), Səmərqənddə (1365), Kirmanda (1373) və başqa şəhərlərdə baş verən seyidlər hərəkatını, Mazandaranda, Gilanda (XIV əsrin 50-70-ci illəri) və başqa yerlərdə baş qaldıran kiçik həcmli hərkatları misal göstərmək olar. O zaman hakimiyyətə gələn Əmir Teymur bütün bu üsyanlara özünün ağıllı siyasəti ilə son verdi (21, 201; 31, 31; 26, 14-21) və bütün narazı təbəqələri birləşdirib vəhdətə nail ola bilmişdi. Bunu Əmir Teymurla bağlı mənbələr birmənalı şəkildə ortaya qoyur. Böyük cahangir özünün vəsiyyətlərində bu məsələdən geniş söhbət açır (9, 50-51). Sonda Əmir Teymur islami birlik yolunda bütün bacarığını ortaya qoyur və buna nail olur. Zamanında bütün tərqiət əhlini, seyyidləri, pirləri, sufiləri himayə edir, onların adlı-sanlılarını saraya dəvət edir, məzhəb qovğasını aradan qaldırır və nümunəvi Türk-Müsəlman dövlətini ortaya qoyur. Sonucu məqsədi də Çini əhalisini müsəlmanlaşdırmaq idi. Bu məqsədlə də səfər edir. Lakin yolda xəstələnir və dünyasını dəyişir. Əmir Teymur öz vəsiyyətnaməsində dinin yeniləşdiriciləri sırasında Qazan xanın da adını çəkir. Əslində Qazan xan böyük islahatçı idi. İslahatlarrından biri də dini sahədəki islahat idi. Bu addıma getmək asan deyildi. Bunu Qazan xan özü də etiraf edib deyirdi ki, monqolları müsəlman dinini qəbul etməyə vadar etmək, onları ənənəvi dini görüşlərindən məhrum etmək “asan məsələ deyildi” (20, 197-198; 10, т. XXVII, 51-76). Bununla bağlı dövrün mənbəşünası Əbu Bəkr əl-Qütbi-əl-Əhəri yazırdı ki, ”Qazan xan düşmənin dəfi üçün tədbir apardığı vaxt hamama getdi, qüsl etdi və Şeyx Sədrəddin İbrahim Həməvi şəhadət kəlməsini təlqin etdi. Qazan xan və bütün dövlət başçıları müsəlman oldular” (28, c.5., 380; 7, 23). Bu məsələyə Rəşidəddin açıq şəkildə münasibət bildirmişdir: “İbrahim (a.s.)in bütləri qırması kimi, Qazan xan da müsəlman olduqdan sonra İbrahimi qayğılarla buddistlərin bütlərini qırmışdır” (25, 159; 22, 203-205). Fəzlullah Rəşidədədin yazır ki, Qazan xan müsəlman olanda Hənəfi məzhəbini mənimsədi (19, 416). Bu məzhəbi və mənsublarını dəstəkləmişdir (23, 210). Yeni dinlə birlikdə yeni bir kimliyə qovuşan Qazan xan təbələri arasında şiələrlə də çox yaxşı davranmışdır. Başda Hz. Əli (ə) olmaq üzrə Nəcəfdə və Bağdadda dəfn olunmuş imamların və pirlərin qəbrlərini ziyarət etmiş, onların türbələrinin təmiri üçün maliyyə xərci ayırtdırmışdır (25, 159-161; 22, 156-243). Rəşidəddinə görə, Qazan xanın iamamiliyə meyl etməsinin əsas səbəblərindən biri də onun yuxuda Hz. Əli (ə) ilə görüşməsi olmuşdur. Qazan xanın müsəlman olması qanunilik problemi yaşayan Elxani dövlətinə önəmli üstünlüklər qazandırmışdır. Çünki o boyda imperiyanın idarə olunması və yaşaması üçün ortaq dəyərin tapılması vacib məsələ idi. Bu məsələnin həll olunmaması onları həm siyasi, həm də sosial məsələlər baxımından böhranlarla üzləşdirmişdi (25, 161-162).

O zamanın qaynaqları da sübut edir ki, Qazan xan islam aləmini bir araya gətirmək istəmişdir. O zaman hənəfilyi seçsə də, cəfəriliyə üstünlük vermişdir. O zaman zərb olunan pullar da bizə ip ucu verməkdədir. Həmin pulların üzərində dörd xələfənin dördünün də ismi yazılmışdır. Bu da onun bir vəhdətçi olduğuna böyük işarədir.

Bütün bunlar Həsən padşaha da məlum idi və və özündən əvvəlki bu insanların yolunu gedərək imperiyanın təhlkəsizliyində bu amilin rolunu görürdü. Ağqoyunlu hökmdarlar təsəvvüf zümrələr ilə daha yaxşı münasibətlər qurmağa çalışmışlar. Bu həm də ondan irəli gəlirdi ki, həmin dövrlər sufizmin yülsəliş dövrləri idi. Sufilər xalq arasında böyük dayağa malik idilər. Onlarla münasibət, həm də xalqla münasibətləri tənzimləyirdi. Ağqoyunlu dönəminin bütün tədqiqatçıları göstərirlər ki, Ağqoyunlu sarayının təsəvvüf zümrələr və təriqətlərlə bağlılıqları daha çox Həsən padşah zamanında baş vermişdir (24, 163). Bəllidir ki, təsəvvüf və təriqət əhlinin eyni zamanda bütün dini təbəqələr arasında nüfuzu olmuşdur. Həsən padşah da onlardan həm də istifadə etməklə dini vəhdətə doğru gedirdi. Bu mənada o, bütün təriqətlərə saygı ilə yanaşırdı.

Həsən padşahın hakimiyyəti dövründə imperiya ərazisində 4000 təkyə və zaviyə qurulmuşdu (12, 104). Elə bunu görə də onun dərvişliyə meylli olduğunu irəli sürürlər. Tədqiqatçıların fikrincə, onun dərvişliklə bağlılığı 1469-cu ildə Təbrizi özünə paytaxt elan edərək imperiyanın ərazilərini genişləndirməsiylə daha da artmışdı. İslam və Türk dünyasının böyük bir ərazisini öz hakmiyyəti altında birləşdirən Həsən padşah özünün ordusu üçün ideoloji bir proqram hazırlamağı düşünürdü. Onun qənaətincə, bu proqramı təsəvvüf zümrələri vasitəysilə yarada bilərdi. Buna görə də Həsən padşah nüfuz sahibi olan təriqətlərlə ilişgilər qururdu. O, həyatı boyunca heç bir fərq qoymadan bütün təriqətlərə qucaq açmışdır. Bu təriqətlər sırasına Səfəviyyə, Gülşəniyyə, Xəlvətiyyə, Nurbəxşiyyə, Nəqşibəndiyə və Bayramiyyə daxildir (24, 165).




Dərvişliyə bağlılığı həddən artıq olan Həsən padşah bütün təriqət rəhbərlərini öz sarayında görmək istəyirdi. Yuxarıda onun Şeyx Cüneydlə ilişgilərindən söhbət açdıq. Həsənin padşahın sarayında görmək istədiyi mətəsəvvüflərdən biri də Nəqşibəndiyə təriqətinə mənsub olan zamanın məşhur şairi Mola Camidir (1492, ö.t.). Həsən padşah 1472-ci ildə Məkkədən Həcc səfərindən qayıdan zaman Təbrizə düşən Mola Camini qarşılamaq üçün özünün adlı-sanlı əmirlərindən və əyanlarından Qazı Həsəni, Əbu Bəkr Tehranini, Qasım Şakadili və başqalarını göndərmiş, böyük hörmət və sayğılarla onu qarşılamışdır. Onunla söhbət etmiş və bol hədiyyələr vermişdir. Təbrizdə qalmasını təkidlə xahiş etmiş, lakin Cami yaşlı anasını ziyarət etmək bəhanəsiylə Xorasana getmişdir. Caminin külliyatı arasında Həsən bəyə yazdığı bir məktub da vardır (10, 57-59). Həsən padşahdan sonra oğlu Yaqub da Mola Camiyə böyük bağlılıq və sayğılıq göstərmişdir. Cami də bunu yüksək qiymətləndirmiş və yazdığı əsərlərdə Sultan Yaqubun mərhəmətindən bəhs etmişdir. Sultan Yaqubun yaxın ətrafında olanlardan bəziləri də Mola Cami ilə ədəbi münasibətlərdə olmuşlar (10, 59-66). Həsən padşah və Sultan Yaqub dönəmlərinin məşhur mütəsəvvüflərindən biri də Xəlvətiyyə təriqəti şeyxi Dədə Ömər Rüşəni (1496, ö.t.)-dir. Həsən padşah bu şeyx haqqında məlumatı qardaşı, Dədə Ömər Rüşəninin müridi Üveysdən alır və onu dəvət etmək üçün dərhal adamlarını göndərir. Onların içərisində Dədə Ömər Rüşəninin xəlifəsi İbrahim Gülşəni də olmuşdur. Təbrizə gələn Rüşəni oradakı bir xanəgaha yerləşdirlir. Həm xalq içərisində, həm də dövlət adamları içərisində çox böyük nüfuzu olmuşdur. Həsən padşahın xanımı Səlcuq Hatunun da ona böyük məhəbbəti olmuşdur. Dədə Ömər kimi onun xəlifəsi İbrahim Gülşəni də (öl.1534) də Ağqoyunlu sarayının önəmli mütəsəvvüflərindən biri olmuşdur. Ağqoyunlular dövründə xalqın böyük sayğı və sevgilərini qazanan mütəsəvvüflərdən biri də Nəqşibəndi təriqəti şeyxlərindən Baba Nemətullah Naxçıvani (öl.1514) olmuşdur (16, 11-12; 11, 537). Həsən padşahın xəlvətiyyə şeyxlərindən Seyid Yəhya Bakuvinin xəlfiəsi M.B.Ərzincani ilə də münasibətləri olmuşdur. Onunla tez-tez Ərzincanda görüşmüşdür. Həsən padihaş iki dəfə-Otluqbeli savaşından (1473) əvvəl və sonra M.B.Ərzincani ilə görüşmüşdür. İlk görüşdə Həsən padşah şeyxin dəstəyini almaq məqsədi ilə ziyarətinə gəlmişdi. Şeyxin Həsən padşaha Osmanlı ordusunun islam əsgərləri olduğunu, İstanbulu fəth etdikləri üçün Peyğəmbərin şərəfinə nail olduqlarını söyləyən, onlarla savaşının doğru olmayacağına dair böyük bir cəsarətlə söylədiyi nəsihəti Həsən padşahı əsəbləşdirmişdi. Təkyədən istədiyini ala bilməyən padşah qəzəblə oradan ayrılanda şeyx ona: "Bizim sözümüzün mənasını görəcəksiniz, siz seçdiyiniz yolun nəticəsinə qatlanacaqsınız"-demişdi. Savaş Uzun Həsənin xeyrinə nəticələnmədikdə o, hərb meydanından uzaqlaşıb, Ərzincana gəlmiş, şeyxin zaviyəsinə enmişdir. Şeyx onu qonaq kimi qəbul etmiş, təsəlli verib, tövsiyə və nəsihətləri ilə ona yol göstərməklə kifayətlənməmiş, Sultan Fateh Məhhəmməd ilə arasında sülhün təmin olunması üçün xəlifəsi Əhmədin elçi olaraq göndərilməsini tövsiyə etmişdir. Həsən padşahın razılığı ilə Şeyx Əhməd elçi olaraq Fatehin yanına getmiş, Fateh tərəfindən böyük ehtiramla qarşılanmışdı və onlar sülh sazişi bağlamışdılar (11, 200-201). Ərzincanda Ağqoyunluluar dönəmində mütəsəvvüflərə verilən böyük önəm digər bir səbəbdən də mühüm əhəmiyyət kəsb etmişdir. Bəllidir ki, bu imperiya böyük bir coğrafi ərazidə formalaşmışdı. İmperiyada yaşayan xalqlarla birbaşa təmaslarda şeyxlər, pirlər mühüm rol oynayırdılar. Onların xalq içərisində böyük nüfuzu var idi. Ağqoyunlu sarayı bundan isttifadə edərək xalqla təmasa girir, xalq da şeyxlər və pirlər vasitəsiylə bütün arzularını Ağqoynulu sarayına çatdıdırdılar. Beləliklə, şeyxlər, pirlər xalqla iqtidar arasında bir bağlantı rolunu oynayırdılar (11, 538).

Tədqiqatçıların fikrincə, məhz Həsən padşah dövründə Azərbaycanda dini sahədə geniş miqyasda vəhdət yarandı. Həsən padşahın sarayı isə bu dini vəhdətin mərkəzi idi. İmperiya ərazisində din və təriqət azadlığı mövcud idi. Onun zamanında Azərbaycan ərazilərində çoxlu sayda mədrəsələr fəaliyyət göstərir və bu mədrəsələrdə kiməsə məzhəbə görə fərq qoyulmurdu. Ağqoyunlular dövründə Təbrizdə "Nəsriyyə" mədrəsəsi ilə yanaşı "Dəməşqiyyə", "Məqsudiyyə", Şəfaiyyə" və "Hənəfiyyə", "Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdində "Darül-irşad" fəaliyyət göstərmişdir (3a, 124). Ağqoyunlu hökmdarı Həsən padşahın Əbunəsr adını daşıyan Nəsriyyə mədrəsəsinə verdiyi yüksək qiymətin nəticəsi idi ki, o, 1478-ci ildə vəfat edərkən məhz bu mədrəsənin həyətində dəfn olunmuşdur (4a, 229). Ağqoyunlular dönəmində Şərqi Aanadolu və Azərbaycanda Şeyx Səfa, Şah Sultan Xatun, Sultan Qasım, Həsən Padşah, Fərhadşah, Peyğəmbər mədrəsələri fəaliyyət

göstərmişdir (18, 450).

Təqdim etdiyimiz bu araşdırmada Həsən padşah dövründə dini sahədə yaradılan vəhdəti diqqətə çəkmək istədik. Çünki tarix həm də nəticədir. Bu nəticəni bu gün də həyatımzda görürük. Azərbaycanda insanlar arasında dinə münasibətdə çox böyük dözümlülük özünü göstərir. Bu baxımdan biz bu məsələdən yazmaq istəyəndə Azərbaycan Ağqoyunlu imperiyasının tarixini də nəzərdən keçirməliyik. Bu həm də dövlətçiliyimiz üçün olduqca mühüm məsələdir.

**ƏDƏBİYYAT**


1.Ağayev R.Ə. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qapşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı: Kür nəşriyyatı, 2004, 151 s.

2.Arslantaş Yüksel. Tasavvufun doğuşunda dış tesirlər meselesi. Türk Dünyası Araştırmaları. Sayı:124. Şubat 2000/01, s.223-232.

3.Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия вXI-XIIвв. М.: Наука, 1991, 302 с.

4.Azərbaycan tarixi. Yeddi clddə, c.3. Bakı: Elm, 1999, 584 s.

5.Elçibəy Ə. Azərbaycandan başlayan tarix. Bakı: Adiloğlu nəşriyyatı, 2003, 288 s.

6.Erşahin S. Akkoyunlular. Siyasal, kültürel, ekonomik ve sosyal tarih. Ankara: 2002, 317 s.

7.Əbubəkr əl-Qutbi əl-Əhəri. Tarix-e Şeyx Uveys. Fars dilindən tərcümə və müqəddimə, şərhlər və qeydlər M.D.Kazımov və V.Z.Piriyev tərəfindən yerinə yetirilmişdir. Bakı: Elm,1984, 152 s.

8.Əfəndiyev Oqtay. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1993, 299 s.

9.Əmir Teymurun vəsiyyətləri. Özbəkcədən çevirəni Məti Osmanoğlu. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 112 s.

10.Фалина А.И. Реформы Газан-хана. Уч. зап. ИВ АН СССР. Т. 17. М.: 1959, 76 с.

11.Himmet Konur. Akkoyunlular Döneminde Tasavvuf. Türkler. Cild. 7. YeniTürkiyeyayınları.Ankara: 2002, s.536-539.

12.Hinz W. Uzun Hasan və Şeyh Cüneyd (çev: Tevfik Biyiklıoğlu). Türkmen Akkoyunlu imparatorluğu. Ankara: 1992, s.97-116.

13.Hikmet Ali Asğar. Cami Hayati ve Eserleri (çev: M.Nuri Gençosman), İstanbul: 1991, 260 s.

14.İbrahimov Cəfər. Səfəvilərin Ərdəbil hakimiyyəti tarixinə dair (Qiyabiçilər üçün tədris vəsaiti). Bakı: V.İ.Lenin adına APİ-nin nəşriyyatı, 1960, 46 s.

15.İlhan Erdem., Kazım Paydaş. Ak-Koyunlu tarihi (Siyaset-Teşkilat-Kültür). Birleşik Yayın evi. Ankara: 2007, 224 s.

16.İsmet Zeki Eyuboğlu. Günün işığında Tasavvuf. Tarikatlar. Mezheblertarihi. İstanbul: 1993, 493 s.

17.Mehmet Rihtim. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı: Qismət, 2005, 251 s.

18.Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında). Bakı: Çaşıoğlu, 2012, 604 s.

19.Osmanlı Uyarlığı. Yayına hazırlayanalar: Halil İnalcık, Günsel Renda. TC Kültür ve Turizm Bakanlığı. Ankara: 2004, 487 s.

20.Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı: Nurlan, 2003, 458 s.

21.Петрушевский И.П. Государства Азербайджана в XV веке. Сборник статей по истории Азербайджана. Выпуск I. Баку: Издательство АН Азербайджанской ССР, 1949, 312 с.

22.Reşidüddin, Fazl b. Ebil-Hayr Fazlullah-i Hemedani, Tarih-i Gazan Han, arapçaya çev. Fuat Abdulmuti es-Sayyad, Kahire, Darus-Sikafe İln-Neşr. Kahire 2000.

23.Spuler Bertold. İran Moğolları: Siyaset, İdare ve Kültür İlhaniler Devri 1220-1350, çev. Cemal Köprülü. TTK. Ankara 1987.

24.Seyfettin Erşahin. Akkoyunlular. Siyasal, Kültürel, EkonomikveSosyalTarih. Ankara-2002. 317 s.

25.Şahin Hanifi. İlhanlılar Döneminde ŞİİLİK. İstanbul, Ötüken Neşriyat A.Ş., 2010, 326 s.

26.Şami Nizamüddin. Zafername. Farscadan çeviren Necati Lugal. Ankara: Türk Tarih Basımevi, 1987, 404 s.

27.Şakir Ziya. MezheblerTarihi. Şiilik-Sünnilik-Bektaşilik-Alevilik. İstanbul: Maarif Kitabxanası və mətbəəsi, 240 s.

28.The Cambridge history of İran. In eight volumes. Volume 5. The Saljuq and mongol periods. edited by J.A.Boyle. Cambridge at the university press, 1968, 770 p.

29.Təsəvvüf nurunun iki çırağı: Mənsur Həllac və Sərrac Tusi. Ərəb dilindən tərcümə edən, öz sözün və giriş məqalələrin müəllifi: Könül Bünyadzadə. Bakı: Adiloğlu nəşriyyatı, 2007, 190 s.

30.Tehrani Ə. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilər Rəhilə Şükürovanındır. Bakı: Elm, 1998, 336 s.

31.Vamberi German. Əmir Teymur (Məşhur macar professorun əsəri). Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1991, 82 s.


**Key Words:** *Azerbaijan, Aghgoyunlu, Hasan Padishah, sufi, empire, sekt.*

**Ключевые слова:** *Азербайджан, Аккоюнлу, Хасан-Радишах, суфи, империя, сект.*

**SUMMARY**

Founder Azerbaijani State Aghgoyunlu Hasan Padishah was not only a prominent military commander, politician Azerbaijani culture, literature, science, moral and religious values. He concentrated in his Tabriz famous Muslim scholars, poets, sufis and organized is the hottest scientific and religious debate. In written sources, there is evidence that Hasan Padishahn Aghgoyunlu inclined to an ascetic life.

The Empire Aghgoyunlu (Bayandur) created by Hasan Padishah, dominated religious unity. On the territory of the empire functioned 4000 teke and zavie (holy places of Muslim worship secluded). This fact indicates that Hasan Padishah Aghgoyunlu was both ascetic. The closest advisors Hasan Padishah were prominent representatives of sufism. He was respectful to people of other sects and religions. Hasan Padishah sought to focus the leaders of all religions and sects in his palace.

**РЕЗЮМЕ**

Оснаватель азербайджанского государства Аккоюнлу Хасан-падишах был не только видным полководцем, политическим деятелем азербайджанской культуры, литературы, науки, морально-религиозных ценностей. Он сосредоточил в своем тебризском знаменитых мусульманских ученых, поэтов, суфиев и организовывал здесь жаркие научно-религиозные дискуссии. В письменных источниках имеются сведения о том, что Хасан-падишах Аккоюнлу склонялся к аскетическому образу жизни.

В империи Аккоюнлу (Баяндурия),созданном Хасан-падишахом, господствовало религиозное единство. На территории империи функционировали 4000 текье и завие (святых мест уединенного мусульманского поклонения). Этот факт свидетельствует о том, что Хасан-падишах Аккоюнлу был одновременно аскетом. Самыми близкими советниками Хасан-падишаха были видные представители суфизма. Он с уважением относился к представителям других сект и религии. Хасан-падишах стремился сосредоточить руководителей всех религий и сект в своем дворце.

ELMAN CƏFƏRLİ
Naxçıvan Dövlət Universiteti

# ÖZBƏKİSTAN RESPUBLİKASININ QARAQALPAQSTAN RESPUBLİKASI



Postsovet məkanının muxtariyyətin mövcud olduğu unitar dövlətlərindən Özbəkistanın tərkibində Qaraqalpaqstan Respublikası (özbəkcə "Qoraqalpog'iston Respublikasi" – E.C.) mövcuddur. Türk etnosları peçeneqlərin və oğuzların arasında qaraqalpaq etnosunun formalaşmağa başlaması VIII-X əsrlərə təsadüf edir, bu dövrdə peçeneqlərin bir qismi qıpçaqlarla qarışaraq onların dilini qəbul edir [7]. Lakin qaraqalpaqlar haqqında ilk yazılı tarixi məlumat 1598-ci ilə aiddir. Buxara xanı Abdulla tərəfindən verilmiş imtiyaz vərəqəsində qazaxlarla yanaşı, Sırdərya hövzəsində yaşayan yarımköçəri qaraqalpaqların da adı çəkilir [6]. XVI əsrin əvvəllərindən əvvəlcə bir əsrlik Şeybanilər dövlətinin, sonra isə Aştarxanilər sülaləsinin hakimiyyəti altında olan müasir Özbəkistan ərazisi XVII əsrin ortalarında Buxara, Xivə və Kokand xanlıqlarına parçalandı [3, s. 150-156; 4, s. 121]. 1811-ci ildə Xivə xanlığının tərkibinə daxil olan Qaraqalpaq ərazisi 1873-cü ildən çar Rusiyasının (Türküstan general-qubernatorluğu), 1918-ci ildə sovet Rusiyası tərəfindən yaradılmış Türküstan MSSR-nın tərkibində olmuşdur [4, s. 163; 5, s. 330-331]. Bolşeviklər xalqların öz müqəddəratını təyin etməsi hüququnu bəyan etsə də, 1918-ci ilin yanvarında Türküstanda milli hərəkatı qan içində boğmuş (10 min insan öldürülmüşdü), Kokand şəhəri bir ay ərzində yandırılmış və erməni millətçi "Daşnaksütyun" partiyasının üzvləri tərəfindən qarət edilmişdi [4, s. 163].

1920-ci ildə Leninin göstərişi ilə Türküstan MSSR-in "milli əlamətlərə" görə bölünməsi prosesi başlanmış, həmin ilin aprelində Xarəzm və Buxara xalq sovet respublikaları (XSR; daha sonra SSR – E.C.) təşkil edilmiş, 1924-1925-ci illərdə Orta Asiyada Özbəkistan SSR (tərkibində Tacikistan MSSR), Türkmənistan SSR, Qazaxıstan MSSR, Rusiyanın tərkibində Qırğızıstan Muxtar Vilayəti yaradılmışdı [2, s. 59-67, 79; 3, s. 223; 4, s. 176-177]. Bu dövrdə ərazisinin böyük hissəsi Xarəzm SSR-in tərkibində olan Qaraqalpaqstan 1925-ci il fevralın 16-da Qazaxıstan MSSR-in tərkibində paytaxtı Turtkul şəhəri olmaqla, muxtar vilayət elan edildi [2, s. 79]. 1930-cu ilin iyulundan bilavasitə RSFSR-ə birləşdirilən muxtar vilayət 1932-ci il martın 20-də muxtar respublikaya çevrildi və 1936-cı ilədək Rusiyanın tərkibində qaldı, həmin il dekabrın 5-dən isə Özbəkistanın tərkibinə verildi. 1990-cı il dekabrın 14-də Qaraqalpaqstan Ali Soveti "Qaraqalpaqstan Respublikasının dövlət suverenliyi haqqında Bəyannamə" qəbul etdi [2, s. 254]. Özbəkistan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 31-də qəbul etdiyi 17 maddəlik "Özbəkistan Respublikasının dövlət müstəqilliyinin əsasları haqqında" Qanunun ilk maddəsində deyilirdi: "Özbəkistan Respublikası öz tərkibindəki Qaraqalpaqstan Respublikası ilə birlikdə müstəqil, demokratik dövlətdir" [1, s. 14].

Özbəkistan nadir ölkədir ki, tərkibindəki muxtariyyətin dövlət suverenliyini tanıyır: "Suveren Qaraqalpaqstan Respublikası Özbəkistan Respublikasının tərkibinə daxildir. Qaraqalpaqstan Respublikasının suverenliyi Özbəkistan Respublikası tərəfindən qorunur". Başqa sözlə, Qaraqalpaqstanın Özbəkistan Respublikasının tərkibində suverenliyi 8 dekabr 1992-ci ildə qəbul edilmiş Özbəkistan Konstitusiyasının [9] 70-ci maddəsi ilə mühafizə altına alınır. Muxtariyyətin əhalisinin ümumxalq səsverməsi (referendum) ilə Özbəkistanın tərkibindən çıxmaq hüququ ölkə konstitusiyasında təsbit olunmuşdur (maddə 74). Özbəkistanla Qaraqalpaqstan arasında münasibətlər ölkə Konstitusiyası çərçivəsində müqavilə və sazişlərlə tənzimlənir, mübahisələr barışdırıcı prosedurlar vasitəsi ilə həll edilir (maddə 75).

Konstitusiyanın ilk maddəsinə görə, "Özbəkistan – suveren demokratik respublikadır". Həmçinin "Özbəkistanın dövlət sərhədləri və ərazisi toxunulmazdır və bölünməzdir" (maddə 3). Qaraqalpaqstana öz Konstritusiyasına malik olmaq hüququ verilir. Bununla belə, "Qaraqalpaqstan Konstitusiyası Özbəkistan Respublikasının Konstitusiyasına zidd ola bilməz" (maddə 71) və "Özbəkistan Respublikasının qanunları Qaraqalpaqstan Respublikasının ərazisində də məcburidir" (maddə 72). Qaraqalpaqstan Respublikasının vətəndaşı eyni zamanda Özbəkistan vətəndaşıdır (maddə 21), yəni konstitusion səviyyədə vahid vətəndaşlıq institutu təsbit olunur. Başqa sözlə, Özbəkistan Konstitusiyasında "unitarlıq" prinsipi əks olunmasa, Qaraqalpaqstanın suverenlik hüququ tanınsa da, bəhs edilən hüquqi normalar özlüyündə onun tam suverenliyini təkzib edir və Qaraqalpaqstanı geniş səlahiyyətlərə malik siyasi muxtariyyət kimi təsbit edir.

Çünki tam suverenlik daxili və xarici siyasi və hüquqi müstəqilliyin ehtiva etdiyi bütün səlahiyyətləri nəzərdə tutur. Qaraqalpaqstan Respublikasının rəsmi adında "muxtar" sözü əks olunmasa da, hər halda bir ölkə daxilində digər ölkənin tam "suveren dövlət" kimi mövcud olması nə hüquqi, nə də siyasi prinsiplərə sığmır, təcrübədə rast gəlinmir. Elə Qaraqalpaqstan Konstitusiyasının III fəslində də muxtariyyətə yalnız elmi, mədəni və xarici iqtisadi əlaqələr sahəsində beynəlxalq münasibətlərə daxil olmaq hüququ tanınır.

Ümumiyyətlə, Qaraqalpaqstan Respublikasının hüquqi statusu 6 bölmə, 26 fəsil, 128 maddədən ibarət Özbəkistan Konstitusiyasının XVII fəslində təsbit edilmişdir.

Qaraqalpaqstan Respublikasının Ali Soveti 1993-cü il aprelin 9-da keçirilən on ikinci çağırış on ikinci sessiyasında Qaraqalpaqstan Respublikasının 6 bölmə, 26 fəsil, 120 maddədən ibarət Konstitusiyasını [8] qəbul etdi. Konstitusiyanın preambula hissəsində deyilirdi: "Qaraqalpaqstan Respublikasının xalqı, insan hüquqlarına və dövlət suverenliyi prinsiplərinə bağlılığını təntənəli şəkildə bəyan edərək, hazırkı və gələcək nəsillər qarşısında yüksək məsuliyyətini dərk edərək, qaraqalpaq dövlətçiliyinin inkişafının tarixi təcrübəsinə əsaslanaraq, demokratiya və sosial ədalət ideallarına öz sədaqətini təsdiq edərək, respublika vətəndaşlarının layiqli həyatını təmin etməyə səy göstərərək, humanist demokratik hüquqi dövlətin yaradılması vəzifəsini müəyyənləşdirərək, vətəndaş sülhünün və milli həmrəyliyin təmin edilməsi məqsədi ilə öz səlahiyyətli nümayəndələri vasitəsi ilə hazırkı Konstitusiyanı qəbul edir".

Konstitusiyanın "Dövlətin suverenliyi" adlanan ilk fəslinə (maddə 1-6) görə, Qaraqalpaqstan Özbəkistanın tərkibində suveren demokratik respublikadır, öz inzibati-ərazi quruluşunu müstəqil şəkildə həll edir, dövlət hakimiyyəti və idarə orqanları sistemini müəyyən edir, Özbəkistan Respublikasının siyasətinə uyğun siyasəti həyata keçirir. Ərazisi və sərhədləri toxunulmazdır, dəyişdirilə və bölüşdürülə bilməz. Dövlət dili qaraqalpaq və özbək dilləridir. Onun qanunla təsdiq edilmiş dövlət rəmzləri – bayrağı, gerbi və himni vardır. Paytaxtı Nukus şəhəridir.

Xalq dövlət hakimiyyətinin yeganə mənbəyidir. Milliyyətindən asılı olmayaraq Qaraqalpaqstan Respublikasının vətəndaşları onun xalqını təşkil edir. Xalqın adından yalnız onun seçdiyi Jokarqı Kenes (parlament – E.C.) danışa bilər. Dövlət hakimiyyəti sistemi hakimiyyətin qanunverici, icra və məhkəmə hakimiyyətlərinə bölünməsinə əsaslanır. İctimai həyat siyasi institut, ideologiya və fikirlərin müxtəlifliyi əsasında inkişaf etdirilir, heç bir ideologiya rəsmi dövlət ideologiyası ola bilməz. Demokratiya əsas sərvəti, insan, onun həyatı, azadlığı, şərəfi, ləyaqəti və digər ayrılmaz hüquqları olan ümumbəşəri prinsiplərə əsaslanır. Dövlət öz fəaliyyətini insanın və cəmiyyətin rifahına xidmət edən sosial ədalət və qanunçuluq prinsipləri üzrə qurur.

Qaraqalpaqstan ərazisində Özbəkistan və Qaraqalpaqstan konstitusiyalarının və qanunlarının aliliyi qeyd-şərtsiz tanınır. Konstitusiya müddəalarının Qaraqalpaqstanın hüquqlarına və maraqlarına zərər vurmaq məqsədi ilə şərhinə icazə verilmir.

Qaraqalpaqstanın elmi, mədəni və xarici iqtisadi əlaqələri Özbəkistan və Qaraqalpaqstan qanunvericiliyinə uyğun həyata keçirilir (maddə 17) və onun əsasını "Xarici investisiyalar haqqında" (1998-ci il), "Özbəkistan Respublikasının xarici iqtisadi fəaliyyəti haqqında" (2000-ci il) qanunlar təşkil edir [4, s. 259-260].

Konstitusiyanın böyük bir hissəsini "İnsanın və vətəndaşın əsas hüquq, azadlıq və vəzifələri" adlanan III bölmə (V-XI fəsillər) təşkil edir. Qaraqalpaqstan vətəndaşları cinsi, irqi, milliyyəti, dili, dini, sosial mənsubiyyəti, əqidəsi, şəxsi və ictimai vəziyyətindən asılı olmayaraq eyni hüquq və azadlıqlara malikdir və qanun qarşısında bərabərdirlər. Dövlət və vətəndaş bir-biri ilə qarşılıqlı hüquq və məsuliyyətlə bağlıdır. Konstitusiyada və qanunlarda əks olunmuş hüquq və azadlıqlar sarsılmazdır və heç kim məhkəməsiz onları ləğv edə və ya məhdudlaşdıra bilməz. Konstitusiyada şəxsi hüquq və azadlıqların, siyasi hüquqların, iqtisadi və sosial hüquqların geniş əhatəsi müəyyən olunmuş, insan hüquq və azadlıqlarının təminatı təsbit edilmişdir. Vahid vətəndaşlıq prinsipinə uyğun olaraq Qaraqalpaqstan Respublikasının hər bir vətəndaşı Özbəkistan vətəndaşıdır (maddə 21). Ümumiyyətlə, vətəndaşlıq məsələləri ölkə qanunvericiliyi və beynəlxalq hüquq normaları əsasında həll edilir.

Konstitusiya vətəndaşların vəzifələrini də təsbit edir. Vətəndaşlar qanunlara riayət etməli, digər insanların hüquq, azadlıq, şərəf və ləyaqətlərinə hörmətlə etməli, Qaraqalpaqstan xalqının tarixi, mənəvi və mədəni irsini qorumalı, ətraf mühitə qayğı ilə yanaşamalıdırlar. Qanunla müəyyən edilmiş vergiləri və yerli yığımları ödəməli, hərbi və ya alternativ xidmət keçməlidirlər. Özbəkistan Respublikasının və Qaraqalpaqstanın müdafiəsi – hər bir Qaraqalpaqstan vətəndaşının borcudur.

Qaraqalpaqstan iqtisadiyyatının əsasını bazar münasibətlərinin inkişafı və onun müxtəlif mülkiyyət formaları təşkil edir. Digər mülkiyyət formaları ilə bərabər şəxsi mülkiyyət də toxunulmazdır və dövlət tərəfindən qorunur. Yer, onun təki, sular, bitki və heyvan aləmi və digər təbii resurslar ümummilli sərvətdir, səmərəli istifadə olunmalıdır və dövlət tərəfindən qorunur.

Həmkarlar ittifaqları, siyasi partiyalar, ziyalı birlikləri, qadın, veteran və gənclər təşkilatları, yaradıcı ittifaqlar, kütləvi hərəkatlar və digər birlik ictimai birliklər kimi tanınır. Konstitusiya quruluşunun zorla dəyişdirilməsi məqsədi güdən, suverenlik, bütövlük və Respublikanın təhlükəsizliyi, vətəndaşların konstitusion hüquq və azadlıqları əleyhinə çıxış edən, xalqın sağlamlığına və əxlaqına qəsd edən müharibəni, sosial, milli, dini və irqi düşmənçiliyi təbliğ edən, habelə hərbiləşdirilmiş birliklərin, milli və dini əlamətlərə görə təşkil edilmiş siyasi partiya, gizli birlik və cəmiyyətlərin yaradılması və fəaliyyəti qadağandır. Dövlət orqanlarının və vəzifəli şəxslərin ictimai birliklərin işinə müdaxiləsinə yol verilmir. Dini təşkilat və birliklər dövlətdən ayrılmışdır, qanun qarşısında bərabərdirlər, dövlət dini birliklərin fəaliyyətinə müdaxilə etmir. İctimai birliklərin buraxılması, qadağan olunması və ya fəaliyyətinin məhdudlaşdırılması yalnız məhkəmə qərarı ilə ola bilər.

Kütləvi informasiya vasitələri azaddır və qanuna uyğun olaraq fəaliyyət göstərir. Onlar müəyyən olunmuş qaydada informasiyanın dürüstlüyünə görə cavabdehlik daşıyırlar. Senzuraya yol verilmir.

Qaraqalpaqstan Respublikasının Jokarqı Kenesi (JK) – qanunvericilik hakimiyyətini həyata keçirən ali dövlət təmsilçilik orqanıdır (maddə 68). JK çoxpartiyalı sistem əsasında ərazi seçki dairələri üzrə 5 il müddətinə seçilir və Qaraqalpaqstanın yaşı 25-ə çatmış hər bir vətəndaşı

parlamentə seçilə bilər.

JK-in müstəsna səlahiyyətlərinə Konstitusiyanın və qanunların qəbulu, onlara dəyişiklik və əlavələrin edilməsi, qanunların şərhi; iqtisadi və sosial inkişaf proqramlarının qəbul edilməsi; JK Sədrinin və müavininin seçilməsi; JK Rəyasət Heyətinin (RH) təşkili; Özbəkistan Prezidenti ilə razılaşdırılmaqla JK Sədrinin təqdimatı ilə Qaraqalpaqstan Nazirlər Şurasının (NŞ) Sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi; NŞ-nın sədr müavinlərinin, üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, nazirliklərin, dövlət komitələrinin və digər dövlət idarəçiliyi orqanlarının yaradılması və ləğvi; Konstitusiya nəzarəti komitəsinin, Mülki işlər üzrə Ali Məhkəmənin, Cinayət işləri üzrə Ali Məhkəmənin, İqtisad Məhkəməsinin seçilməsi; mülki və cinayət işləri üzrə rayonlararası, rayon və şəhər məhkəmələri hakimlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi; Özbəkistan Baş prokuroru ilə razılaşdırılmaqla JK RH-nin təqdimatına əsasən Qaraqalpaqstan Prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsi; Təbiəti mühafizə üzrə Dövlət Komitəsi sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi; yerli xalq deputatları şuralarının qərarlarının dayandırılması və ləğvi; inzibati-ərazi quruluşu məsələlərinin qanunvericiliklə tənzimlənməsi; dövlət hakimiyyətinin respublika və yerli orqanlarının sisteminin və səlahiyyətlərinin müəyyənləşdirilməsi; Nazirlər Şurasının təqdimatı ilə dövlət büdcəsinin və onun icrası haqqında hesabatın təsdiqi; Qaraqalpaqstanın dövlət mükafatlarının və fəxri adlarının təsis edilməsi; parlamentə və yerli orqanlara seçkilərin təyin olunması, Mərkəzi seçki komissiyasının yaradılması; Özbəkistan Respublikasının ali dövlət hakimiyyəti və idarəçilik orqanlarının aktlarının ölkə Konstitusiyasına uyğunluğu haqqında Özbəkistan Konstitusiya Məhkəməsinə təqdimatın verilməsi və digər səlahiyyətlər daxildir.

JK-in iclası onun bütün deputatlarının üçdə ikisindən çoxu iştirak etdikdə səlahiyyətlidir. Onun iclaslarında NŞ Sədri və müavinləri, nazirlər, dövlət komitələrinin rəhbərləri digər dövlət idarəçiliyi orqanlarının rəhbərləri, Konstitusiya nəzarəti komitəsinin sədri, Mülki işlər üzrə Ali Məhkəmənin, Cinayət işləri üzrə Ali Məhkəmənin, İqtisad Məhkəməsinin sədrləri, Qaraqalpaqstan Prokuroru iştirak edə bilər. Qanunvericilik təşəbbüsü hüququ deputatlara, Nazirlər Şurasına, Konstitusiya nəzarəti komitəsinə, Mülki işlər üzrə Ali Məhkəməyə, Cinayət işləri üzrə Ali Məhkəməyə, İqtisad Məhkəməsinə, Qaraqalpaqstan Prokuroruna məxsusdur.

JK qanunlar, qərarlar və digər aktlar qəbul edir, komitələr və komissiyalar seçir, zərurət yarandıqda daimi və ya müvəqqəti əsaslarla deputat, təftiş və digər komissiyalar yaradır. Komitə və komissiyaların səlahiyyəti və fəaliyyət qaydası qanunla müəyyənləşdirilir. Deputatlara deputatlıq fəaliyyəti ilə bağlı müəyyən edilmiş qaydada ödəniş edilir. JK-də və onun orqanlarında daimi əsaslarla işləyən deputatlar öz səlahiyyətləri müddətində başqa heç bir ödənişli vəzifə tuta, sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməzlər. Deputat toxunulmazlıq hüququna malikdir, parlamentin razılığı olmadan məhkəmə qaydasında cinayət məsuliyyətinə cəlb edilə, həbs oluna və ya inzibati tənbeh tədbirinə məruz qoyula bilməz.

Jokarqı Kenes Sədri – Qaraqalpaqstan Respublikasının ali vəzifəli şəxsidir. O, parlamentin deputatları arasından gizli səsvermə ilə JK-in səlahiyyət müddətinə seçilir və ardıcıl olaraq iki dəfədən artıq seçilə bilməz. JK Sədri: ali qanunverici və icra hakimiyyətlərinin qarşılıqlı əlaqəsini təmin edir; parlamentə respublikadakı vəziyyət və digər vacib məsələlərə dair hesabatlar təqdim edir; qanunların və Özbəkistan Respublikası Ali Məclisinin digər qərarlarının, Prezidentin fərmanlarının və digər aktlarının həyata keçirilməsini təşkil edir, JK-in qanun və qərarlarının icrasına nəzarət edir; Sədr müavininin, komitə və komissiya sədrlərinin seçilməsi üçün namizədlər təqdim edir; Özbəkistan Prezidenti ilə razılaşdırmaqla, NŞ-nın Sədri vəzifəsinə namizədi təqdim edir; NŞ-nın Sədrinin təqdimatı ilə, müvafiq xalq deputatları şurasının təsdiqinə verməklə, rayon və şəhərlərin hakimlərini (icra hakimiyyəti başçılarını – E.C.) vəzifəyə təyin və vəzifədən azad edir; JK RH ilə razılaşdırmaqla, Konstitusiya nəzarəti komitəsinin sədrliyinə və üzvlüyünə namizədləri təqdim edir; Özbəkistan Prezidenti ilə razılaşdırmaqla, Qaraqalpaqstanın Mülki işlər üzrə Ali Məhkəməsinin, Cinayət işləri üzrə Ali Məhkəməsinin, İqtisad Məhkəməsinin sədrliyinə və hakimliyinə, eləcə də rayon və şəhər məhkəmələrinin hakimliyinə namizədləri təqdim edir; JK RH ilə razılaşdırmaqla, Təbiəti mühafizə üzrə Dövlət Komitəsinin sədrliyinə namizədi təqdim edir; parlamentin müzakirəsinə təqdim ediləcək məsələlərin hazırlanmasına ümumi rəhbərlik edir, parlamentin iclaslarını çağırır, komitə və komissiya sədrləri ilə birlikdə onun gündəliyi barədə təklifləri formalaşdırır; JK-in və onun RH-nin işini təşkil edir, onların iclaslarına sədrlik edir, parlamentin və RH-nin qəbul etdiyi qanunları və digər aktları imzalayır, komitə və komissiyalarının fəaliyyətini istiqamətləndirir və əlaqələndirir; Qaraqalpaqstanın dövlət mükafatlarının və fəxri adlarının verilməsi üçün namizədlər təqdim edir; mühakimə olunmuş vətəndaşların əfv olunması barədə məsələ qaldırır; qanun layihələrinin və dövlət həyatının digər məsələlərinin ümumxalq müzakirəsini təşkil edir; qanunvericiliklə ona verilmiş digər səlahiyyətləri həyata keçirir. JK Sədri səlahiyyətinə aid məsələləri RH-nin müzakirəsinə çıxara bilər. JK Sədri səlahiyyətinə aid məsələlər üzrə sərəncamlar verir.

JK Sədri Qaraqalpaqstan Konstitusiyasını və qanunlarını pozduqda parlament tərəfindən geri çağırıla bilər. Bu barədə qərar parlamentin deputatlarının üçdə bir hissəsinin təşəbbüsü ilə, Konstitusiya nəzarəti komitəsinin qərarı da nəzərə alınmaqla, JK-in ümumi deputatlarının üçdə iki hissəsinin səs verməsi nəticəsində qəbul edilir. JK Sədri öz səlahiyyətlərini şəxsi ərizəsi əsasında, həmçinin parlamentin təşkil etdiyi Dövlət tibb komissiyasının təsdiq olunmuş qərarı ilə səhhətinə görə öz səlahiyyətlərini icra edə bilmədikdə yerə qoya bilər. Sədrin səlahiyyətlərinə xitam verilməsi haqqında qərar parlamentin ümumi deputatlarının səs çoxluğu ilə qəbul edilir. Belə hallarda yeni Sədrin seçkisi on gün ərzində keçirilir.

JK işlərinin təşkili və digər səlahiyyətlərin həyata keçirilməsi üçün JK Sədri, müavini, komitə və koimissiyaların sədrləri, parlamentdəki partiya fraksiyalarının rəhbərlərindən ibarət tərkibdə Rəyasət Heyətini yaradır. RH: JK-in sessiyasının gündəliyi və işinin təşkilinə dair təkliflər hazırlayır; komitə və komissiyaların işi və Qaraqalpaqstan qanunlarının, JK-in qərarlarının icrası haqqında məlumatları dinləyir; qanun layihələri üzərində işin planlaşdırılmasını təşkil

edir; Sədrin təklifi ilə qanun layihələrinin və digər sənədlərin ilkin müzakirəsini keçirir; deputatlar tərəfindən sessiyalarda qaldırılan təklif və qeydləri təhlil edir və onlara dair müvafiq qərar qəbul edir; dövlət mükafatları ilə təltif edir və fəxri adlar verir; sessiyalar arasındakı dövrdə NŞ Sədrinin təqdimatı ilə, sonradan müvafiq qərarları JK-in təsdiqinə verməklə, NŞ sədrinin müavinlərini və NŞ üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir, nazirlikləri, dövlət komitələrini və digər dövlət idarəçiliyi orqanlarını yaradır və ləğv edir; Özbəkistan Respublikasının Baş prokuroru ilə razılaşdırılmaqla Qaraqalpaqstan Prokurorluğuna namizədi JK-ə təqdim edir; sessiyalararası dövrdə deputatın qanunla müəyyən edilmiş hallarda və qaydada məsuliyyətə cəlb olunmasına razılıq verir, həmçinin işəgötürənin təşəbbüsü ilə deputatla əmək müqaviləsinə son verir; JK-in işi və deputatların öz səlahiyyətlərini səmərəli istifadə etməsi ilə bağlı digər məsələləri həll edir. JK RH öz səlahiyyətinə aid olan məsələlər barədə qərarlar qəbul edir və bu qərarlar müəyyən olunmuş qaydada dərc edilir.

2002-ci ildə Özbəkistan Ali Məclisi ikipalatalı (Qanunverici palata və Senat) parlamentə çevrildikdən sonra "Özbəkistan respublikasının Ali Məclisinə seçkilər haqqında" Qanuna görə 100 nəfərdən ibarət olan Senatın üzvlərindən 6-sı (Daşkəndə şəhəri, digər şəhər və vilayətlərlə paritet sayda olmaqla) Qaraqalpaqstandan Jokarqı Kenesin iclasında gizli səsvermə yolu ilə seçilir [4, s. 225-227].

Qaraqalpaqstan Nazirlər Şurası (Hökumət) – dövlət hakimiyyətinin ali icra-sərəncam orqanıdır. NŞ iqtisadiyyatın, sosial və mənəvi sahələrin səmərəli fəaliyyətinə, ölkə qanunlarının və Özbəkistan Ali Məclsinin digər qərarlarının, Prezidentin fərman, qərar və sərəncamlarının, Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Qaraqalpaqstan qanunlarının və JK-in digər qərarlarının, onun RH-nin qərarlarının həyata keçirilməsinə rəhbərliyi təmin edir. NŞ Qaraqalpaqstan dövlət idarəçilik orqanlarının, eləcə də onun rayon və şəhərlərinin hakimlərinin aktlarını dayandırır və ya ləğv edir. NŞ yuxarıda qeyd edilən aktlar əsasında və onların icra edilməsi üçün Qaraqalpaqstan ərazisində icrası məcburi olan qərar və sərəncamlar verir. NŞ-nın səlahiyyət dairəsi və fəaliyyət qaydası, digər dövlət orqanları ilə münasibətləri Qaraqalpaqstan Respublikasının qanunu ilə müəyyən olunur. NŞ JK qarşısında cavabdehdir və öz işi haqqında ildə bir dəfədən az olmayaraq parlamentdə hesabat verir. NŞ yeni seçilmiş JK qarşısında öz səlahiyyətlərini yerə qoyur.

Özbəkistan Prezidenti ilə razılaşdırılmaqla, JK Sədrinin təqdimatı ilə parlamentdə vəzifəyə təyin edilən NŞ Sədri vəzifəsinə görə Özbəkistan Nazirlər Kabinetinin tərkibinə daxildir. NŞ Sədri: hökumətin fəaliyyətinə rəhbərlik edir və səlahiyyətlərini səmərəli həyata keçirməsi üçün tədbirlər görür; JK-ə, sessiyalararası dövrdə isə onun RH-nə sədrinin müavinlərinin və onun üzvlərinin təyin olunması və vəzifədən azad olunması barədə namizədlər təqdim edir; NŞ Rəyasət Heyətinin təsdiqi ilə sədr müavinləri arasında vəzifə bölgüsü aparır; JK-sə, sessiyalararası dövrdə onun RH-inə nazirliklərin, dövlət komitələrinin və digər dövlət idarəçiliyi orqanlarının yaradılması və ləğvi barədə təqdimat verir; JK Sədrinə rayon və şəhərlərin hakimlərinin vəzifəyə təyin və vəzifədən azad olunması barədə təqdimat verir; NŞ-nın, onun RH-nin iclaslarında sədrlik edir; hökumətin işində kollegiallığı təmin edir; dövlət və təsərrüfat idarəçiliyinin NŞ-nın və onun RH-nin iclasında müzakirəsi tələb olunmayan məsələlərinə dair qərarlar qəbul edir və s.

Rayon və şəhərlərdə (rayon tabeli şəhərlər istisna olmaqla) nümayəndəli hakimiyyət orqanları dövlətin və vətəndaşların maraqlarından irəli gələn və onların səlahiyyət dairəsinə daxil olan məsələləri həll edən hakimlərin (özbəkcə "hokim" –E.C.) başçılıq etdiyi xalq deputatları şuralarıdır (XDŞ). XDŞ-nın vəzifələrinə qanunçuluğun, hüquq qaydasının və vətəndaşların təhlükəsizliyinin təmin edilməsi; ərazinin iqtisadi, sosial və mədəni inkişaf məsələləri; yerli büdcənin formalaşdırılması və icrası, yerli vergilərin, yığımların, büdcədənkənar fondların müəyyənləşdirilməsi; yerli kommunal təsərrüfata rəhbərlik; ətraf mühitin mühafizəsi; vətəndaş vəziyyəti aktlarının qeydiyyatının təmin edilməsi; normativ aktların qəbul edilməsi və Qaraqalpaqstan Konstitusiyasın və qanunvericiliyinə zidd olmayan digər səlahiyyətlər daxildir. XDŞ Özbəkistan qanunlarını, Özbəkistan Ali Məclisinin digər qərarlarını, Prezidentin fərman, qərar və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Qaraqalpaqstan qanunlarını və JK-in digər qərarlarını, onun RH-nin qərarlarını, NŞ-nın qərar və sərəncamlarını həyata keçirir, respublika və yerli əhəmiyyətli məsələlərin müzakirəsində iştirak edir. Yuxarı orqanların öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarların icrası aşağı orqanlar üçün məcburidir. XDŞ-nın və hakimlərin səlahiyyət müddəti 5 ildir. Özbəkistan Respublikasının 1994-cü il mayın 5-də qəbul edilmiş "Xalq deputatları vilayət, tümən və şəhər şuralarına seçkilər haqqında" Qanununa görə XDŞ-na seçilmək üçün yaş senzi 21-dir [1, s. 86].

Yerlərdə nümayəndəli orqana və icra hakimiyyətinə rayonun, şəhərin hakimi başçılıq edir. Rayon və şəhər hakimləri NŞ Sədrinin təqdimatı ilə JK Sədri tərəfindən, müvafiq XDŞ-da təsdiq edilməklə, vəzifəyə təyin və vəzifədən azad edilir. Rayon və şəhərlərin hakimləri öz səlahiyyətlərini vahid rəhbərlik prinsipi ilə həyata keçirir və qərarlarına və rəhbərlik etdiyi orqanın fəaliyyətinə görə fərdi məsuliyyət daşıyır. Hakimlərin və XDŞ-larının fəaliyyətinin təşkili



və xalq deputatları şuralarının seçki qaydası qanunla tənzimlənir. Hakim səlahiyyətləri çərçivəsində müvafiq ərazinin bütün müəssisə, idarə, təşkilat və birliklər, həmçinin vəzifəli şəxsləri və vətəndaşları tərəfindən icrası məcburi olan qərarlar qəbul edir.

Qəsəbələrdə, aullarda, eləcə də məkan-keneslərdə (məhəllələrdə) özünüidarə orqanları 2,5 il müddətinə öz sədrini (ağsaqqalı) və onun məsləhətçilərini seçən vətəndaş yığıncaqlarıdır. Özünüidarə orqanlarının seçilmə qaydası, fəaliyyətinin təşkili və səlahiyyətlərinin həcmi Özbəkistan Respublikasının "Yerli dövlət hakimiyyəti haqqında" 1993-cü il sentyabrın 2-də [1, s. 86] və "Vətəndaşların özünüidarə orqanları haqqında" 1999-cu ilin aprelində qəbul edilən qanunlarla müəyyən olunur [4, s. 223].

Məhkəmə sisteminə 5 il müddətinə seçilən Mülki işlər üzrə Ali Məhkəmə, Cinayət işləri üzrə Ali Məhkəmə və İqtisad Məhkəməsi daxildir. Məhkəmə işləri qaraqalpaq, özbək və ya yaşayış yeri əhalisinin çoxluğunu təşkil edən xalqın dilində aparılır. Qaraqalpaq Respublikasında konstitusiya nəzarətini həyata keçirən orqan – üzvləri 5 il müddətinə seçilən Konstitusiya nəzarəti komitəsi mövcuddur.

Vətəndaşların seçki hüququna, səsvermə zamanı bərabərliyə və iradəsini sərbəst şəkildə ifadə etməsinə qanunla təminat verilir. JK-ə, rayon və şəhər XDŞ-larına seçkilər onların konstitusion səlahiyyət müddətlərinin başa çatdığı il dekabrın 3-cü ongünlüyünün ilk bazar günü ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə ilə keçirilir. 18 yaşına çatmış hər bir vətəndaşın seçmək hüququ vardır. Məhkəmə tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş, eləcə də azadlıqdan məhrumetmə yerlərində saxlanılan vətəndaşlar seçkilərdə iştirak etmir. İstənilən başqa halda birbaşa və ya dolayısı ilə seçki hüququnun məhdudlaşdırılmasına yol verilmir. Bir vətəndaş eyni zamanda ikidən artıq nümayəndəli orqanın deputatı ola bilməz.

Qaraqalpaqstan ərazisində qanunların "dəqiq və eyni qaydada" icrası üzərində nəzarəti Qaraqalpaqstan Prokuroru həyata keçirir. Qaraqalpaqstan Prokurorunu Özbəkistan Baş prokurorunun razılığı ilə JK vəzifəyə təyin və vəzifədən azad edir. Rayon və şəhərlərin prokurorları Qaraqalpaqstan Prokurorunun təqdimatı ilə Özbəkistanın Baş prokuroru tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər. Prokurorların səlahiyyət müddəti 5 ildir.

Konstitusiyaya dəyişikliklər deputatlarının üçdə ikisindən az olmayan hissəsinin səsi ilə qəbul edilmiş qanunla və ya referendum yolu ilə edilir. JK Konstitusiyanın dəyişdirilməsi haqqında təklif verildiyi vaxtdan 6 ay ərzində müvafiq qanun qəbul edə bilər. JK Konstitusiyanın dəyişdirilməsi haqqında təklifi rədd edərsə, həmin təklif bir ildən tez müddətdə bərpa oluna bilməz.

Hazırda Qaraqalpaqstanın ölkə əhalisinin 5,7 faizini təşkil edən əhalisinin sayı 1,7 milyon nəfərdən artıqdır ki, onun da 32 faizdən çoxu qaraqalpaqlardır. Burada özbəklərin də sayı təxminən bu qədərdir, əhalinin daha 26 faizini isə qazaxlar təşkil edir. Qaraqalpaqstanın tərkibinə 14 rayon (qışlaq tüməni, özbəkcə "qishloq tumani" – E.C.) daxildir, 80 faizi (13,67 mln ha) səhradan ibarət olan ümumi ərazisi 166,6 min km2-dir və ölkə ərazisinin 37 faizdən çoxunu əhatə edir. Ərazisi neft, qaz, titan və qızıl ehtiyatları ilə zəngindir [1, s. 36; 7]. Respublika şimalda və qərbdə Qazaxıstanla, cənubda Türkmənistanla xarici sərhədlərə malik olub şərq hissədə Özbəkistan ərazisi ilə birləşir.

## ƏDƏBİYYAT


1. *Usmonov Q. O'zbekiston tarixi (Milliy istiqlol davri). To'ldirilgan beshinchi nashri. Toshkent: O'qituvchi Nashriyot-Matbaa İjodiy Uyi, 2007, 328 b.*

2. *Usmonov Q., Sodiqov M. O'zbekiston tarixi (1917-1991-yillar). Akademik litsey va kasb-hunar kollejlari 1-bosqich o'quvchilari uchun darslik / Mas'ul muharrir: Q.Rajabov. Toshkent: Sharq, 2010, 256 b.*

3. *Usmonov Q., Sodiqov M. Burxonova S. O'zbekiston tarixi. Oliy o'quv yurtlari barcha bakalavr yo'nalishlari uchun (tarix yo'nalishidan tashqari). Darslik. Toshkent: 2005, 478 b.*

4. *Арифджанов Э.К., Алимов Ш.К., Нарбеков А.В., Кадыров К.Б.. История Узбекистана. Курс лекций. Тошкент: Академия МВД Узбекистана, 2012, 273 с.*

5. *Зиёев Х. Туркистонда Россия тажовузи ва хукмронлигига карши кураш (XVIII - XX аср бошлари). Тошкент: Шарк, 1998, 480 б.*

6. *История каракалпаков. /http://vsemirnaya-istoriya.ru/index.php?option=com_content &view= article&id=112:karakalpaki&Itemid=3*

7. *Исхакходжа И. Этнополитические проблемы Каракалпакстана. / http://www.islamsng.com/uzb/pastfuture/642*

8. *Конституция Республики Каракалпакстан. http://sovminrk.gov.uz/lang/ru/docs/rkconst/*

9. *Конституция Республики Узбекистан. http://sovminrk.gov.uz/lang/ru/docs/uzconst/*



**Açar sözlər:** *Özbəkistan Respublikası, suveren dövlət, Qaraqalpaqstan Respublikası, siyasi muxtariyyət, konstitusiya, səlahiyyət.*

**Ключевые слова:** *Республика Узбекистан, суверенное государство, Каракалпакская Республика, политическая автономия, конституция, компетенция.*

**Keywords:** *Republic of Uzbekistan, a sovereign state, Republic of Karakalpakstan, political autonomy, the constitution, competence.*


## РЕЗЮМЕ


Центрально-азиатская унитарное государство Республика Узбекистан имеет в своем составе Каракалпакскую Республику, которая является автономией. Каракалпакстан в 1925 году Кыргызстан был создан как автономная область, а в 1932 году переобразован на автономную республику и передана в состав России, а с декабря 1936 года стал составной частью Узбекистана. В настоящее время Каракалпакстан по Конституции Республики Узбекистан (1992, 8 декабря) и и по своей Конституции (1993, 9 апреля) имеет статус суверенного государства в составе Республики Узбекистан. Но анализ положений этих двух конституций доказывает, что Каракалпакстан политическая автономия обладающая широкими полномочиями.


## SUMMARY


There is Karakalpak Republic in Uzbekistan having autonomous status said to be unitar state in the Middile Asia. Karakalpak as autonomous region established within Kyrgyzstan in 1925. in 1932 it was changed into Autonomous Republic. Firstly it become a part of Russia, in 1936 it became a part of Uzbekistan. At the present Karakalpak Republic is a sovereign state due to the constition of Uzbekistan and itself. But the analysis of both Constitional propositions show that Karakalpak has political autonomy with a large status.

Siyasət

# NATO-NUN QƏRBİ BALKANLARDA YENİ GENİŞLƏNMƏ DALĞASI VƏ TÜRKİYƏNİN MÖVQEYİ

HÜSEYN HÜSEYNLİ
Bakı Dövlət Universiteti



2014-cü ildə NATO üzvləri tərəfindən yeni baş katib Norveçin keçmiş baş naziri Yens Stoltenberq seçildi [18]. Onun baş katibliyi dövründə NATO-ya yeni namizədlərin üzv olaraq qəbulu istiqamətində konkret addımlar atılmağa başlandı. Xüsusilə Balkanlarda bu təşəbbüs daha tez hiss edildi. Rusiyanın təhdidlərinə baxmayaraq Balkanların qərbində Qaradağ, Bosniya və Herseqovina, Makedoniya itti-faqa üzv olmaq üçün fəaliyyətini davam etdirir [20, 119-121]. Digərləri ilə müqa-yisədə Qaradağ Respublikasının NATO-nun 29-cu üzvü olması məsələsinin həllinin yaxın olması görünür. Bütövlükdə, NATO Balkanlarda mövqeyini möhkəmləndirmək, sabitliyi təmin etmək üçün bu dövlətlərin kiçikliyindən, itifaqa verə biləcəyi töhfədən asılı olmayaraq üzv olmasına ehtiyac duyur və bu işdə onun ən böyük dəstəkçisi yalnız Türkiyə ola bilər. Çünki Türkiyə bir başqa NATO üzvü - Yunanıstanla müqayisədə bu dövlətlərin ən böyük dəstəkçisidir [19, 22-34].

2006-cı il iyun ayının 3-də Serbiya ilə ittifaqdan rəsmən ayrıldığını bəyan edən Qaradağ Respublikasının müstəqilliyini tanıyan 7-ci ölkə Türkiyə Cümhuriyyəti oldu. İki dövlət arasında bir ay sonra, iyul ayının 3-də diplomatik əlaqələr qu-ruldu. Balkanlardakı sülh və sabitliyin qorunub saxlanılmasında maraqlı olan Qaradağ Respublikası bu istiqamətdə daha böyük uğurlar əldə etmiş Türkiyə Cümhuriy-yəti ilə dostluq münasibətləri qurmaq yolunu seçdi [16]. İki tərəfli əlaqələr fonunda görülən işlər qısa bir müddətdən sonra Qaradağ kimi kiçik bir dövlətin NATO üz-vünə çevrilməsinə də öz töhfəsini vermiş oldu. Türkiyənin bu Balkan dövləti ilə yüksələn xətt üzrə inkişaf etdirilən münasibətlərinə Qaradağın əhalisinin 19%-ni bosniyalıların, qaradağlı müsəlman və albanların təşkil etməsi də təsirsiz ötüşmədi. 2009-cu ildə iki dövlət arasında imzalanmış İqtisadi Əməkdaşlıq Müqaviləsi iqti-sadi və ticarət əlaqələrinin əsasını təşkil etmişdir. 2008-ci il noyabr ayının 26-də İs-tanbulda imzalanan və 2010-cu ilin mart ayının 1-də qüvvəyə minən Sərbəst Tica-rət Müqaviləsi ilə Türkiyədən ixrac edilən sənaye mallarına Qaradağda tətbiq edilən gömrük rüsumunun faiz nisbəti azaldıldı. Qaradağda fəaliyyət göstərən 5 türk şirkətinin bu ölkəyə ayırdığı investisiya 26 milyon dollar təşkil edir. 2015-ci ildə Qaradağda reallaşdırılan ən mühüm investisiyalardan biri də Türkiyənin Ziraat bankının iyul ayında bu ölkədə fəaliyyətə başlaması oldu. İstanbul birja fondu 2014-cü ildə Qaradağ birjasına təxminən 25% payla şərik oldu. Türkiyə Cümhuriyyəti 2015-ci il dekabr ayının 2-də NATO–nun Xarici İşlər Nazirlərinin iclasında üzvlük müzakirələrinə dəvət edilən Qaradağ Respublikasının üzvlüyünü dəstəklədi. 2016-cı il may ayının 19-da isə Qaradağın lehinə NATO-nun XİN-i tərəfindən Brüsseldə üzvlük protokolunu imzalanması mərasimində iştirak etməklə bu dəstəyini rəsmiləşdirdi [9]. İyun ayının 29-da isə bu qərar TBMM-in qəbul etdiyi qanun-la qüvvəyə mindi[15]. Həmin qanunda qeyd edilir ki, NATO-nun genişlənməsi "Qaradağ üçün də NATO ilə qurulacaq təhlükəsizlik və müdafiə əlaqələri baxım-dan mühüm əhəmiyyət daşıyır və namizəd ölkələrin xarici və müdafiə siyasətində bir prioritet təşkil edir" [15]. Qəbul edilən qanunda Türkiyənin NATO-nun genişlənməsini "Avropadakı bölünmə xətlərinin ləğv edilməsi istiqamətində inteqrasiya prosesinin mühüm aspekti kimi gördüyünü" və "genişlənmə prosesini başlandığı vaxtdan dəstəklədiyini" bəyan edilirdi. Türkiyə höküməti Qaradağ kimi kiçik bir dövlətin üzv olaraq qəbul edilməsinin üzvlük niyyətində olan ölkələr üçün də bir işarə və təşviqedici bir addım hesab edirdi. Həqiqətən də Rusiya Federasiya Şura-sının Müdafiə və Təhlükəsizlik Komitəsinin sədri Viktor

Ozerovun sözləri ilə qeyd etsək "600 min əhalisi olan Qaradağ hərbi baxımdan heç bir təhlükə kəsb etmirdi" [8], lakin Cənub-şərqi Avropanın Balkanlar bölgəsində strateji sabitliyin və Avropanın bütövlüyünün qorunub saxlanılması üçün mühüm əhəmiyyətə malik idi [15].

Qaradağ Respublikasının üzv olaraq qəbul edilməsindən sonra növbədə Bosniya-Hersoqavina və Makedoniya Respublikalarının üzvlük məsələsi aktual olaraq qalırdı. Bu istiqamətdə görülən işlərin mərhələli şəkildə həyata keçiriləcəyini NATO-nun baş katibi Yens Stoltenberq 2015-ci ilin payızında "Turkish Policy Quarterly" jurnalına verdiyi müsahibəsində də bəyan etmişdi: "Müttəfiqlər növbəti aylarda Bosniya-Hersoqavina, Makedoniya... kimi NATO üzvlüyünü arzulayan ölkələrin də fəaliyyətini dəyərləndirəcək. Lakin bu dəyərləndirmələr barədə konkret hökm verməyəcəm. NATO Avropa-Atlantik qurumlarına inteqrasiya müddətində bu millətlərə dəstək verməyi və bu dəstəyə sadiq qalmağı davam etdirəcəkdir" [21, 17-21].

Bosniya və Herseqovinanın NATO-ya üzvlük müzakirələrinin tarixi 2006-cı ildən başlayır. Həmin il Sülh Naminə Tərəfdaşlıq proqramına qoşulandan sonra Bosniya-Hersoqavina ilə NATO arasında dialoqlar daha geniş xarakter aldı. 2008-ci ildə isə NATO ilə bu dövlət arasında Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (FTƏP) imzalandı. Bosniya və Herseqovinanın 2009-cu ildə üzvlük müraciətindən sonra, Türkiyənin də böyük dəstəyi ilə NATO 2010-cu ilin aprel ayının 22-də Bos-niya və Herseqovinanın Üzvlük Əməliyyatı Planını bəzi tədbirlərin reallaşdırılması şərtiylə qəbul etdi. Birinci şərt Bosniya və Herseqovina ilə bağlı Serbiya Respublikasında mövcud "şübhəçilik" düşüncələrinin, ikinci şərt isə daşınmaz hərbi əmlakın dövlətə həvalə edilməsi baxımdan texniki durğunluğun həllini tapması idi [10].
Bu problemlərin tam həll edilməməsinə və Serbiyanın etirazlarına baxmayaraq 2012-ci ilin mayında bu dövlət "Üçlü Rəhbərlik Şurası"na qəbul edildi [5, 42-43]. NATO-nun baş katibi Rasmussenin 2013-cü il fevral ayının əvvəllərində bu ölkəyə səfəri vaxtı həllini tapmayan bu şərtlər bir daha xatırlanmışdı. Xüsusilə də Bosniya və Herseqovina Dövlət Şurasının serb üzvü Neboyşa Radmanoviç ölkəsinin NATO-ya üzv olması üçün hərbi əmlak məsələsinin həll edilməsinin ən mühüm şərt oldu-ğunu bəyan etmişdi [10]. Serbiyanın Bosniya böhranından sonra bu Balkan dövləti üçün yaratdığı bu problemin fonunda yenə də Bosniya və Herseqovinanın ən böyük dəstəkçisi Türkiyə Cümhuriyyəti idi. Hələ ötən əsrin 90-cı illərində Türkiyənin Malayziyada Beynəlxalq Əlaqələr şöbəsinin rəhbəri vəzifəsini icra etmiş Əhməd Davudoğlu bir müddət Bosniya və Herseqovinanın ilk prezidenti Aliya İzzətbəyo-viçin xahişi ilə bu Balkan dövlətinin fəxri səfiri kimi Malayziyada təmsil etmişdi.

Bundan başqa o, Malayziyanın Bosniya və Herseqovinaya göndərdiyi hərbçilərin xidməti sahələri ilə bağlı məsələlərdə məsləhətçi vəzifəsini də icra etmişdi [1]. Bu fakt Türkiyə Cümhuriyyəti ilə Bosniya və Herseqovina dövləti arasındakı münasi-bətlərin hansı səviyyədə olmasını dəyərləndirmək baxımdan olduqca maraqlıdır. 2014-2016-cı illərdə Türkiyə baş naziri olmuş Əhməd Davudoğlu XİN-i olduğu dövrdə də (2009-2014-cü illər) Bosniya və Herseqovina – Türkiyə Cümhuriyyəti münasibətlərinə inkişafına daim öz töhfəsini vermiş, hətta bu dövlətin qonşuları – Serbiya və Xorvatiya ilə münasibətlərinin tənzimlənməsi üçün qarşılıqlı səfərlər təşkil etmişdir [13]. Bu səfərlərin də məntiqli nəticəsi kimi qarşı tərəf daim Türkiyə Cümhuriyyətindən öz razılığını ifadə etmiş və münasibətlərin yüksək səviyyədə saxlanılmasına səy göstərmişdir. 2013-cü ilin martında "Bosniyanın dünəni, bu günü və sabahı" mövzusunda Ərzurum Atatürk Universitetinin təşkil etdiyi konfransda iştirak edən həmin ölkənin səfiri Sabit Subaşiç konfransdakı çıxışında "Türkiyə NATO üzvlüyündən başqa bir çox beynəlxalq sahələrdə də bizə dəstək verir. Biz də hər fürsətdə verdiyi bu dəstəyinə görə Türkiyəyə minnətdarlığımızı bildiririk", deyə bəyan etmişdi [3]. Lakin Türkiyənin Qərbi Balkanlarda xüsusilə də Bosniyada gördüyü işlər və bu dövləti NATO ailəsinə cəlb etmək təşəbbüsləri yalnız Ser-biyanın deyil, Rusiyanın da narahatçılığına səbəb olurdu. Məhz bu səbəbdəndir ki, bu dövlətin üzvlük məsələsini tam olaraq başa çatdırmaq mümkün olmur. Məsələn, 2014-cü ilin sentyabr ayında BMT-nin Baş Assambleyasının 69-cu iclasında RF "Qaradağ, Makedoniya və Bosniya və Hersoqovinanın NATO-ya tam üzvlüklərinin qəbul edilməsi perspektivinə necə münasibət bəsləyir" sualına Rusiya XİN-i Lavrov "bu istiqamətdəki addımları açıq şəkildə NATO-nun yalnış siyasəti və təxribatı kimi qəbul edirik", deyə cavab vermişdi. Bu şərh açıq-aşkar Rusiyanın bu ölkələrin NATO ailəsinə qoşulmasına qarşı olduğunu göstərir [2]. Bu etirazlara baxmayaraq Qaradağ NATO-nun 29-cu üzvü olmağın artıq bir addımlığındadır. Bos-niya və Hersoqovinanın isə bu baxımdan vəziyyəti bir qədər fərqli dəyərləndirilir. İstər Serbiya, istərsə də RF hər vəchlə bu ölkənin NATO yoluna mane olmaqda da-ha qərarlı görünür. Təsadüfi deyil ki, Bosniya və Hersoqovina dövlətinin tərkib hissəsi olan Serb Respublikası RF tərəfindən ən yüksək səviyyədə dəstəklənir [2]. Məhz bu səbəbdən də əvvəldə də qeyd etdiyimiz kimi istər NATO-nun ən mühüm üzvlərindən biri olan Türkiyə, istərsə də alyansın rəhbərliyi bu məsələdə üzvlük probleminin mərhələli şəkildə həllinə üstünlük verir. 2016-cı ilin fevralında Bosniya və Hersoqovinanın AB-nə üzv olmaq üçün müraciət etməsi və 2 il ərzində müzakirələrin başlanacağına dair ümidlər bu dövlətin istər AB-i, istərsə də NATO üzvlüyü prosesinin daha uzun çəkəcəyi fikrini formalaşdırır.

Qərbi Balkanlarının NATO-ya üzvlük yolunda digər namizədlərindən biri də Makedoniya Respublikasıdır. Makedoniya hökuməti 1992-ci ildə müstəqillik əldə etdikdən sonra beynəlxalq təhlükəsizliyini və dövlətin siyasi sabitliyini təmin etmək üçün NATO-ya üzv olmağı qarşısına məqsəd qoymuşdur. Bu ittifaqa üzv ol-maq üçün lazım olan bütün islahatları reallaşdırmış, NATO-nun həyata keçirdiyi əməliyyatlara hərbi dəstək vermiş və Cənubi-şərqi Avropa Sülh Əməliyyatı Qüv-vələri tərkibində iştirak etmiş, lakin Yunanıstanla mövcud "dövlətin necə adlan-ması problemi" ilə əlaqədar üzvlüyə qəbul edilməmişdi. Bu üzvlüyün də qəbulu üçün Makedoniya xaricdən dəstəyə ehtiyac duyur. ABŞ-la yanaşı Türkiyə bu dəs-təyini sona qədər təmin etmiş və etməkdədir. Türkiyə Cümhuriyyəti ABŞ-la birlikdə həm NATO üzvü olduğuna, həm də xarici siyasətində Balkanlardakı sabit və dinc

şəraitin mövcudluğuna üstünlük verdiyinə görə Makedoniya Respublikası üçün çox böyük əhəmiyyət daşıyırdı [14, 27].

Türkiyə Cümhuriyyəti Makedoniyanın NATO-ya üzv olmasını Balkanlar siyasəti çərçivəsində dəyərləndirir. ABŞ-dan fərqli olaraq Balkanlardakı sabitliyin qorunub saxlanılmasına daha həssas yanaşır. Çünki bölgədə baş verməsi ehtimal edilən hər hansı bir ziddiyyət bölgə ilə tarixi və geosiyasi yaxınlığına görə Türkiyəyə daha çox mənfi təsir göstərə bilər. Bu səbəbdən də bu bölgədə dinclik və sabitliyin qorunub saxlanılması olduqca əhəmiyyətlidir. Türkiyə Cümhuriyyəti bu istəyini Makedoniyanın da NATO-ya üzv edilməsi ilə reallaşdırmağın mümkün olacağını başa düşür və bu istiqamətdə fəaliyyətini də hər vəchlə davam etdirir. Makedoniyanın üzvlüyünə dəstək verilməsinin digər səbəbi isə bu dövlətdə yaşayan türklərdir. Bu ölkədə baş verə biləcək hər hansı bir narahatlıq birbaşa onlara zərər verə bilər. Bu da istər yeni miqrant axınına, yaxud da Makedoniya türklərinin qohumlarının Türkiyədə yaşamasına görə Türkiyəyə daha çox ziyan verə bilər [14, 27]. Buna bənzər milli azlıq problemi türklərlə deyil, albanlarla bağlı 2001-ci ildə baş vermişdi.

2001-ci ilin iyununda Makedoniyanın Prezidenti Boris Trajkovski Milli Azadlıq Ordusunu və ölkədə fəaliyyət göstərən etnik Alban qruplarını tərksilah etmək üçün NATO-dan kömək istədi. Cavab olaraq, Şimali Atlantika Şurası ikili yanaşma irəli sürdü; edilən hücumlara öz etirazını bildirərək, hökumətin ekstremist qruplara qarşı fəaliyyətində onlara dəstək olmaq üçün tədbir gördü. Eyni zamanda, hökuməti öz hərbi qüvvələrinin sayını azaltmağa, etnik Albanların cəmiyyətdə və siyasətdə iştirakını artırmaq üçün konstitusional islahatlar qəbul etməyə çağırdı. Tərəflər sülh və atəşkəsə aparan siyasi dialoqda iştirak etdilər. 2001-ci ilin 13 avqustunda Ohrid Çərçivə Sazişinin imzalanması NATO qoşunlarının 2001-ci ilin 27 avqustunda ölkə ərazisinə girməsinə və daxili islahatlara şərait yaratdı. Kod adı Vacib Məhsul Yığımı Əməliyyatı olan 30 günlük missiyanın vəzifəsi Milli Azadlıq Ordusu tərəfindən könüllü olaraq toplanmış bütün silahları təhvil almaq və məhv etməkdən ibarət idi. Əməliyyata 3500 nəfərlik NATO qoşunu cəlb edilmişdi və nəticədə təxminən 3875 silah və tərkibində mina və partlayıcı maddələr olan 397.600 digər vasitələr təhvil alındı. İlin sonunda Parlament sülh müqaviləsinə uyğun olan 15 konstitusional düzəliş qəbul etdi. 2001-ci ilin sentyabrında Prezident Trajkovski Makedoniyada sülh planının tətbiqinə nəzarət edən Avropa Şurası və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Şurasından olan beynəlxalq müşahidəçilərin təhlükəsizliyini təmin etmək üçün növbəti hərbi qüvvələrin ölkə ərazisinə gəlməsini xahiş etdi. NATO-ya üzv olan ölkələrdən təşkil edilmiş 700 nəfərlik qoşundan ibarət, Almaniyanın başçılığı altında "Kəhrəba Tülkü" kod adı ilə tanınan növbəti missiya ölkədə olan təxminən 300 nəfərlik birliyi daha da möhkəmləndirdi. 2001-ci il sentyabrın 27-də fəaliyyətə başlayan üç aylıq mandat sülh planının tətbiqinə nəzarət edən beynəlxalq müşahidəçilərin təhlükəsizliyini qorumağa kömək edirdi və bu proses sonralar daha geniş vüsət aldı [6, 151]. Prezident Trajkovskidən gələn rəsmi xahişə cavab olaraq NATO 2002-ci ilin 16 dekabrında Müttəfiqlərin Ahəngi Əməliyyatı adlı yeni missiyanın əsasını



qoydular. Missiya beynəlxalq müşahidəçilər və məşvərətçi qrupun təhlükəsizliyini təmin etməkdə, bütün ölkə ərazisində təhlükəsizlik məsuliyyətini yerinə yetirməkdə hökumətə yardım edən operativ elementlərdən ibarət idi. NATO-nun rəhbərlik etdiyi Müttəfiqlərin Ahəngi Əməliyyatı 2003-cü ili martında Avropa İttifaqına təhvil verilməsinə qədər davam etdi. Böyük hərbi nəqliyyatın və hərbi təchizat marşrutunun istifadəsi nəticəsində yollar və körpülərin sıradan çıxması, zərərin miqdarının artmasını görən NATO yenidənqurma və digər mülki mühəndislik layihələri həyata keçirməklə ölkəyə öz töhfəsini verdi. NATO-nun burada fəaliyyət göstərən qərargahı Skopye Universitetinin mülki mühəndislik şöbəsi ilə əməkdaşlıq şəraitində bu səylərin koordinasiyasında böyük rol oynadı [6, 152].

Makedoniyanı konstitusiyadakı adı ilə tanıyan və Skopyeyə səfirini göndərən ilk dövlət Türkiyədir [17]. Türkiyə Cümhuriyyəti Makedoniya Respublikasının ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin dəyişməzliyini həmin vaxtdan qəbul edir və qətiyyətlə müdafiə edir. Türkiyə ilə Makedoniya arasında XXI əsrin əvvəllərində bir çox əməkdaşlıq müqavilələri imzalanaraq qısa müddət də qüvvəyə minmişdi [4, 209]. 2001-ci ildə baş verən Makedoniya böhranına da bir NATO ölkəsi kimi öz töhfəsini verən Türkiyə Cümhuriyyəti Skopye ilə olan diplomatik əlaqələrinin pozulmaması üçün ehtiyatlı siyasi xətt götürmüşdür. Məlum böhrandan Skopye rəhbərliyin daxili işlərinə müdaxilə vasitəsi kimi istifadə etməmişdir. Bu cür mövqe Makedoniya prezidenti Trajkovski tərəfindən minnətdarlıqla qarşılanmış və Ankaranın mövqeyi təqdir edilmişdi [12]. Hər nə qədər Türkiyə Cümhuriyyəti Makedoniya böhranında sülhsevər, ardıcıl və uzlaşdırıcı bir mövqe nümayiş etdirsə də, əslində ölkə daxilində baş verən ağır iqtisadi böhran Ankara rəhbərliyi-nin Makedoniyada cərəyan edən hadisələrə müdaxilə etməsinə mane olmuşdur. Türkiyə regional təhlükəsizlik və sabitliyi təmin edən Ohrid Çərçivə Sazişinin im-zalanmasını dəstəkləmiş və Makedoniyadakı türk azlığının hüquqları ilə bağlı o qə-dər də tələb irəli sürməmişdir. Hətta Ankaranın bu mövqeyi makedoniyalı türklərin ruh düşkünlüyünə səbəb olmuş, bəzi makedoniyalı türklər də Ankara hökümətini makedon tərəfdarı olmaqda günahlandırmışdı [11,

36].

Əslində isə Türkiyə Cümhuriyyətinin Makedoniya ilə bağlı ehtiyatlı siyasi bir kurs götürməsi bu dövlətin də Bosniya və Hersoqovina ilə bənzər problemlərindən qaynaqlanır. Hər iki dövlətin NATO və AB-yə daxil olması istiqamətində xarici amil böyük rol oynayır. Əgər Bosniya və Hersoqovinanın hər iki ittifaqa daxil olması istiqamətində ən böyük maneə kimi Serbiya və RF ilə münasibətlər həlledici rol oynayırsa, Makedoniya üçün də xüsusilə Yunanıstan nümayiş etdirdiyi mövqe həlledici rola malikdir. Bu baxımdan Makedoniyanın NATO-ya üzvlüyü daha çətin görünür. Hər nə qədər də Makedoniya ittifaqa üzv olmaq istiqamətində Türkiyə və ABŞ kimi NATO-nun dəstəyini alırsa, Yunanıstanın ölkənin adlanması ilə bağlı tələb olaraq qoyduğu "ad vetosu" bu üzvlüyün reallaşması müddətini daha da uzadır. Eynilə Makedoniyanın XİN-i Nikola Poposkinin NATO-nun keçmiş baş katibi Rasmussenlə görüşdə bəyan etdiyi kimi "Makedoniya artıq 13 ildir NATO-nun qa-pısında gözləyir, bu uzun bir müddətdir və NATO üzvləri ilə bir masa arxasında Makedoniyaya da yer verilməsinə ehtiyac duyulur" [7].

Bütövlükdə tədqiqatın gedişində belə bir qənaətə gəlmək olar ki, NATO-nun Balkanların qərbində yeni genişlənmə dalğasının gedişatı Türkiyə Cümhuriyyətinin də maraqlarına cavab verir. Çünki Balkanların qərbindəki dövlətlərin NATO-ya üzv qəbul edilməsi nəinki ittifaq daxilində, hətta bu regionda Türkiyənin mövqe-yinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

## ƏDƏBİYYAT


1. *Bilge Kral Aliya İzzetbegoviç'in Davutoğlu öngörüsü/www.yeniakit.com.tr/ haber/bilge-kral-aliya-izzetbegovicin-davutoglu-ongorusu-27660.html*
2. *Bosna Hersek'in AB ve NATO yolu/www.bosnahersek.ba/bosna-hersekin-ab-ve-nato-yolu/*
3. *"Bosna'nın NATO'ya Üyeliği İçin En Çok Desteği Türkiye'den Alıyoruz" /www.haberler.com/bosna-nin-nato-ya-uyeligi-icin-en-cok-destegi-4413695-haberi/*
4. *Çağ G. Dağılan Yugoslavya'nın Ardından Makedonya ve Türkiye // Çankırı Karatekin Üniversitesi Uluslararası Avrasya Strateji dergisi, 2012, sayı 1(1), ss. 197-216.*
5. *Ekinci M.U. Bosna-Hersek siyasetini anlama kılavuzu. İstanbul: SETA, 2014, 130 s.*
6. *NATO məlumat kitabı. Bakı, 2009, 388 s.*
7. *NATO'dan Makedonya'ya Destek/www.yenibalkan.com/gundem/natodan-makedonyaya-destek-h498.html*
8. *NATO'nun yeni üyesi Karadağ/www.dw.com/tr/natonun-yeni-üyesi-karadağ/a-19269358*
9. *NATO'nun yeni üyesi o ülke oldu. "Hürriyet" gaz., İstanbul, 2016, 19 Mayıs.*
10. *'NATO'ya Katılım Bosna'nın Elinde'/www.zambak.ba/8216-nato8217-ya-kati lim-bosnanin-elinde8217--1303h.htm*
11. *Özlem K. Soğuk savaş sonrası dönemde ABD'nin ve Türkiye'nin Balkanlar politikalarının Bosna-Hersek, Kosova ve Makedonya krizleri örneğinde incelen-mesi//Balkan Araştırma Enstitüsü dergisi, 2012, № 1, s. 23-39*
12. *Sezer Makedonya Cumhurbaşkanı ile Görüştü."Hürriyet" gaz., İstanbul, 2001, 21 Mart.*
13. *Soğuk Savaş Sonrasında Bosna-Hersek Krizi ve Türkiye-Bosna Hersek İlişki-leri/politikaakademisi.org/2012/11/26/soguk-savas-sonrasinda-bosna-hersek-krizi-ve-turkiye-bosna-hersek-iliskileri/*
14. *Şimşek A. Makedonya'nın Nato Üyeliğinin Türkiye ve ABD Desteği Kapsa-mında Tartışılması // Barış Araştırmaları ve Çatışma Çözümleri Dergisi, 2014, cilt 2, sayı 1, ss. 26-36*
15. *TBMM. Yasama dönemi: 26. Yasama yılı: 1. Sıra sayısı: 407. Karadağın Kuzey Atlantik Antlaşmasına Katılımına İlişkin Protokolün Onaylanmasının Uy-gun Bulunduğuna Dair Kanun Tasarısı (1/742) ve Dışişleri Komisyonu Raporu. Ankara: TBMM Basımevi, 2016, 11 s.*
16. *Türkiye-Karadağ Siyasi İlişkileri/www.mfa.gov.tr/turkiye-karadag-siyasi-iliskileri.tr.mfa*
17. *Türkiye-Makedonya İlişkileri/www.mfa.gov.tr/turkiye-makedonya-cumhuriyeti-siyasi-iliskileri-.tr.mfa*
18. *Генсеком НАТО назначен бывший премьер Норвегии Йенс Столтенберг/ tass.ru/mezhdunarodnaya-panorama/1082212*
19. *Глазова А. В. Политика Турции на Западных Балканах//Научный журнал проблемы национальной стратегии, 2013, № 2 (17), с. 22-34*
20. *Райнхардт Р.О. Россия и страны Западных Балкан: экономическое изме-рение сотрудничества // Журнал Российский внешнеэкономический вест-ник, 2016, № 11, с. 119-121*
21. *Interview with Jens Stoltenberg: NATO-Russia Relations & Regional Insta-bility //Turkish Policy Quartery journal, 2015, volume 14, № 3, fall, pp.17-21*



**Açar sözlər:** *Türkiyə, NATO, ABŞ, RF, Balkan, Qaradağ, Bosniya və Herseqovina, Makedoniya, genişlənmə.*

**Ключевые слова:** *Турция, НАТО, США, Россия, Балканы, Черногория, Босния и Герцеговина, Македония, расширения.*

**Key words:** *Turkey, NATO, USA, Russia, the Balkans, Montenegro, Bosnia and Herzegovina, Macedonia, enlargement.*



**RESUME**

The establishment of closer military and political relations between Turkey and the Western Balkans in the future could change the balance of forces in the region. If earlier, Turkey located on the southern flank of NATO, was forced to focus on ensuring an equilibrium situation with Greece, but now he has the opportunity to attract to their side the Balkan countries and the Allies develop a common position with them in the framework of the North Atlantic Alliance.

**РЕЗЮМЕ**

Установление более тесных военно-политических связей Турции с госу-дарствами Западных Балкан в будущем может изменить баланс сил в реги-оне. Если раньше турецкое государство, находящееся на южном фланге НАТО, было вынуждено уделять основное внимание обеспечению равновес-ного положения с Грецией, то теперь у него появляется возможность привле-кать на свою сторону Балканские страны-союзники и вырабатывать в рамках Североатлантического альянса общую с ними позицию.

# Qloballaşma

## AVROPA İTTIFAQI ÇƏRÇİVƏSİNDƏ İNTEQRASİYA PROSESLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNİN ƏSAS MƏRHƏLƏLƏRİ

ŞƏBNƏM ZEYNALOVA
"Xəzər" universiteti

Ən çox inkişafı Avropada olmuş və tədricən, mərhələ-mərhələ baş vermiş inteqrasiya proseslərinin tədqiqi, bu proses zamanı qanunauyğunluqların müəyyən edilməsi, və bununla yanaşı həm regional, həmçinin universal səviyyədə müxtəlif inteqrasiya proseslərində Azərbaycan Respublikasının mümkün iştirakının optimal modelinin hazırlanması və tərtib edilməsi məqsədilə Azərbaycan ictimai elmi üçün böyük maraq kəsb edir. Yaxşı bəllidir ki, müxtəlif inteqrasiya proseslərində iştirak etmə ayrı-ayrı ölkələrin dövlət sərhədləri hüdudlarından kənara çıxan iqtisadi (maliyyə, valyuta,kredit, hesablaşma və s.) və siyasi proseslərə müəyyən dərəcədə təsiretmə imkanı verir. Bu səbəbdən hazırki məqalənin əsas məqsədi dünyada ən uğurlu inteqrasiya birliyi olan Avropa İttifaqı (Aİ) çərçivəsində inteqrasiya proseslərinin inkişafının əsas mərhələlərinin tədqiq edilməsidir.

Öz fəaliyyət dövründə Aİ bütün Avropa məkanında ən güclü inteqrasiya birliyinə çevrilmişdir və bu günə 28 Avropa ölkəsinin siyasi və iqtisadi birliyi kimi çıxış edir. Ümumi əhalisi 510 mln. insan olan (bu isə dünya əhalisinin 7,3% təşkil edir), Beynəlxalq Valyuta Fondunun məlumatına görə, vahid bütöv kimi baxılan Aİ-nın payı 2016-cı ildə nominal əhəmiyyətinə görə dünya ümumi daxili məhsulu (ÜDM) üzrə 22,2 % (16,477 trln. ABŞ $), alıcılıq qabiliyyəti pariteti (AQP) üzrə isə 16,9 % təşkil etmişdir. Beləliklə, Aİ iqtisadiyyatı nominal əhəmiyyətinə görə dünyada birinci və digər göstərici - AQP üzrə ÜDM həcminə görə ikinci yeri tutur. II Dünya Müharibəsindən sonra gələcəkdə Avropa qitəsində müharibələrin yenidən başlanması imkanının istisna edilməsi və möhkəm sülhün təmin edilməsi, həmçinin Qərbi Avropa ölkələrinin çoxunun dağıdılmış iqtisadiyyatının bərpa edilməsi zərurəti müxtəlif sahələrdə Avropa ölkələrinin inteqrasiyası üzrə səylərin birləşdirilməsi də daxil olmaqla, bir sıra tədbirlərin görülməsini tələb edirdi.

Avropanın inteqrasiyası prosesinin başlanmasında 9 may 1950-ci ildə Fransa hökuməti adından Fransa xarici işlər naziri Robert Şuman tərəfindən irəli sürülmüş "Şuman Bəyannaməsi" adlanan sənədi birinci atılmış addımlardan biri kimi



qiymətləndirmək olar. Bu sənəd bu ölkələrdə iqtisadiyyatın əsasını təşkil edən Fransanın və Qərbi Almaniyanın daş kömürü, dəmir filizi və metallurgiya sənayesinin birləşdirilməsini nəzərdə tuturdu. Belə ki, R. Şuman öz çıxışında qeyd etmişdir ki: "Avropa xalqlarının birləşməsi Fransa və Almaniyanın əsrlik qarşıdurmasının ləğv edilməsini tələb edir... Kömür və metallurgiya sənayesində yaradılmış həmrəylik, beləliklə, Fransa və Almaniya arasında hər çür müharibənin baş verməsini nəinki ağlabat olmasını, hec maddı cəhətdən mümkün olmamasını bildirəcəkdir". [9, s. 4] Bu planın həyata keçirilməsi üçün 6 Avropa ölkəsi – Fransa, Almaniya, İtaliya, Hollandiya, Belgiya və Lüksemburq 18 aprel 1951-ci ildə Fransanın paytaxtı Parisdə Avropa Kömür və Polad Birliyininin təsis edilməsi haqqında müqavilə imzaladılar (AKPB, ingiliscə, ECSC - European Coal and Steel Community). [11] Əsas fikir Fransa-Almaniya kömür və metallurgiya məhsulunun birləşdirilməsindən ibarət idir. İqtisadi nöqteyi nəzərdən bu iki xammal bu ölkələrin sənaye və energetikasının əsasını təşkil edirdi. AKPB müqaviləsi 23 iyul 1952-ci ildən qüvvəyə minmiş və müqavilə müddəti bitdikdən sonra (50 il) 23 iyul 2002-ci ildə bu təşkilatın fəaliyyətinə son qoyulmuşdur. AKPB müqaviləsi iştirakçı dövlətlərin iqtisadi, siyasi və hüquqi əməkdaşlıq sahələrini əhatə edirdi. Q.Qorniq və O. Vitviskaya qeyd edirdilər ki, AKPB iqtisadiyyatın köməyi ilə Avropa inteqrasiyasının həyata keçirilməsi cəhdi idi. Və bunun ardınca siyasi inteqrasiyanın baş verəcəyinə ümid edilirdi. [5, s. 22] İqtisadi sahədə ümumi tənzimlənən kömür və polad bazarının yaradılması nəzərdə tutulurdu. Bundan əlavə bu müqavilədə normal rəqabətin mühafizəsi, rəqabət şəraitində müdaxilədən müdafiə, əmək haqqı və işçi qüvvəsinin hərəkəti, nəqliyyat və həmçinin birgə ticarət siyasətinin həyata keçirilməsi üzrə tədbirlər də müəyyən edilirdi. Siyasət sahəsində isə hakimiyyət səlahiyyətlərinə malik olan ümumi institusional orqanların yaradılması nəzərdə tutulurdu. AKPB vacib xüsusiyyətlərindən biri də dövlətüstü institusional mexanizmin təsis edilməsi idi. Belə ki, AKPB orqanları həm iştirakçı dövlətlər üçün, həmdə bu dövlətlərin fiziki və hüquqi şəxsləri üçün məcburi xarakter daşıyan normativ və fərdi aktların qəbul edilməsi üzrə səlahiyyətlərə malik idilər. Məsələn, Ali rəhbəredici orqan qərarlar qəbul etmək, tövsiyələr və ya müvafiq rəylər vermək səlahiyyətinə malik idi.

AKPB-nə üzv olan ölkələrin iqtisadiyyatının digər sahələrini əhatə edən inteqrasiya proseslərinin inkişafının sonrakı mərhələsi Avropa İqtisadi Birliyinin (AİB, ingiliscə EEC - European Economic Community), və Nüvə Enerjisi üzrə Avropa Birliyinin (NEAB, ingiliscə Euratom — European Atomic Energy Community) təsis edilməsi ilə bağlıdır. Bu təşkilatlar 25 mart 1957-ci ildə Romada iki müxtəlif müqavilənin bağlanması yolu ilə yaradılmışdır. İqtisadi sahədə AİB-nın yaradılması təkcə iqtisadiyyatın ayrı-ayrı sektorları ilə məhdudlaşmayan və AKPB-ya aid olmayan xalq təsərrüfatının digər sahələrini də əhatə edə bilən ümumi bazarın formalaşması üçün nəzərdə tutulmuşdur. Belə ki, AİB-nin səlahiyyət dairəsinə iştirakçı dövlətlər arasında hər cür gömrük rüsumların, həmçinin ixracat və idxalat nomenklaturasına aid məhdudiyyətlərin aradan qaldırılması kimi məsələlərin daxil edilməsi nəzərdə tutulmuşdur. AİB-nin səlahiyyət dairəsinə həmçinin üçüncü dövlətlərə dair ümumi gömrük tarifinin qəbul edilməsi və ümumi ticarət siyasətinin aparılması və həmdə kənd təsərrüfatı və nəqliyyat sahəsində ümumi siyasətin həyata keçirilməsinə dair məsələlər də aid edilmişdir. Bundan əlavə, ümumi bazar çərçivəsində rəqabəti təhriflərdən qoruyan effektiv sistemin yaradılması, iştirakçı dövlətlərin iqtisadi siyasətinin razılaşdırılması və s. tətbiqi və həmçinin şəxslərin, xidmətlərin və sərmayələrin azad hərəkət etməsi istiqamətində hər bir maneələrin aradan qaldırılması nəzərdə tutulurdu. Siyasi sahədə həmdə AİB-nin institusional mexanizminin fundamenti kimi AKPB-nin institusional mexanizminin əsasına qoyulmuş rəhbəredici prinsiplər çıxış edirdi. Bununla yanaşı, AİB-nin əsas orqanı kimi Sura müəyyən edilmişdir. Şura üzv dövlətlərin ümumi iqtisadi siyasətinin həyata keçirilməsi üzrə koordinasiyanın aparılmasını təmin edirdi və məcburi xarakter daşıyan qərarların qəbul edilməsi hüququna malik idi. Həm də Şura özü tərəfindən qəbul edilmiş aktlarda əksini tapan normaların həyata keçirilməsi üzrə səlahiyyətlərin icra funksiyasını həyata keçirən AİB-nın digər institusional orqanı olan Avropa Komissiyasına vermək hüququna malik idi. Lakin qeyd etmək lazımdır ki, Birliyin Assambleya və Məhkəmə kimi digər institusional orqanlarına aid prinsipial xarakter daşıyan xüsusi dəyişikliklər baş verməmişdir.

Bununla yanaşı, ümumi bazarın fəaliyyəti üçün zərurətdən irəli gələn dərəcədə üzv dövlətlərin qanunvericiliyin bir-birinə yaxınlaşdırılması nəzərdə tutulmuşdur. Həm AİB, həm də AKPB özlərinin əsas institusional orqanları tərəfindən dövlətüstü hüquq yaradıcılığının həyata keçirilməsini nəzərdə tutan səlahiyyətlər əldə etmişlər. Bu normativ hüquqi aktların qəbul edilməsi, presedent xarakteri daşıyan məhkəmə qərarlarının çıxarılması, və həmçinin digər ölkələrlə və beynəlxalq təşkilatlarla müqavilələrin bağlanması yolu ilə həyata keçirilirdi.

NEAB-ın təsis edilməsi nüvə sənayesinin yaranması və sonrakı artımı məqsədilə bütün zəruri şərtlərin yaradılmasına yönəldilmişdir. Bu məsələnin həlli üçün elmi-tədqiqat işinin inkişafı və texniki biliklərin yayılması, bütün əhalinin sağlamlığının qorunması üçün vahid təhlükəsizlik normalarının tərtib edilməsi və onların üzərində nəzarətin həyata keçirilməsi, investisiya rejiminin sadələşdirilməsi, AİB-də nüvə energetikasının inkişafı üçün zəruri olan sahələrdə fundamental tədqiqatların həyata keçirilməsi üçün qurğuların yaradılması və s. üzrə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Bütövlükdə hər iki Birliyin institusional orqanlarının statusu və bu orqanlar tərəfindən normativ aktların qəbul edilməsi qaydası oxşar xarakter daşıyır. Bununla yanaşı, tamamilə aydındır ki, NEAB AİB-dən fərqli olaraq, sektoral xarakter daşıyır və nüvə sənayesinin inkişafına yönəlib. Bu isə NEAB AKPB ilə yaxınlaşdırır. NEAB həmçinin beynəlxalq hüquq qabiliyyətlidir. [8]

Beləliklə, bir-birindən fərqli olan üç Birlik - AKPB, AİB və NEAB yaradılmışdır. Qeyd etmək lazımdır ki, bu Birlikləri birləşdirən amillər mövcüd idi.

Birincisi, bütün bu Birliklərin üzvləri eyni dövlətlər idi.

İkincisi, bu Birliklər qarşılarına mahiyyətçə oxşar

məqsədlər qoyulmuşdur.

Üçüncüsü, bu Birliklərin institusional mexanizmi və qurulma prinsipləri praktiki olaraq eynidir.

Dördüncüsü, praktikada AİB və NEAB öz fəaliyyətinə başladıqdan sonra onların nümayəndəlik və məhkəmə orqanları mövcud olan hər üç Birliyə aid institusional orqanlar kimi fəaliyyət göstərməyə başladılar.

Beləliklə, bu Birliklərin əsas orqanlarının birləşdirilməsi və vahid institusional mexanizmin və həmçinin Birliyin ümumi institusional strukturunun yaradılması təbii addım idi. İnteqrasiya proseslərinin inkişafında növbəti və məntiqi addım Avropa Birliklərinin vahid Şurasının və vahid Komissiyasının yaradılması idi. Bu məqsədlə 8 aprel 1965-ci ildə Brüsseldə "Avropa Birliklərinin vahid Şurasının və vahid Komissiyasının təsis edilməsi haqqında" saziş imzalanmışdır. AKPB, AİB və NEAB orqanları öz strukturuna görə bir təşkilat vahidində birləşdirilmişdir. [10] Bir vahid Şura və bir vahid Komissiya yaradılmışdır. Həmçinin Birliyin vahid büdcə institutu da qəbul olunmuşdur. Faktiki olaraq Birliklərin formalaşması prosesi yekunlaşmışdır.

Avropa Birliklərinin tədricən inkişaf prosesinin özü və müasir Aİ formasının əldə edilməsi ona dövlətüstü səviyyədə idarəetmə ilə bağlı həm tədricən daha çox funksiyaların verilməsi, həm də bu inteqrasiya birliyinə üzv dövlətlərin sayının artırılması yolu ilə baş verirdi. Həm də Birliklərin genişlənməsi də qeyd olunmalıdır. Bunu ilk növbədə inteqrasiyanın uğurlu nətəcələri ilə bağlamaq lazımdır. [3, s. 345] Məsələn, 1 yanvar 1973-cü ildən Danimarka, İrlandiya və Böyük Britaniya bu Birliklərə qoşuldu. 1 yanvar 1981-ci ildə Avropa Birliklərinə Yunanıstan, 1 yanvar 1986-cı ildə isə İspaniya və Portuqaliya qəbul edilmişdir.

İqtisadi sahədə Avropa Birliklərində keyfiyyətcə yeni səviyyədə inteqrasiya proseslərinin sonrakı inkişafı vahid daxili bazarın yaradılması prosesinin yekunlaşdırılmasını və həmdə perspektivdə vahid Avropa valyutasının dövriyyəyə buraxılması ilə vahid valyuta bazarının formalaşması üçün şərtlərin yaradılmasını tələb edirdi. Bu səbəbdən Avropa Birliklərinin təsis sənədlərində müvafiq dəyişikliklər edilməsi zərurəti yaranmışdır. Bu məqsədlə Avropa Birliklərinin üzv dövlətləri Haaqada Vahid Avropa Aktını imzaladı. Bu sənəd Birliklərin təsis sənədlərinə bir sıra mühüm düzəlişlər etdi və Birliyin Vahid Bazar Proqramını (VBP) tənzimlədi. VAA-da qeyd edilirdi ki, VBP-nın həyata keçirilməsi Birliklərin məqsədidir və, bununla yanaşı, onun son müddəti kimi 31 dekabr 1992-ci il göstərilmişdir. Yəni gözlənilirdi ki Birliklərdə vahid daxili bazarın qurulması üçün üzv dövlətlərdə bu müddətə bütün lazımi islahatlar yekunlaşacaq. Bununla yanaşı, nəzərdə tutulmuşdur ki daxili bazar, mahiyyətcə, sərhədləri olmayan məkan olmalıdır. Və bu məkanda hər cür malların, şəxslərin, xidmətlərin və sərmayələrin azad hərəkət etməsi üçün şərtlər yaradılmalıdır. Belə ki, Avropa Şurası tərəfindən, o cümlədən işçi qüvvəsinin və həmçinin əmtəə və xidmətlərlə mübadiləyə dair hər çür maneələrin aradan qaldırılmasına yönəlmiş aktların qəbul edilməsi ilə bağlı məsələlər üzrə qərarların qəbul edilməsi proseduru sadələşdirilmişdir.

Birliyin institusional orqanları sisteminə də müəyyən dəyişikliklər edilmişdir. Belə ki, Avropa Şurası, müstəqil struktur kimi, Birliyin institusional mexanizminin bir hissəsi kimi tanınmışdır. Bununla yanaşı, Birliklərin Assambleyası ləğv edildi və onun yerinə yeni səlahiyyətlər verilmiş Avropa Parlamenti yaradıldı. Bundan əlavə Birliklərin üzv dövlətlərinin xarici siyasət məsələləri üzrə siyasi əməkdaşlıq mexanizmi də dəyişdirilmişdir.

Qeyd etmək lazımdır ki, universal səlahiyyətə malik olan inteqrasiya Birliyinin yaradılması ideyası müxtəlif konfrans və sammitlərdə irəli sürülmüşdür. Məsələn, 1972-ci ilin iyununda Avropa Birliklərinə üzv ölkələrin dövlət (hökumət) başçılarının Paris görüşünün yekun bəyannaməsini göstərmək olar. Bu sənəddə üzv ölkələr arasında münasibətlərin bütün kompleksini Avropa İttifaqına çevirmək qərarı haqqında deyilir. Daha sonra 1976-cı ildə, Avropa Şurasının tapşırığı üzrə

Belgiyanın baş naziri L. Tindemans tərəfindən bütün sahələrdə inteqrasiya proseslərin idarə edilməsinə dair vahid mexanizmin yaradılması məqsədilə Avropa Birlikləri institutlarının yenidən qurulması proqramının layihəsi irəli sürülmüşdür (L. Tindemans məruzəsi). Bu layihənin yekun məqsədi Avropa Birliyinin Aİ-na çevrilməsi idi. Xarici siyasət sahəsində öz hərəkətlərinin əlaqələndirilməsi üçün Birlik dövlətləri tərəfindən vaxtaşarı siyasi məsləhətləşmələrin aparılmasının təşkil edilməsi zərurəti haqqında təklif irəli sürülmüşdür. Lakin L. Tindemansın məruzəsi qəbul edilmədi. AFR və İtaliyanın xarici işlər nazirləri H. Henşer və E. Kolombo Avropa Birlikləri əsasında vahid Aİ-nın yaradılmasına dair yeni birgə təşəbbüs ilə çıxış etdilər. Onlar 1981-ci ilin noyabr ayında yeni sənəd layihəsi təqdim etmişlər. Bu layihənin əsasında 19 iyun 1983-cü ildə Birliklər Avropa İttifaqı haqqında "Təntənəli bəyannamə" adlandırılan sənədi qəbul etdilər. Bundan əlavə 5 il müddətində Birliklərin İttifaqa çevrilməsi haqqında müqavilə layihəsinin hazırlanması qərarı da verilmişdir. Aİ-nın yaranması haqqında formal saziş isə 7 fevral 1992-ci ildə Maastrixt (Hollandiya) şəhərində imzalanmış və 1 noyabr 1993-cü ildən qüvvəyə minmişdir. [12] Elmi ədəbiyyatda ədalətli olaraq qeyd edilir ki, Maastrixt sazişinin qüvvəyə minməsi iqtisadi əsasla yanaşı, Aİ-nın siyasi qurum kimi fəaliyyət göstərməsinin də əsasını yaratdı. [1, s. 366] Onu da xüsusi vurğulamaq lazımdır ki, Maastrixt sazişinin vacib əhəmiyyətindən biri də yeni institusional orqanın yaradılmasıdır. Aİ üzv dövlətlər tərəfindən AİB əsasında Aİ təsis edilirdi. Bundan əlavə onun səlahiyyətlərinə siyasət sahəsi və əməkdaşlığın yeni formaları da əlavə edilirdi. Aİ-nın yaradılması haqqında saziş bu Birliyin təsisedici aktlarının birinə çevrildi. Bütövlükdə 1957-ci il tarixli Roma sazişləri və 1992-ci il tarixli Maastrixt müqaviləsi Aİ-nın fəaliyyət göstərməsinin əsaslarını təşkil edir. Bununla yanaşı, Maastrixt müqaviləsi Avropada inteqrasiya proseslərinin dərinləşdirilməsi üçün baza yaratdı. Aİ-nın əsas məqsədləri kimi heç bir daxili sərhədləri olmayan məkan kimi çıxış edən ümumi bazarın formalaşdırılması yolu ilə iqtisadi və sosial tərəqqiyə kömək edilməsi, və, son nəticədə, vahid Avropa valyutasının dövriyyəyə buraxılması ilə iqtisadi və valyuta ittifaqını yaradılması, Birliyin əldə edilmiş səviyyəsinin saxlanılması (acquis communautaire) müəyyən edilmişdir. Bu isə əvvəlini Avropa Birliklərinin yaradılması ilə qoyulmuş

Avropa inteqrasiyasının həyata keçirilməsinin yeni, daha yüksək səviyyəyə keçməsi zərurəti demək idi. Bundan əlavə Aİ-nın institusional orqanlarının işinin təkmilləşdirilməsinə və yaradılan vahid mexanizmin fəaliyyət göstərməsi səmərəliyinin yüksəldilməsinə yönəlmiş tədbirlərin görülməsi nəzərdə tutulurdu. Vacib məqsədlərdən biri də iqtisadi və valyuta ittifaqının hüquqi bazasının yaradılması idi.

Beləliklə belə bir nəticəyə gəlmək olar ki, Aİ-nın təsis edilməsi Birlik hüdudlarında inteqrasiyanın gücləndirilməsi,vahid Avropa valyutasının dövriyyəyə buraxılmasını nəzərdə tutan üzv dövlətlərin iqtisadi və valyuta ittifaqının yaradılması və bu proseslərin Aİ-nın dövlətüstü orqanlarının idarəçiliyi altında olması üçün əsas yaradır. Bununla yanaşı, Aİ-da "bu iqtisadi həmrəyliyi eyni zamanda, siyasi inteqrasiyaya da yol açırdı". [2, s. 44]

Ai-nın daha sonrakı formalaşması mərhələsi Maastrixt müqaviləsi ilə nəzərdə tutulmuş müddəaların həyata keçirilməsi ilə bağlıdır. Belə ki, 2 oktyabr 1997-ci ildə Amsterdam müqaviləsi imzalanmışdır. Bu sazişə əsasən Ai-nın səlahiyyətləri genişləndirilmişdir. Məsələn, viza və immiqrasiya siyasətinin aparılması Aİ-nın səlahiyyətinə aid edilmişdir. Sosial-iqtisadi sahədə Aİ-nın vacib nailiyyətlərinə Avropa məşğulluq siyasətini aid etmək olar. Onu da qeyd etmək lazımdır ki, Avropa Birliyinə üzv dövlətlərinin çoxu məşğulluq sahəsində öz suverenitetinin bir hissəsinin Avropa Birliyinə verilməsinə razılıq vermədi. Bu səbəbdən məşğulluq sahəsində siyasətə dair Aİ bu sahədə yanlız üzv dövlətlərin milli siyasətini əlaqələndirirdi. Bununla yanaşı Aİ-nın institusional islahatı prosesinin davam edilməsini də vurğulamaq olar. Belə ki, Avropa Parlamentinin səlahiyyətləri genişləndirilmiş, Şura, Komissiya və Avropa Parlamenti tərəfindən qərarların birgə qəbul edilməsi prosedurları təkmilləşdirilmişdir. Əlavə edilmiş xüsusi Protokol ilə Amsterdam müqaviləsi Şenqen sazişi (Schengen acquis) hüququnu və onun əsasında qəbul edilmiş normativ aktları Aİ-nın təsis sənədlərinə inkorporasiya etdi.

Qeyd etmək lazımdır ki, Aİ-nın genişlənməsi bu qurumum səmərəli fəaliyyət göstərməsi problemini ortaya qoydu. Belə ki, Avstriya, Finlandiya və İsveç bu quruma 1 yanvar 1995-ci ildən üzv olduqdan sonra Aİ-nın üzvlərinin ümumi sayı 15 dövlətə çatdı. Bundan əlavə, bu quruma bir sıra Mərkəzi və Şərqi Avropa ölkələrinin daxil olunması gözlənilirdi. Bununla bağlı Aİ ölkələri başçılarının 2000-ci ilin fevral ayında keçirilmiş konfransında Aİ-nın təsis sənədlərinə müvafiq dəyişikliklərin edilməsi zərurəti haqqında razılaşma əldə edilmişdir. Belə dəyişikliklər 26 fevral 2001-ci ildə bağlanmış Nitsa sazişi ilə edildi. Bu müqavilənin əsas məqsədlərindən biri Aİ-nın institusional orqanlarının yeni ittifaqda fəaliyyət göstərməsinə hazır olması prosesini yekunlaşdırmaq idi. O cümlədən Aİ-nın institusional orqanlarının səlahiyyətləri genişləndirilmişdir. Məsələn, Şura tərəfindən müəyyənləşdirilmiş çoxluq əsasında həll edilən məsələlərin sayı artmışdır (bundan əvvəl yekdillik prinsipi qüvvədə idi). Bu dəyişikliyin edilməsi məqsədəmüvafiq idi. Çünki Aİ-na gözlənilən üzv dövlətlərin kəskin artmasından sonra hər bir dövlətin veto hüququna malik olması Aİ-nın fəaliyyət göstərməsini mürəkkəbləşdirə bilərdi. Bundan əlavə Avropa Parlamentinin səlahiyyətləri və tərkibi genişləndirilmiş, Avropa Komissiyasının rolu isə gücləndirilmişdir. Aİ-nın məhkəmə sistemi də dəyişdirilmişdir. Belə ki, 2001-ci ildə Məhkəmənin statusu haqqında Protokol qəbul olunmuşdur. Bu sənəddə həm Məhkəmə üzvlərinin və həmdə Avropa Birliyinin birinci instansiya Tribunalının statusu, və bununla yanaşı bu orqanların daxili strukturu və iş proseduru müəyyən edilmişdir. [7]

Aİ çərçivəsində inteqrasiya proseslərinin sonrakı inkişafı bu quruma Çexiyanın, Macarıstanın, Polşanın, Slovakiyanın Sloveniyanın, Estoniyanın, Latviyanın, Litvanın, Kiprin və Maltanın qoşulması ilə bağlıdır. Üzv ölkələrin çoxalması inteqrasiya proseslərinin dərinləşdirilməsinə yönəlmiş tədbirləri mürəkkəbləşdirirdi və Aİ-nın institusional mexanizminin fəaliyyətini çətinləşdirirdi.

Bütün bu amillər Aİ-nın fəaliyyətinin tənzimlənməsinə dair konstitusiya xarakterli vahid bir sənədin yazırlanmasını tələb edirdi. Nəticədə 29 noyabr 2004-cü ildə Romada "Avropa üçün Konstitusiyanı müəyyən edən Saziş" imzalanmışdır. Lakin bu sənəd bir sıra səbəbdən Fransada və Hollandiyada qəbul olunmadı. Bu səbəblərin arasında Fransa və Hollandiya vətəndaşlarının Aİ-nın Şərqə doğru genişlənməsinin istəməməsini, cinayətkarlığın və işsizliyin artmasından ehtiyatlanmasını və s. göstərmək olar. Postdam Universitetinin professoru E.Klayn qeyd edir ki, Aİ Konstitusiya müqaviləsi Aİ-nın siyasi istiqaməti məsələsi kimi məsələlərə inandırıcı cavablar vermirdi. Onun fikrincə təcili tərtib edilməsi və dəqiqləşdirilməsini tələb edən konsepsiyalar etatizmin ("Avropa federativ dövləti" tipli) köhnə nümunələrinə istiqamət götürməməlidir. Çünki bu halda üzv dövlətlərin federasiya quruluşlu zəifləmiş Avropa dövləti ilə əvəzlənməsi yanlız ali səviyyədə milli-dövləti problemlərin təkrar yaranmasına gətirəcək. [6, s. 491-492] Bütün bunlara görə Aİ-nın vahid bir dövlətə tədricən çevrilməsi qorxusunu yaradan müddəalardan imtina etmək, həm Aİ orqanlarının institusional sistemini, həmçinin onların prinsiplərini və iş qaydasını ciddi şəkildə sadələşdirmək və, bununla yanaşı, onların fəaliyyətini daha da aydın və şəffaf etmək qərarına gəlinmişdir.

Beləliklə, Aİ-nın fəaliyyət prosesinin yaxşılaşdırılması məqsədilə 19 dekabr 2007-ci ildə "Avropa İttifaqı haqqında Müqaviləni və Avropa Birliklərinin təsis edilməsi haqqında Müqaviləni dəyişdirən Lissabon Müqaviləsi" bağlanmışdır. Bu vaxta qədər isə Aİ-na 6-cı 2007-ci ildə Bolqarıstan və Rumıniyanın qəbul edildi. Lissabon müqaviləsi Aİ-nın quruluşunun ümumi prinsiplərini əks etdirir və onun əsaslarının, həmçinin onun orqanlarının institusional mexanizminin yenidən qurulmasını nəzərdə tutur. Avropa Birliyi öz fəaliyyətini dayandırır və Aİ onun varisi olur. Avropa İttifaqı haqqında Müqavilə (AİM), yəni 2007-ci il Lissabon müqaviləsi redaksiyasında Maastrixt müqaviləsi və Avropa İttifaqının fəaliyyəti haqqında Müqavilə (AİFM), yəni Lissabon müqaviləsi redaksiyasında 1957-ci il tarixli Roma müqaviləsi Aİ-nın təsisedici sənədlərinə çevrilir. Bununla yanaşı hər iki sənəd eyni hüquqi qüvvəyə malikdir və bir-birini tamamlayır. Aİ-nın bütün institutlarında

əhəmiyyətli dərəcədə dəyişikliklər baş vermişdir. Belə ki, Avropa Şurası Aİ-nın tamdəyərli institutlarının birinə çevrilmişdir. Avropa Şurasının daimi sədri vəzifəsi təsis edilmişdir. O, öz səlahiyyətləri çərçivəsində, Aİ-nı xarici siyasətdə və həmçinin ümumi xarici siyasətinin və təhlükəsizlik siyasətinin həyata keçirilməsi məsələlərində təmsil edir. Onu da xüsusi qeyd etmək lazımdır ki Aİ-nın təhlükəsizlik məsələləri çoxaspektlidir və məsələn, Aİ-nın enerji təhlükəsizliyini də əhatə edir. [bax, 4, s. 295-303] Avropa Şurasının işində həmçinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə Aİ-nın Ali nümayəndəsi iştirak edir. Əgər əvvəllər Avropa Şurasının sədri hər 6 aydan bir rotasiya qaydasında təyin edilirdisə, indi Avropa Şurası öz sədrini 2,5 il müddətinə kifayət edən səs çoxluğu ilə seçir və bu müddət yanlız bir dəfə yenilənə bilər. Əsasən Şura öz qərarlarını kifayət edən səs çoxluğu ilə qəbul edir və 1 noyabr 2014-cü ildən bu kifayət edən səs çoxluğu Şura üzvlərinin 55%-dan az olmamalıdır. Avropa Parlamenti qanunverici funksiyaların həyata keçirilməsi üzrə səlahiyyətlərə malikdir. Aİ-nın büdcəsi ilə bağlı funksiyaları isə Avropa Parlamenti Şura ilə birgə həyata keçirir. Avropa Parlamenti Avropa Komissiyasının sədrini seçmək səlahiyyətinə malik olur (əvvəllər Avropa Parlamenti yanlız üzv dövlətlər tərəfindən irəli sürülən namizədi bəyənirdi). Avropa Parlamentində 2014-cü ildə qüvvəyə minmiş yerlərin yeni bölüşdürülməsi sistemi qəbul edilmişdir. Bununla yanaşı, Avropa Parlamentində yerlər "azalan mütanasıblık" prinsipinə müvafiq olaraq bölüşdürülür: bir dövlətdən ən azı 6, ən çoxu isə 96 nəfər seçilir. Dəyişikliklər Aİ-nın əsas orqanlarından biri olan Avropa Komissiyasına da toxunmuşdur. Avropa Birlikləri Komissiyasının adı dəyişdirilərək Avropa Komissiyası (AK) olmuşdur. Bu orqan Aİ-nın ümumi maraqlarını qoruyur və bu məqsədlərin həyata keçirilməsi üçün müəyyən təşəbbüslərlə çıxış edir. Həmçinin AK Aİ-nın müqavilələrinin tətbiq edilməsi üzərində nəzarəti həyata keçirir. AK həmçinin Aİ-nın büdcəsini icra edir və Aİ-nın müvafiq proqramlarını idarə edir. Beləliklə, AK həm əlaqələndirici və icra və həmçinin idarəetmə funksiyalarını yerinə yetirir. AK ümumi xarici siyasət və təhlükəsizlik siyasəti istisna olmaqla Aİ-nı beynəlxalq arenada təmsil edir. AK-nın üzvləri bütün üzv ölkələr arasında bərabər rotasiya nəzərə alınmaqla seçilir. Bu isə həm demoqrafiya diapazonunu, və həmdə Aİ-na üzv dövlətlərin cografi regionlarını əks etdirməyə imkan verir.

Dəyişiklikər NEAB-a da toxunmuşdur. Nəzərə alınmışdır ki, NEAB bundan sonra Aİ-nın institutları tərəfindən idarə olunacaq. Onu da xüsusi vurğulamaq lazımdır ki, vahid hüquq sistemi - Aİ hüququ yaradılmışdır.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki:

1. Öz formalaşma prosesində Aİ inteqrasiyanın bütün formalarını keçdi: azad ticarət zonası (üzv dövlətlər arasında ticarət məhdudiyyətləri, gömrük rüsumları ləğv edilir); gömrük ittifaqı (xarici ticarət məhdudiyyətlərinin ləğvi il vahid gömrük tarifi müəyyən edilir və üçüncü dövlətlərə aid vahid xarici ticarət siyasəti aparılır); ümumi bazar (dövlət sərhədlərin keçməsinin "dörd azadlığını", yəni əmtəə, xidmətlər, sərmayə və işçi gücü nəzərdə tutur); iqtisadi və valyuta ittifaqı (azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazar haqqında sazişlərə ümumi iqtisadi və valyuta siyasətinin aparılması haqqında sazişlərlər əlavə olunur, və bundan əlavə bu inteqrasiya birliyinin idarə olunması üçün dövlətüstü institutlar təsis edilir); siyasi ittifaq (razılaşdırılmış xarici siyasət aparılır).

2. Aİ-da inteqrasiya proseslərinin inkişafı səmərəli regional təsərrüfat mexanizminin formalaşmasına və dövlətlərarası tənzimlənməsi və unifikasiya olunmasına məruz qalan sahələrin genişlənməsinə gətirdi.

3. İqtisadi, valyuta və siyasi ittifaq olaraq, Aİ bu günə dünyada ən inkişaf etmiş inteqrasiya qurumudur.

## ƏDƏBİYYAT


*Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2013, 506 s.*

*2. Qasımzadə R.S. Avropa İttifaqı və Azərbaycan: "Yeni Qonşuluq Siyasəti", Bakı, "Adiloğlu" nəşriyyatı, 2011, 152 s.*

*3.Yusifzadə S. Avropa İttifaqı: ümumavropa məkanına doğru // Dirçəliş, 2008, № 122-123, s. 342 - 348*

*4. Abbasova Ü. Avropa İttifaqının enerji təhlükəsizliyi: reallıqlar və perspektivlər // Xəbərlər, tarix, fəlsəfə, hüquq, № 1, Bakı, "Elm", 2011, s. 295 - 304*

*5. Горниг Г., Витвицкая О. Право Европейского союза / Г. Горниг, О. Витвицкая. СПб [и др.]: Питер, 2005, 256 с.*

*6. Международное право/ Вольфганг Граф Витцум и др. пер. с нем. М.: Инфотропик Медиа, 2011, 992 с.*

*7. Arnull A. The European Union and its Court of Justice. - 2nd ed. Oxford University Press, 2006, 699 pp.*

*8. Consolidated version of the Treaty establishing the European Atomic Energy Community // OJ, C 327, 26.10.2012, p. 1–107*

*9. McDougall W.A. Political Economy versus National Sovereignty: French Structures for German Economic Integration after Versailles // The Journal of Modern History, Vol. 51, No. 1 (Mar., 1979), pp. 4-23*

*10. Merger Treaty// OJ, L 152, 13.7.1967, p. 2–17*

*11. Treaty Establishing the European Coal and Steel Community, 18 April 1951 // 261 U.N.T.S. 140.*

*12. Treaty on European Union (Treaty on Maastricht) // OJ, C 191 of 29.7.1992, p.1*



**Açar sözlər:** *Avropa İttifaqı, inteqrasiya, mərhələ, birlik, ümumi bazar, iqtisadiyyat*

**Ключевые слова:** *ЕС, интеграция, этапы, союз, общий рынок, экономика*

**Keywords:** *EU, integration, stages, union, common market, the economy*


## РЕЗЮМЕ


В данной статье рассмотрены основные этапы формирования и развития интеграционных процессов в Европейском Союзе. Автор исследует различные формы интеграции в ЕС: зона свободной торговли; таможенный союз; экономический и валютный союз; общий рынок товаров и услуг; политический союз.


## SUMMARY


This article examines the basic stages of formation and development of integration processes in the European Union. The author explores the various forms of EU integration: a free trade zone; customs union; economic and monetary union; a common market for goods and services; political union.

# Мультикультурализм

## ИСТОРИЧЕСКИЕ КОРНИ МУЛЬТИКУЛЬТУРАЛЬНОГО ОБЩЕСТВА В АЗЕРБАЙДЖАНЕ

АЗИЗА АГАЕВА
Азербайджанский Государственный Университет Нефти и Промышленности



История Азербайджана исчисляется многими тысячелетиями. О сложных этнических процессах, протекающих на ее территории, а также сведению многовековой материальной и духовной культуре азербайджанского народа мы находим в письменных источниках античных и средневековых авторов.

Азербайджанский народ сложился в процессе слияния автохтонного населения страны, берущего свои истоки от древних племен, с мигрантами, главным образом пришлыми тюркоязычными племенами, язык которых в этом процессе взял верх. [1] Это был долгий процесс, который продолжался почти целое тысячелетие.

Сложившиеся на протяжении веков монументальные отношения между различными этническими сообществами в Азербайджане свидетельствуют о доброжелательности и толерантности этих народов. Общая трудная судьба, совместная борьба против врагов за свободу сближали народы, живущие на территории Азербайджана, независимо от их мировоззрения. Искусство создания материальных и духовных ценностей, взращивание и совершенствование их этносами, населявшими территорию Азербайджана и живущими бок о бок веками, прошли долгий путь. Таким образом, мирное сосуществование в Азербайджане различных этносов и конфессий своими корнями уходит в глубокую древность нашей истории. И очевидно, что мультикультуральный образ жизни был свойственен азербайджанскому обществу изначально и в течение всей ее истории.

Президент Азербайджана, Ильхам Алиев указывал на то, что «Традиции мультикультурализма в течение веков всегда существовали в Азербайджане, просто назывались они по-разному, но суть не менялась». [2] Мультикультуральные ценности в Азербайджане во все времена носили естественный характер.

Человек всегда стремился к развитию культурного взаимодействия, так как это заложено в самой природе человека. Вступая в диалог, культуры разных народов взаимообогащают друг друга. Это объясняется тем, что каждая культура имеет душу и является внутренним духовным содержанием народа. «Наша страна, расположенная на Великом Щелковом пути, издавна была землей, где встречались различные цивилизации и культуры». [3] Великий Шелковый путь играл важную роль в обмене достижениями в области культуры между Западом и Востоком.

Коренные изменения, в политической и экономической жизни Азербайджана, которые происходили на протяжении веков, не смогли оторвать национальную культуру от ее исторических корней и способствовали сохранению культурного наследия нашего народа. Эта культура была тесно связана с духовным миром других народов и сыграла неоценимую роль в их культурном развитии.

Процесс создания основ современного мультикультурного общества в Азербайджане, приобретение им индивидуальности и самобытности происходил с древнейших времен до начала XX века. Большое значение в формировании автохтонного народа Азербайджана имело включение в этот процесс и переселенцев (мигрантов) с

других территорий.

Природно-географические условия также оказали значительное влияние на этот процесс. Эти условия могут способствовать максимальному сохранению культуры, традиций, языка, образа жизни и т.д. раннего этноса, либо образованию новых этносов в результате появления мигрантов на определенной территории. «Наглядным примером в Азербайджане может служитьвысокогорный район Шахдага, где сохранились три малочисленные этнические группы – хиналугцы, хапутлинцы, крызцы, сохранившие свой язык и традициидо наших дней. Другим примером является территория Талыша, с ее древними лесами, надежно охранявшими талышей и их язык в течение многих тысячелетий».[4] Однако, для истории Азербайджана, где с древнейших времен происходили мощные этногенетические процессы, не характерны в целом эти примеры. Природно-географические условия Азербайджана издревле привлекали к себе внимание кочевников и мигрантов. С другой стороны, территория Азербайджана была близка к древневосточным культурам. Таким образом, потоки мигрантов не миновали территорию Азербайджана. Было совсем нелегко сохранить язык, веру, и даже физическое существование аборигенного населения в жесточайших условиях, когда территория Азербайджана неоднократно, на длительные периоды становилась ареной массовых нашествий, кровавых сражений. Все эти события имели разрушительные последствия. Противостоять этому было крайне сложно. «Территория этногенеза азербайджанских тюрков, издревле была зоной активных контактов народов, синтеза их языков и культур, что предопределило чрезвычайно противоречивый и сложный характер процесса становления азербайджанского этноса». [5]

Проблема формирования азербайджанских тюрков имеет серьезное политическое значение. Правящие режимы Ирана и советского государства, в составе которых территория Азербайджана находилась в последние столетия,в угоду своим имперским интересам фальсифицировали этот факт. Как указывает С. Алиярлы «… подавляющее большинство советских и иранских историков подходят к проблеме складывания азербайджанского этноса не с научной точки зрения, а с позиций традиционной имперской политики». [6]

Советский режим активно проводил в жизнь политику манкуртизации–«лишения народов их исторической памяти».[7] Азербайджанские тюрки испытали все это на себе в полной мере. Историк –исследователь А.Балаев указывает на «тотальную фальсификацию этнической истории азербайджанских тюрков, путем грубейших подтасовок исторических фактов».[8]

В середине XX века по прямому указанию Москвы советские историки пытались отрицать тюркское происхождение современных азербайджанцев. Объявляя азербайджанских тюрков отуреченными персами и представителями кавказских племен, советские исследователи стремились облегчить задачу их интеграции в состав советского народа. И что еще было важно –стремление оградить азербайджанских тюрков от культурно-нравственного политического влияния Турции.

То же самое старалась сделать иранская династия–Пехлеви, пришедшая к власти 1925 году. По их велению иранские историки пытались доказать, что азербайджанские тюрки по своим генетическим корням являются персами, ассимилированными в языковом отношении тюрками. Считая Азербайджан своей временно потерянной территорией, некоторые иранские политические силы фальсифицируют исторические факты, отрицают тюркское происхождение современных азербайджанцев.

Конечно, нельзя отрицать влияние иранских икавказоязычных племен на формирование азербайджанского народа, живущие веками бок о бок с ним в одном регионе. Невозможно найти среди современных народов ни одного, который бы не смешивался с другими этносами. Азербайджанские тюркине являются исключением. Но факт того, что доминирующая роль в формировании азербайджанского народа принадлежала именно тюркским племенам, является несомненным.

На территории Кавказской Албании не сложилось единого монолитного этноса, а существовали разноязычные племенные образования. Среди них были как кавказоязычные и ираноязычные, так и тюркоязычные племена. [9] Некоторые азербайджанские исследователи считают, что на ее территории уже в III тысячелетии до н.э. жили тюркоязычные племена. Но достоверно известно, что начиная с III века усиливается проникновение и массовое оседание тюрков - гуннов,булгаров, савиров,оногуров, кангаров, барсилов, хайландуров. Именно с гуннами связано начало процесса складывания азербайджанского этноса. [10]Позднее в Албанию проникли и другие тюркские племена–хазары. Все это способствовало возрастанию роли тюркского населения в истории и культуре Азербайджана. С массовым же притоком огузских племен в этот регион в XI-XIIвв. тюркизация этнического состава населения вступила в заключительную стадию.

Завоевание Азербайджана арабами в VII-VIII веках сопровождалось распространением ислама. Это явилось поворотным пунктом в истории азербайджанских этносов. Исламизация населения нашей страны и его нахождение в рамках единого государства, Арабского Халифата, способствовали его духовно-культурному и интеллектуальному подъему(IX-XIIв.в.).«Азербайджан был охвачен процессом духовного обновления».[11]

Говоря об исторических корнях современного мультикультурального общества в Азербайджане, следует затронуть и период установления российского господства на нашей земле, и ее этнокультурные и демографические последствия для нашего народа. Вызывает сожаление тот факт, что колониальная экспансия Азербайджана со стороны Россиив начале XIX века, принесла немало страданий азербайджанскому



народу, прервала процессы политического объединения страны (ханств) и этнической консолидации. С 1828-1830г.г. на территории Южного Кавказа, в том числе и в Азербайджан, было переселено более 200 тысяч армян. К началу XX века на территории Северного Азербайджана было уже 1 млн. 300 тысяч армян. Также на территории Азербайджанапоявились первые немецкие и русские переселенцы.

В результате индустриализации Азербайджана в конце XIX - в начале XX века из других областей Российской Империи приехали много рабочих разных национальностей - русские, грузины, поляки, украинцы и др. Таким образом, и буржуазия, и пролетариат Азербайджана с самого начала формировались как многонациональные.

Сегодня представители этих наций живут в Азербайджане, являясь частью многонационального азербайджанского народа, исповедуют свою веру, не боясь никаких преследований.

Современный Азербайджан продолжает свои исторические традиции. Азербайджан исегодня активно способствует межкультурным взаимодействиям, обладает большим потенциалом мирного сосуществования народов и религий, наработанный многими веками.Это страна с многовековыми традициями социо-культурного диалога разных народов. Мультикультуральные ценности и мультикультуральный образ жизни во все времена были свойственны азербайджанскому обществу.

### ЛИТЕРАТУРА

*1 и 4. Сумбатзаде А.С. Азербайджанцы - этногенез и формирование народа. "Элм" 1990 г.*

*2. Принципы мультикультуральной безопасности в Азербайджане Камал Абдуллаев Государственный советник Азербайджанской Республикипо межнациональным вопросам, вопросам мультикультурализма и религии.http://news.day.az/politics/591853.html*

*3. Касумова Г.К. Культурно-цивилизационные грани глобализации. "Элм" 2010г.*

*5, 8, 9, и 11. Балаев А. Азербайджанская нация: основные этапы становления на рубеже XIX-XX веков. Москва. Типография Тиражи. Ru 2012г.*

*6. Алиярлы С. История Азербайджана. С древнейших времен до 70-х г.г. XIX века. Баку 2009 г.*

*7. Губогло М.Н. Энергия памяти. О роли творческой интеллигенции в восстановлении исторической памяти. Москва 1992 г.*

*10. Насибов Ю. Этапы консолидации и формирования азербайджанского народа. Баку 1998 г.*

***Ключевые слова:*** *мультикультурализм,этнос, автохтонный, сообщество, этногенез, диалог, цивилизация, мигранты, традиция, ассимиляция*

***Açarsözlər:*** *multikulturalizm, etnos, yerli, icma, etnogenez, dialoq, sivilizasiya, miqrantlar, ənənə, assimilyasiya*

***Key words:*** *multiculturalism, ethnicity, indigenous, community, ethnogenesis, dialogue, civilization, migrants, tradition, assimilation*

### XÜLASƏ

Azərbaycan xalqı böyük karvan yollarının kəsişdiyi bir ərazidə formalaşmışdır. Buna əlavə olaraq, o, coğrafi və mədəni baxımdan bu millətin formalaşmasında güclü təsiri olan Qədim Şərqə yaxın idi.

Asiya və Avropanın kəsişməsində yerləşdiyinə görə ölkəmiz hələ qədim zamanlardan köç yollarının mərkəzində idi. Azərbaycanın zəngin təbii sərvətləri və strateji baxımdan vacib mövqeyi çoxsaylı işğal cəhdlərinə səbəb olurdu. Belə proseslərə müqavimət göstərmək çox çətin idi. Amma buna baxmayaraq millət əsrlərlə yaşı olan ənənələrini və mədəni irsini qoruyub saxlaya bilmişdir.

Mədəniyyətimizin qorunub saxlanmasında türk tayfalarının rolu əsasdır. Belə tayfalara Azərbaycan ərazisində yad kimi baxmırdılar və artıq orta əsrlərdə türk dili ölkənin bütün əhalisinin ortaq dilinə çevrilmişdi (o cümlədən əhalinin türk dilli olmayan hissəsinin). Bu, türkdilli xalqların böyük axını nəticəsində baş verirdi.

Beləcə bizim milli kimliyimiz Azərbaycan ərazisində müxtəlif etnik qrupların, o cümlədən böyük sayda köçərilərin konsolidasiyası və birləşməsi nəticəsində meydana gəlmişdir.

### SUMMARY

Azerbaijani nation was formed on the territory known as the intersection of big caravan tracks. In addition to this, it was geographically and culturally close to Ancient East, which had it's strong influence on shaping the nation.

Due to it's location at the crossroads between Asia and Europe, our country was in the center of migration routes since ancient times. Numerous invasion attempts were entailed by Azerbaijan's rich natural resources and important strategic location. It was difficult to counter these circumstances and yet, the nation has succeeded in preserving it's centuries-old traditions and cultural heritage.

Turkic tribes have played a key role in helping us to preserve our culture. Those tribes were not seen as strangers on the territory of Azerbaijan and already in the Middle Ages, Turkic language became a common tongue for the entire population of the country (even a non-Turkic speaking fraction of the population). This was enabled by a large influx of Turkic tribes.

# Hərb

## NATO-NUN SÜLHMƏRAMLI ƏMƏLİYYATLARINDA AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN VƏ HƏRBİ BİRLƏŞMƏLƏRİNİN ROLU

HƏMİDƏ ƏHMƏDOVA
Bakı Dövlət Universiteti

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin dünyanın müxtəlif yerlərində sülhməramlı əməliyyatlarda iştirak etməsi ölkəmizin beynəlxalq əhəmiyyətinin yüksəlməsinə səbəb olmuşdur. Məsələnin önəmli tərəflərindən biri də odur ki, beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak etməklə Azərbaycan ordusu özünün döyüş qabiliyyətini və kadr hazırlığını da gücləndirmişdir. Sülhməramlı əməliyyatlar mahiyyətcə çoxfunksiyalı və mürəkkəbdir. Onların uğuru, digər amillərlə yanaşı, töhfə verən dövlətlərin əməliyyatların planlaşdırılması və aparılmasının bütün mərhələlərində komanda və nəzarət vasitələrinə cəlb edilməsindən asılıdır. Bu baxımdan xüsusilə onu qeyd etmək lazımdır ki, Azərbaycan ordusu bu cür əməliyyatlara cəlb edilmədən öncə də müharibəyə və döyüş şəraitinə adaptasiya edilmiş bir vəziyyətdə idi. Azərbaycan ordusu digər NATO üzvü olan ölkələrin orduları ilə müqayisədə hərbi situasiyanın real olaraq içində idi. NATO əməliyyatlarına cəlb edilmiş olan zabit və gizirlərin bir çoxu Qarabağ döyüşlərində real vərdişlər kəsb etmiş, müharibənin nə olduğunu tam olaraq öz üzərilərində anlamışdılar. Eyni zamanda, onlar müharibə şəraitində relyef və landşaftdan praktiki olaraq istifadə edilməsini bilirdilər. Bir sözlə, Azərbaycan ordusunun təcrübəsi NATO üçün az əhəmiyyətli deyildi.

Həmçinin, dövlətimizin də NATO çərçivəsində sülhməramlı əməliyyatlarda xüsusi əhəmiyyət verdiyi məsələlərdən biri Azərbaycan ordusunun ən qabaqcıl kadrlarının fəaliyyətə cəlb edilməsi idi. Belə ki, bununla Azərbaycan dövlətinin təbliği, eləcə də qarşısına qoyulmuş vəzifələri icra etməsi mümkün olacaqdı. Məsələnin bu tərəfini diqqətə alan E.Nəsirov sülhməramlı tabur haqqında yazır: "Onun şəxsi heyətinin seçilməsinə xüsusi diqqət göstərilir. Əsasən, hündürboylu, sağlam, fiziki cəhətdən hazırlıqlı, təhsilli, yüksək intellektual səviyyəsi olan, xarici dil bilən əsgər və zabitlər bu taburda xidmət edirlər." (9, s.350)

Azərbaycan Respublikası tərəfindən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilən hərbi heyətin tərkibinə ayrı-ayrı hərbi qulluqçular, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, hüquq mühafizə orqanlarının və fövqəladə halların nəticələrinin aradan qaldırılması üzrə orqanların, habelə digər dövlət orqanlarının hərbi və hərbiləşdirilmiş birləşmələri (müvafiq silahlara və texnikaya, yardım və təminat vasitələrinə malik olan hissə və bölmələr) daxil edilmişdilər. Bu isə o demək idi ki, Azərbaycan Respublikası NATO-nun sülhün bərqərar edilməsi əməliyyatlarında özünün bütün potensialı ilə iştirak etmək fikrində idi. Eyni zamanda, Azərbaycan ordusu və silahlı birləşmələri də burada önəmli təcrübə toplayırdılar. Azərbaycan Respublikası tərəfindən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilən mülki heyətin tərkibinə diplomatik statusa malik olan və ya malik olmayan mülki şəxslər, o cümlədən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının ayrı-ayrı nümayəndələri, nümayəndə qrupları və ya bölmələri daxil edilməklə ölkənin Qərb standartlarına keçidinin təmin edilməsi üçün addımlar atılırdı. Azərbaycan Respublikasının hərbi bölmələri NATO-nun sülhü dəstəkləmə əməliyyatlarında iştirak etmiş və müəyyən səviyyədə beynəlxalq təcrübə əldə etmişlər. Azərbaycan NATO-nun rəhbərliyi altında aparılan sülhməramlı əməliyyatlara qoşulmuş, Avro-Atlantik təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini vermişdir.

Azərbaycanın silahlı qüvvələri 1999-cu ildən 2008-ci ilədək Kosovoda, 2002-ci ildən Əfqanıstanda, eləcə də 2003-cü ildən İraqda həyata keçirilən sülhməramlı əməliyyatları dəstəkləyir. Azərbaycan Respublikası NATO-nun terrorizmə qarşı apardığı mübarizədə öncül yeri tutur və tərəfdaş ölkələr arasında bu sahədə öz fəallığı ilə seçilir. Lakin NATO ilə Azərbaycanın əməkdaşlığı təkcə hərbi sahə ilə məhdudlaşmır. Elm, ekoloji və humanitar sahələrdə əməkdaşlıq da ölkəmizin NATO ilə sıx işləməsinə səbəb olmuşdur.

Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası bəyan edir ki, "NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək" Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur. (3, s.15) Azərbaycan Respublikası ordusu Kosovo əməliyyatından başlayaraq NATO şəmsiyyəsi altında əsas etibarilə qardaş ölkə olan Türkiyə ilə birgə hərəkət etmişdir. Bu isə öz növbəsində Azərbaycan-Türkiyə yaxınlaşmasına kömək edən amillərdən biri olmuşdur. Azərbaycan Respublikası NATO-da ən güclü ordulardan birinə sahib olan Türkiyə ilə həm NATO çərçivəsində, həm də ikitərəfli hərbi əlaqələri inkişaf etdirir. NATO ilə əlaqələrə əhəmiyyət Türkiyə üçün də əhəmiyyətli xarici siyasət və təhlükəsizlik siyasəti meyarıdır. Türkiyə Orta Asiya və Qafqaz dövlətlərinin Avro-Atlantik Əməkdaşlıq Şurası və "Sülh naminə tərəfdaşlıq" proqramında yer almalarını dəstəklənir. 1997-ci il yanvar ayında Azərbaycan Silahlı Qüvvələri tərkibində sülhməramlı birliyi yaradılmışdır. 20 oktyabr

1999-cu ildə Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Kosovo Türk Taburu qüvvələri tərkibində Kosovoya gedəcək Azərbaycan birliyinin statusuna dair Sazişin Azərbaycan Parlamentində razılaşdırılmasından sonra Azərbaycan sülhməramlı birliyinin bir qrup hərbçisi bu istiqamətdəki vəzifələrinin icrasına başlamışdır. NATO-nun baş katibi Lord Corc Robertson Azərbaycan Müdafiə naziri ilə görüşü zamanı Azərbaycan sülhməramlı birliyinin roluna görə təşəkkür etmiş, "Kosovodakı 40 mindən çox sülhməramlı hərbçi içərisində Azərbaycan birliyinin xüsusi bir mövqeyinin olduğunu" vurğulamışdır. (10, s.6)

1999-cu ilin sentyabrından 2008-ci ilin mart ayınadək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı taqımı 34 nəfər şəxsi heyətlə (32 əsgər, 1 gizir və 1 zabit) Kosovoda sülhün yaradılması və dəstəklənməsi üzrə (KFOR) əməliyyatlarda iştirak etmişdir. Azərbaycan taqımı Türkiyə taburunun 4-cü mexanikləşdirilmiş piyada bölüyünün (qərargahı: Draqaş) tərkibində Draqaş şəhərində xidmət aparırdı və taqımın bilavasitə cavabdeh olduğu və növbə apardığı Brod yaşayış məntəqəsi idi. Bu müddət ərzində Kosovoda 362 nəfər hərbi qulluqçu iştirak etmişdir. (345 nəfər əsgər, 7 nəfər gizir, 10 nəfər zabit). 2008-ci ilin aprel ayında Kosovonun müstəqilliyinin təktərəfli elan olunması ilə əlaqədar taqım tam heyətlə Kosovo bölgəsindən geri çağırılmışdır. (4)

Azərbaycan Respublikasının Milli Məclisinin qərarı dövlətin xarici siyasət maraqlarından qaynaqlanır. Kosovo regionunda siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 16-cı bəndinə uyğun olaraq qərara alır: I. Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında keçmiş Yuqoslaviyanın Kosovo regionunda yerləşdirilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin taqımı geri çağırılsın. II. "Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Yuqoslaviyanın Kosovo regionunda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1999-cu il 2 iyul tarixli, 697-IQR nömrəli Qərarı qüvvədən düşmüş hesab edilsin. III. Bu Qərar qəbul edildiyi gündən qüvvəyə minir." (6)

Azərbaycan Resublikası Prezidenti ilə görüşü zamanı NATO baş katibi Corc Robertson növbəti dəfə özünün təşəkkürünü ifadə etmişdir: "Cənab Prezident, sağ olun. Mən sadəcə olaraq, bir məqamı şərh etmək istərdim. Bir halda ki, biz burada camaat qarşısında görüşürük, mən Kosovoda vəziyyətin sabitləşdirilməsi proseslərində iştirak edən sülhməramlı qüvvələrinizə görə Sizə, hökumətinizə, xalqınıza təşəkkürümü bildirmək istərdim. Bu, yaqin dünyanın indiyədək gördüyü ən böyük sülhyaratma əməliyyatıdır. Əlbəttə, bu qoşunlara nəinki NATO ölkələrinin, habelə Rusiyanın, NATO üzvü olmayan dövlətlərin, o cümlədən də Azərbaycanın hərbi qulluqçuları daxildirlər. Bu yardıma görə Sizə çox minnətdarıq." (7)

1999-cu ilin martında Kosovo böhranını özünün uyğun bildiyi şəkildə həll edən NATO, özünü Serbiyanın müttəfiqi adlandıran Rusiyanın bu məsələyə müdaxiləsinə imkan vermirdi. Bu hadisə NATO-nun sülhün qorunması və beynəlxalq təhlükəsizliyin təmin edilməsi üçün real güc olduğunu göstərdi. Hər iki reallıq Azərbaycan Respublikasının maraqlarına uyğun idi. Azərbaycan həm Rusiyanın beynəlxalq təsir imkanlarının azalmasında, eyni zamanda, tərəfdaşı olduğu NATO-nun gücləndirilməsində də maraqlı idi. Ümumiyyətlə, Azərbaycanın NATO ilə əməkdaşlıqda son məqsədi bütün Avro-Atlantika zonasında sülhün və sabitliyin möhkəmləndirilməsinə öz töhfəsini vermək və bilavasitə təşkilatın fəal iştirakı ilə yaradılacaq hər hansı bir təhlükəsizlik sistemində özünə yer tapmaqdan ibarətdir. Azərbaycan-NATO münasibətlərinin inkişaf səviyyəsi, eləcə də müxtəlif proqramlar çərçivəsində əməkdaşlığın mövcud durumu yüksək qiymətləndirilir. Azərbaycan hərbçilərinin beynəlxalq sülhməramlı qüvvələr tərkibində iştirakı ordumuzun NATO standartlarına uyğun olaraq formalaşdırılması, zəruri təcrübənin qazanılması və respublikamızın beynəlxalq nüfuzunun artması baxımından mühüm əhəmiyyət daşımışdır.

Sülhməramlı fəaliyyətlərdə aktiv fəaliyyətin nəticəsi olaraq sülhməramlı bölmələr də daxil olmaqla, hər iki tərəfin hərbi qüvvələri arasında əlaqələndirmənin, hərbi-dəniz qüvvələrimizin imkanlarının genişləndirilməsi, Azərbaycanın təyyarə meydanlarının və hava məkanının idarə olunmasına nəzarət sistemlərinin NATO standartlarına uyğunlaşdırılması barədə bir çox razılıq əldə edilmişdir. Sülhməramlı fəaliyyətlərdə iştirakının keyfiyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası öz Silahlı Qüvvələrini NATO standartlarına uyğunlaşdırmağa səy göstərir və bu sahədə artıq müəyyən işlər görülmüşdür. Azərbaycanın Ali Hərbi-Tədris Müəssisələrində kursantların təlimi tam şəkildə NATO standartlarına uyğun keçirilmişdir. Azərbaycan Respublikasında da NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində onlarca kurslar, konfranslar, məşğələlər, seminarlar, təlimlər və digər tədbirlər keçirilmişdir. Bunlardan ən əhəmiyyətlisi, məlum olduğu kimi, 2001-ci ilin noyabrında "Kooperativ Determineyşn-01" çoxmillətli sülhməramlı komanda-qərargah təlimlərini göstərmək olar. (11) Bu təlimlərdə 9 NATO üzvü və 9 tərəfdaş dövlətlərdən 379 nəfər nümayəndə və beynəlxalq təşkilatlar iştirak etmişlər. 2004-cü ilin payızında isə Azərbaycan Respublikasında NATO üzvü və tərəfdaş dövlətlərin sülhməramlı qüvvələrinin iştirakı ilə "Kooperativ Best Effort-04" səhra təlimlərinin keçirilməsi həyata keçirilmişdir. Azərbaycan Respublikasının "Sülh naminə tərəfdaşlıq" proqramında səmərəli, faydalı və məqsədyönlü əməkdaşlığının nəticəsi və bəhrəsi kimi Silahlı Qüvvələrimizin sülhməramlı bölmələri dünyanın müxtəlif bölgələrində sülhməramlı əməliyyatlarda iştirak edir. Ordunun möhkəmlənməsi, NATO-ya tərəf əməli addımlar respublikada müstəqilliyin dönməzliyinə şərait yaradırdı. Azərbaycanın NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həyata keçirilən tədbirlərin, Türkiyə Respublikası hərbçilərinin köməyi böyük idi.

Azərbaycan Respublikasının NATO ilə birgə iştirak etdiyi fəaliyyətinin bir qismi də Əfqanıstanda təhlükəsizliyin dəstəklənməsi ilə bağlı olmuşdur. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda

Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin Türk taburunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan tağımına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə sazişi Azərbaycan Respublikası Prezidenti Ümummilli Lider Heydər Əliyev 2002-ci il noyabrın 11-də imzalamışdır. Burada yazılır: "1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı tağımının Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin (İSAF) türk taburunun tərkibində iştirak etməsi məqsədilə "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin Türk taburunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan tağımına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əməliyyat və Döyüş Hazırlığı İdarəsinin rəisi - Baş Qərargah rəisinin birinci müavini, general-mayor Eyvaz Məmməd oğlu Cəfərova verilsin. 2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əməliyyat və Döyüş Hazırlığı İdarəsinin rəisi - Baş Qərargah rəisinin birinci müavini, general-mayor Eyvaz Məmməd oğlu Cəfərova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin." (2)

Azərbaycan Respublikası Silahlı Qüvvələri iki taqımlarının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Milli Məclisin qərarı ilə 2002-ci il noyabrın 15-də qəbul edilmişdir. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxaraq, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 16-cı bəndinə uyğun olaraq qərara almışdır ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri dörd taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilsin. (5) Prosesin hüquqi bazisinin gücləndirilməsi istiqamətində işlərin aparılması daha sonra da davam etmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bununla bağlı olaraq qanun imzalamışdır. Azərbaycan Silahlı Qüvvələrinin 22 nəfərlik sülhməramlı tağımı 2002-ci il noyabr ayının 20-dən Əfqanıstanda İSAF tərkibində fəaliyyət göstərməyə başlamışdır. Daha sonra, 2008-ci il yanvarın 15-də onların sayı artırılaraq bölük səviyyəsinə çatdırılmışdır. 2009-cu il oktyabrın 2-də isə Milli Məclis sülhməramlı kontingentin 2 dəfə artırılması barədə qərar qəbul etmiş və onların sayı 90 nəfərə çatdırılmışdır. 2010-cu il oktyabrın 5-də isə NATO-nun Əfqanıstanda keçirdiyi İSAF üzrə əməliyyatlarında ölkəmizin Sülhməramlı Qüvvələrinin töhfəsinin artırılması məqsədilə ora əlavə olaraq 2 hərbi həkim və 2 mühəndis-istehkam ixtisası üzrə zabit göndərilmişdir. Əlavə edək ki, sülhməramlılarımız Əfqanıstandakı fəaliyyətini 2009-cu il fevral ayının 19-dan etibarən Türkiyə taburu tərkibində davam etdirir. Bölüyün şəxsi heyəti Kabil şəhərində yerləşən televiziya qülləsini, İSAF-ın mərkəzi silah-sursat anbarının təhlükəsizliyini qoruyur və patrul xidmətini həyata keçirir. (8) Azərbaycan qoşunları Alyans və digər tərəfdaşların qoşunları ilə çiyin-çiyinə Əfqanıstanda İSAF əməliyyatında xidmət edir. Azərbaycanlı zabitlər öz xidmətlərində fərqlənirlər və Əfqanıstana sülh və sabitliyin bərqərar olmasına onların töhfəsi müttəfiqlər və tərəfdaşlar tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın İSAF-a töhfəsi hər şeydən öncə Azərbaycanın Avro-Atlantika məkanında təhlükəsizlik və sabitliyin əldə edilməsi sahəsində daha böyük məsuliyyəti öz üzərinə götürmək əzmindən xəbər verir. Dövlətimiz Əfqanıstanda bərpa işlərində iştirak üçün İSAF-a qoşulmaqla Avro-Atlantika təhlükəsizliyinə əhəmiyyətli töhfəsini vermişdir. Bu əməliyyatlarda qazanılan təcrübə bizim üçün mühüm əhəmiyyət kəsb edir. Əfqanıstanda NATO-nun başçılığı altında aparılan sülhməramlı və İraqdakı çoxmillətli əməliyyatlarda sülhməramlı qüvvələrlə iştirak etməklə, Azərbaycan siyasi şəraitə, müyəssər ehtiyat və imkanlara müvafiq olaraq beynəlxalq təhlükəsizliyə əhəmiyyətli töhfələr vermişdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sülhməramlı bölüyü 15 avqust 2003-cü ildən 7 dekabr 2008-ci il tarixinədək 151 nəfər şəxsi heyətlə (120 nəfər əsgər, 16 nəfər gizir, 15 nəfər zabit) İraqda Beynəlxalq Koalisiya Qüvvələri tərkibində fəaliyyət göstərmişdir. İraqın Əl-Hədītə şəhəri yaxınlığında ABŞ Dəniz Piyadaları Komandanlığı tərkibində su anbarının və su elektrik stansiyasının mühafizəsini həyata keçirmişdir. Koalisiya Qüvvələrinin İraqdan çıxması ilə əlaqədar 2008-ci il dekabrın 7-də bölük tam heyətlə İraqdan geri qayıtmışdır. Azərbaycanın ölkə parlamentinin qərarı ilə missiyasını başa vuran İraqdakı sülhməramlı qüvvələri Əl-Anbar bölgəsində təşkil olunan rəsmi mərasimlə bu ölkədən ayrılmışlar. Azərbaycan sülhməramlılarının missiyasının başa çatması ilə bağlı onların xidmət keçdiyi bölgədə, Hadita su anbarı ərazisində Amerika hərbçilərinin və İraq rəsmilərinin iştirakı ilə mərasim təşkil edilmişdir. Azərbaycan sülhməramlılarının xidmət etdiyi su bəndi irimiqyaslı terror hücumlarına məruz qalmamış və indiyədək bir-birilərini əvəz edərək cəmi 1000-dən çox Azərbaycan əsgəri bu missiya çərçivəsində xidmət keçmişdir. Amerika dəniz piyadalarının "Military.com" saytı isə qeyd etmişdir ki, təqribən ABŞ-ın Cənubi Karolina ştatı böyüklükdə olan Azərbaycan ötən beş il ərzində İraqın Əl-Anbar bölgəsində həyati əhəmiyyətli obyektin mühafizəsində iştirak etmişdir. Dekabrın 3-də keçirilmiş mərasimdə deyilmişdir ki, Azərbaycan əsgərlərinin sülhü və təhlükəsizliyi təmin etmək üçün göstərdikləri mühüm fəaliyyət sona çatmış və onlar tezliklə öz evlərinə dönəcəklər. "Ola bilsin ki, amerikalıların çoxu Azərbaycanı tanımır, ancaq bu ölkənin əsgərlərinin İraqda gördükləri işlər dünyada xüsusi hörmətə layiqdir. Azərbaycanlı əsgərlər həyati əhəmiyyətli Hadita su bəndinin mühafizəsində iştirak etmişlər. Bu stansiya İraqın elektrik enerjisinə olan ehtiyacının 25 %-ini təmin edir", deyə mərasimdə çıxışı zamanı Amerika dəniz piyada qüvvələrinin polkovniki Patrik Malay bildirmişdir. Polkovnik həmçinin demişdir ki, azərbaycanlı əsgərlər ilk dəfə İraqa 2003-cü ilin avqustunda gəlmiş, o vaxtdan bu yana onlar

hər hansı irimiqyaslı terror hücumu ilə üzləşməmişlər. Azərbaycan əsgərləri su bəndinin xarici mühafizə postlarında mövqe tutmuş və hər gün elektrik stansiyasında işləməyə gələn 630-dan çox adamı yoxlamışlar. Həmçinin onlar Fərat çayının və Qadisiyah gölünün sularına nəzarət edərək yaraqlıların mümkün hücumları ilə bağlı təhlükəsizlik tədbirləri görmüşlər. Amerikanın İraqdakı qüvvələrinin komandanlığının nümayəndəsi, general-mayor Maykl Ferrit Azərbaycan sülhməramlılarını mükafatlandırmışdır: "Bu, İraq və Azərbaycan üçün tarixi gündür. Eyni zamanda biz koalisiya üzrə tərəfdaşlarımızla vidalaşdığımıza görə məyusuq"-deyə general bildirmişdir. Mərasimin sonunda sülhməramlılar Azərbaycan bayrağının ətrafında toplaşmışlar. Amerika ordusunun generalı Con Kelli isə söyləmişdir ki, koalisiya qüvvələri artıq terrorçulara qarşı müharibənin ön cəbhəsində deyil: "Biz fəxrlə deyə bilərik ki, geri çəkilirik. Çünki İraq təhlükəsizlik qüvvələri artıq güclüdür". Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İraqda NATO əməliyyatlarında iştirakı iki ölkə arasında əlaqələrə də müsbət təsirini göstərmişdir. Son illər əlaqələrin səviyyəsi bir çox iraqlı məsul şəxsin Azərbaycana səfərləri, İraqda müqəddəs yerləri ziyarət edən azərbaycanlı zəvvarların sayının artması ilə tədricən inkişaf etmişdir. Bu əlaqələrin inkişafına 2010-cu il noyabrın 10-da iki ölkə arasında "Elmi, texniki, iqtisadi və ticari əməkdaşlığa dair Saziş" in imzalanması yeni təkan vermişdir. (1) İraqdakı beynəlxalq koalisiya əməliyyatlarına qatılması üçün Azərbaycan qüvvələrinin hazırlığında PAP olduqca məhsuldar olmuşdur.

Azərbaycan NATO ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu konkret praktiki tədbirləri ilə təsdiq edir. Kosovo və Əfqanıstanda beynəlxalq sülhməramlı qüvvələr tərkibində öz missiyasını uğurla yerinə yetirən Azərbaycan 2003-cü ilin mayında beynəlxalq koalisiya qüvvələrinin tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak haqqında qərar qəbul etdi. Bununla da erməni terrorizmindən ziyan çəkmiş Azərbaycan Respublikası beynəlxalq terrorizmə qarşı mübarizədə dünya dövlətlərinin ön sırasında olduğunu nümayiş etdirdi. Beləliklə, göründüyü kimi Azərbaycan təkcə Avropa İttifaqının enerji təminatı və təhlükəsizliyi baxımından və "Qonşuluq siyasəti"nin əsas fiqurantlarından biri kimi deyil, həm də dünyanın müxtəlif bölgələrində - Əfqanıstanda, İraqda, Balkanlarda və s. həyata keçirdiyi sülhyaratma proseslərində birbaşa iştirakı, NATO-nun qeyri-hərbi ehtiyatlarla təchizatı, təhlükəsiz hava dəhlizinin təqdim olunması və s. fəaliyyəti ilə də Qərbin etibarlı tərəfdaşı hesab olunur.

## ƏDƏBİYYAT


*1. Azərbaycan-İraq əlaqələri: dünəni, bu günü, gələcəyi. http://newtimes.az/az/diplomatik*

*2. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin Türk taburunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan tağımına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə saziş. 13 noyabr 2002-ci il, № 1086*

*3. Azərbaycan Respublikasının Milli Təhlükəsilik Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 2198 saylı Fərmanı ilə 23 may 2007-ci ildə təsdiq edilmişdir.*

*4. Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı. http://www.mod.gov.az/*

*5. Azərbaycan Respublikası Silahlı Qüvvələri iki taqımlarının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Milli Məclisin qərarı 15 noyabr 2002-ci il № 378-IIQR*

*6. Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının keçmiş Yuqoslaviyanın Kosovo regionundan geri çağırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. 4 mart 2008-ci il, № 553-IIIQR*

*7. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nun baş katibi Lord Corc Robertsonu və onu müşayiət edən şəxsləri qəbul edərkən söhbətindən Prezident sarayı, 16 yanvar 2001-ci il*

*8. Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edən Azərbaycan hərbçilərinin sayı açıqlanıb. http://az.trend.az/azerbaijan/politics/2256130.html*

*9. Nəsirov E.X. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı: Elm və təhsil, 2010.*

*10. Askerzade A. NATO Çerçevesinde Azerbaycan-Türkiye Askerî İşbirliği ve Bölgesel Güvenlik Sorunları, Karadeniz Araştırmaları, Sayı, 20, 2009, s.1-17*

*11. Cooperative Determination. http://www.globalsecurity.org/military*



**Açar sözlər:** *NATO, sülhməramlı əməliyyatlar, hərbi birliklər, təhlükəsizlik, Müdafiə Nazirliyi*

**Ключевые слова:** *НАТО, миротворческие операции, воинские части, безопасность, Министерство Обороны*

**Keywords:** *NATO, peacekeeping operations, military units, security, Ministry of Defence*


## РЕЗЮМЕ


В статье исследованы миротворческие операции составляющие основную деятельность НАТО. Здесь говорится о вкладах Азербайджана в целях поддержания мира и стабильности в евро-атлантической зоне. Вооруженные силы и воинские части Азербайджана под руководством НАТО присоединились к операциям по поддержанию мира в Косово, Афганистане, и Ираке и принимали непосредственное участие в защите европейской и евро-атлантической безопасности. В статье проанализированы эти процессы и в итоге определены результаты.


## SUMMARY


The peacekeeping operations that are the basic components of NATO's activities have been investigated in the article. It deals with the contribution of Azerbaijan to maintain peace and stability in the Euro-Atlantic area. The armed forces and military units of Azerbaijan under the leadership of NATO have joined peacekeeping operations in Kosovo, Afghanistan and Iraq, and have been directly involved in the protection of Euro-Atlantic security. These processes have been analyzed, in this scientific paper, and in consequence some results have been obtained.

# Etnoqrafiya

## XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MİNGƏÇEVİR VƏ ƏTRAF BÖLGƏLƏRİ ƏHALİSİNİN ƏNƏNƏVİ KİŞİ GEYİMLƏRİ

AYGÜN QƏDİROVA
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

Mingəçevir və onun ətraf bölgələri Qarabağ və Qərb (Gəncəbasar) bölgələrinin qovuşuğunda yerləşməklə, hər iki bölgəyə məxsus maddi mədəniyyət irsindən bəhrələnmiş və burada özünəməxsus məhəlli-lokal spesifika ilə fərqlənən yeni çalarlı maddi mədəniyyət kompleksi formalaşmışdır. Belə məhəlli-lokal spesifika yaşayış məskənləri və evlər, xalq geyimləri və bəzəklər, yeməklər və içkilər, eləcə gə xalq nəqliyyatı vasitələrinin forma və tiplərində aydın izlənilir. Ənənəvi kişi geyimləri bu cəhətdən xüsusilə fərqlənir.

Forması, rəngi, parçası və üstündə olan naxışlardan asılı olaraq geyim, müəyyən dövrdə zövqün nə vəziyyətdə olmasını aydınlaşdırır. Bir sözlə, geyimlə nəinki bir adamın zövqünü, dünyagörüşünü, hətta bütün bir xalqın maddi mədəniyyətini, iqtisadiyyatını, başqa xalqlarla münasibətini müəyyən etmə olar. Geyimin tarixi tamamilə xalqın siyasi-iqtisadi-mədəni tarixi ilə əlaqədardır. (15, səh. 35). Geyim mədəniyyətinin formalaşmasında təbii-coğrafi şəraitin, xüsusilə də iqlimin, xalqın etik normalara əməl etməsinin və insanların zaman-zaman inkişaf edən estetik zövqlərinin təmin edilməsi zərurətinin də həlledici rolu olmuşdur.

Bütün tarixi-etnoqrafik bölgələr üzrə, eləcə də Mingəçevir və onun ətraf bölgələri üzrə Azərbaycanın milli xalq geyimlərini qadın geyimləri, kişi geyimləri və uşaq geyimləri olmaqla üç dəstə ayırmaq olar. XIX əsr xalq geyimlərini həm mərasim geyimləri (toy, yas, bayram, qonaqlıq, gündəlik), əhalinin müxtəlif sosial qruplarının peşə mənsubiyyəti ilə əlaqədar geyimlər, mövsümi səciyyəli geyimlər, dini zümrələrə məxsus geyimlər və s. kimi də fərqləndirə bilərik. (7, səh. 98)

Toplanılan etnoqrafik-çöl materialları, Mingəçevir, Yevlax, Goranboy və Xaldan şəhərlərinin muzey ekspozisiya və fondlarında qorunub saxlanılan maddi və mənəvi mədəniyyət nümunələri, sənət irsini əks etdirən eksponatlar, eləcə də müxtəlif peşə sahibləri olan məlumatçıların söylədikləri bölgə əhalisinin kişi geyimlərinin növlərini, geyim materiallarının hazırlanmasını, kişi baş və ayaq geyimlərinin müxtəlif çeşidlərini, geyimlərin ərsəyə gətirilməsində xalq sənətkarlarının – parça toxusularının (bəzzaz, şalbaf, şərbaf, basma naxışçı, qələmkar və s.), çəkməçi, başmaqçı, çustçu, papaqçı, həllac, kürkçü və s. maddi yaradıcılıq imkanlarının zənginliyini təsəvvür etmək və əyani şəkildə görmək üçün geniş imkanlar yaradır.

Tarixi inkişafın gedişində sosial-iqtisadi həyat şəraitinin dəyişməsi geyim növlərində əsaslı dəyişikliklərə səbəb olmuş, yeni-yeni geyim növləri meydana çıxmışdır. Neolit (Yeni daş) dövründə hörmə toxuculuğunun meydana çıxması, er.əv. II-I minilliklərdə isə dəzgah toxuculuğunun meydana gəlməsi və inkişaf etdirilməsi geyim elementlərini xeyli zənginləşdirmişdir. Mingəçevir qazıntılarından əldə edilən parça qalıqları (3, səh. 152) və toxucu dəzgahının hissələri (2, səh. 68) ilk orta əsrlərdə Azərbaycanda dəzgah toxuculuğunun daha geniş yayıldığını göstərir. Ənənəvi kişi geyimləri bütün orta əsrlər boyu yeni-yeni geyim elementləri ilə tamamlanmış, XIX-XX əsrin əvvəllərində özünün biçim üsulu, tikiş texnikası, dekorativ-bədii xüsusiyyətləri, etnosun milli varlığının ləyaqət göstəricisi kimi mükəmməl şəkildə dəstlənmişdir.

XIX-XX əsrin əvvəllərində azərbaycanlıların ənənəvi kişi geyimləri biçim üsuluna və tikiş texnikasına görə Ümumqafqaz səciyyəsi daşımaqla, yalnız çox da böyük əhəmiyyəti olmayan lokal-məhəlli xüsusiyyətləri ilə seçilirdi. Ənənəvi kişi geyimləri alt (can) və üst köynəyi, dizlik, şalvar, arxalıq, içlik (zıbınça, canlıq, cılıtqa, pambıqlı) çuxa, kürk, yapıncı, eləcə də müxtəlif formalı və adlı baş və ayaq geyimlərindən ibarət idi. Mingəçevir və ətraf bölgələrin kişi geyimləri haqqında aydın təsəvvür yaratmaq üçün onunla qonşu olan Qərb (Gəncəbasar) və Qarabağ bölgələrinin kişi geyimlərindən bəhs edən



iki yazılı məlumatı diqqətə çatdırmaq istərdik: XIX əsrin 80-ci illərində Qazax qəzası Salahlı kəndi əhalisinin kişi geyimlərindən bəhs edən B.Veniaminov yazırdı ki, onlar çit və ağdan tikilmiş köynək, onun üstündən ipək və yun arxalıq (kəmər və xəncərlə bilikdə), yun və mahud çuxa, yun başlıq və mahuddan tikilmiş şalvar, qoyun dərisindən papaq, başmaq, kürk və yapıncı geyirlər (5, səh. 107). Yelizavetpol quberniyasının Bərdə kəndinin kişi geyimlərindən bəhs edən Q.Osipov yazırdı ki, bərdəlilər çuxa, dizə qədər çatan şalvar, corab (yun və yarımipək corab) geyirlər. Son zamanlar gənc bərdəlilər evdə toxunma ləzgi şalından tikilən çərkəzi çuxaya üstünlük verirlər. Çuxanın altından pamazı, atlas, triko, lastik, məxmər və müxtəlif çit parçalardan tikilən arxalıq geyirlər. Alt paltarları bərdəli qadınların pambıqdan toxuduqları bez parçadan hazırlanır. Başlarına əksər əhali qoyun dərisindən tikilmiş papaqlar qoyurlar. Varlılar isə 4-15 manat dəyərində olan bahalı papaqlar gəzdirirlər. Qışda varlılır kürk və başlıq geyir, kəndlilər və çobanlar isə nazik keçədən yapıncı geyirlər. Bütün gənc bərdəlilər cümüş kəmər taxır, ağsaqqallar, mollalar və digər mənsəb sahibləri ağ və qara rəngli müxtəlif parçalardan qurşaq bağlayırlar (12, səh. 134). Xatırladaq ki, qadın geyimlərindən fərqli olaraq kişi geyimləri elementlərinin növlərinə görə deyil, bəzi məhəlli-lokal spesifikasına görə fərqli olmuşdur. Bu mənada, Qazax və Cavanşir qəzaları əhalisinin kişi geyimlərini XIX-XX əsrin əvvəllərində bütövlükdə bütün Azərbaycana, eləcə də Mingəçevir və ətraf bölgələrin əhalisinin geyimlərinə də şamil etmək olar. Bu fikri Yelizavetpol qəzasının Goranboy-Əhmədli kəndi əhaliəinin kişi geyimlərindən bəhs edən Həsən bəy Bağırov da təsdiq edir: "Goranlılar başlarına böyük dəri papaqlar qoyur, ətəyi uzun arxalıq və çuxa geyir, qışda isə nadir hallarda yapıncıdan istifadə edirlər. Alt paltarı təsərrüfat işləri zamanı kasıblar üçün rahat və əlverişli olan, kifayət qədər möhkəm qalın bezdən tikilirdi. Kişi ayaq geyimləri başmaq, məst (tufli) və çarıqdan ibarət idi" (4, səh. 179). Bu geyimlər gündəlik (iş paltarı) və boğçalıq (xeyir-şər paltarı) olmaqla iki dəstdən ibarət hazırlanırdı. Boğçalıq paltarlar qiymətli parçalardan tikilir, geyim elementlərinin çoxluğuna, təzəliyinə və s. görə gündəlik geyimlərdən fərqlənirdi. (6, səh. 56).

Bölgənin ənənəvi kişi geyimləri alt paltarı və üst paltarı kimi dəstlənirdi. Üst geyimləri də öz növbəsində çiyinə geyilən və belə bağlanan olmaqla iki variantda hazırlanırdı. Geyim materialları başlıca olaraq yun, pambıq, kətan və ipək parçalardan, keçədən, dəridən ibarət olur, geyim hazırlığı ilə məşğul olan sənətkarlar tərəfindən hasilə gətirilərək bölgəyə yaxın olan Gəncə, Şəki, Bərdə və Ağdam, sonralar isə Şuşa bazarlarından satınalma yolu ilə əldə edilirdi.

Kişi alt paltarı bütün Azərbaycan üçün xarakterik olan alt köynəyi və dilikdən ibarət idi. Tuniki və kəsmə (doğrama) biçim üsulu ilə hazırlanan kişi alt köynəyi düzyaxa olur, nisbətən ucuz parçalardan (bez, qalın ağ, humayun ağı, satin, mitqal və s.) hazırlanır, yan kəsikləri 10-15 sm ölçüdə açıq saxlanır (buna peş deyilirdi), qoltuğunun altına isə xiştək (qoltuqaltı) qoyulurdu. Qol ağzı nisbətən enli olan bu köynəyin yaxa kəsiyi bir ilgək-düymə ilə boğazın altında bağlanırdı. Bölgədə el adətincə toya hazırlaşan bəyin köynəyini ( həm alt, həm də üst köynəyini) onun qaynanası biçib-tikər, yaxa, qol ağzı, sinə və yan kəsiklərini müxtəlif tikmə bəzəklərlə bəzəyərdi.

Kişi alt geyiminin bir elementi də dizlik idi. Ona adətən kişi tumanı və ya istilik deyilirdi. Dizlik bədəni dizə qədər kip tutur, iki balağı bir-birinə miyança (ara ağı) ilə birləşdirilir, bel yerinə qoyulan nifədən keçirilən tumanbağı vasitəsilə belə bağlanırdı. Adətən dizik mitqalı ağdan, bezdən, çitdən tikilir, qabaq və arxa tərəflərində nifə yeri açılırdı ki, onu hər iki tərəfinə geymək mümkün olsun.

Kişi üst köynəyi düzyaxa, çəpyaxa və çiyin yaxalı köynək kimi üç variantda hazırlanırdı. Düzyaxa köynəyin yaxa kəsiyi, adından da məlum olduğu kimi, sinə üstündə düz kəsilir, bir ilgək-düymə ilə bağlanırdı. Çəpyaxa köynəkdə yaxa kəsiyi boğazın altından sola doğru yanakı biçilir, o da bir ilgək-düymə ilə bağlanırdı. Çiyin yaxalı köynəkdə isə yaxa kəsiyi boyun kəsiyinin davamı kimi çiyin üstündən qol yerinə kimi biçilir, yaxa yeri qaytanla bağlanırdı. Çiyin yaxalı köynək Azərbaycanın Gəncəbasar və Qərb bölgələrində də geniş yayılmışdı və adətən mindoylu köynək adı ilə məlum idi. (6, səh. 60-61). Köhnə Mingəçevir kənd sakiləri Əliyev Allahverdi Zülfüqar oğlu və Nəbiyev Adil İnayət oğlunun təsdiq etdiklərinə görə Mingəçevirdə boğazı düyməli köynəklər kişi geyimlərinin ayrılmaz tərkib hissəsi olmuşdur. Köynəklər, bir qayda olaraq şilə, qədək, fay, qanovuz, məxmər, atlas və s. parçalardan tikilər, boyunduruqsuz olar, cib qapaqlarının, yaxa və qol kəsiklərinin ağızlarına baftadan naxışlar salınardı. Köynəyin qolları ya düyməli ya da açıq şəkildə saxlanılardı. Parça materialından (qalın və zərif-nazik parça) asılı olaraq köynəyin ətəyi ya şalvarın içərisinə yığılır, ya da şalvarın üstündən salınaraq qayışla beldə yığılırdı. Varlıların köynəkləri boyunduruqlu olardı, hətta yaxa, ətək, yan kəsikləri də bəzədilərdi.

Beldə saxlanan kişi üst geyimlərindən biri də şalvar idi. Bölgədə musurmanı şalvar, varlıların və ziyalıların geydiyi qabağı yarıq urusu şalvar və qalifeyi şalvar istifadədə olmuşdur. Etnoqrafik ədəbiyyatda bütün Azərbaycan üçün xarakterik olan nifəli və ya musurmanı şalvarın geniş təsviri verilmişdir:

"Özünün biçim üsuluna və tikiş texnikasına görə dizliklə eyniyyət təşkil edən şalvar ondan balaqlarının uzun (topuğa qədər) və nisbətən enli olması ilə fərqlənirdi. Belə şalvarın qabağı bütöv olmaqla, bəzən ciblə də təchiz edilirdi. Qara, yaşıl, bənövüş, qırmızı mahuddan, şaldan və ipəkdən tikilən belə şalvarlar əhali arasında "nifəli şalvar" və ya "musurmanı şalvar" kimi məşhur idi. Varlıların geydiyi qabağı yarıq şalvar "urusu şalvar" adlanırdı.

"Musurmanı şalvar"ın bel yerinə nifə tikilərək oraya tumanbağı keçirilirdi. Tumanbağının uclarında qızılı və gümüşü güləbətin sapdan toxunmuş yaraşıqlı qotazları olurdu… Qaba şaldan tikilmiş şalvarların paça yerinə "ağ" və ya "şalvar ağı" (narvan, miyança) tikilir, yun parça bədəni sürtməsin deyə, pambıq parçalardan astar qoyulurdu. "Musurmanı şalvar"ın ayağı (balağı) topuğun üstündə 10-12 sm ölçüdə çapıqla tamamlanırdı. Buraya rəngli ip-qaytan tikilirdi. Ümumilikdə isə, şalvarın balağı ayağa geyilən ayaqqabının növündən asılı olaraq ya ayaqqabının boğazlığına qabqarılır, ya da onun üstündə qalırdı" (7, səh. 121). Kənd əhalisi təsərrüfat işləri ilə məşğul olduqlarından, adəğən şalvarın balağını corabın içərisinə qabqarır, üstündən soyuq havalarada dolaq

bağlayırdılar. Yevlax rayonunun Salahlı kəndindən olan məlumatçılarımız İsmayılov Aqranom Məhəmməd oğlu, Qorçiyev Qaçay Almməmməd oğlu, İsmayılova Qənirə Alış qızı, Nəbiyeva Səriyyə Nəsib qızı da Mingəçevir və onun ətraf bölgələrində yuxarıda adları sadalanan şalvar növlərinin əksəriyyətinin kişilər tərəfindən geyildiyini təsdiq etdilər. Burada qılıcı şalrdan kişi şalvarlarının tikildiyini və xüsusilə geniş yayıldığını göstərdilər. Varlılar və nisbətən tavanalılar isə nazik toxunuşlu bahalı mahud parçadan, dioqanaldan, mənduləndən şalvar tikdirib geyirdilər. XX əsrin əvvəllərindən başlayaraq bölgədə qalifeyi şalvar da dəbə düşmüşdü.

Köynəyin üstündən zıbını (zıbınça, içlik, qalınça, canlıq) adanan isti geyim növü geyilirdi. Onu bir kürək və iki yaxa olmaqla biçib hazırlayır, üstünə yun və pambıq döşədikdən sonra astar çəkir və sıx sırıyırdılar. Bu geyimin yaxası tam açıq olur və boğaz altından qurşağa qədər ilgək-düymə ilə bağlanırdı. Zıbını adətən qolsuz tikilirdi. Bölgədə nadir hallarda aşılı dəridən hazırlanan içlik-zıbınça da geyilmişdir.

Ənənəvi kişi üst geyimlərindən biri də arxalıq idi. Bölgədə həm Gəncəbasar tərəflərdə geyilən önürsüz (döş yaxası bir sıra düyməli) və önürlü ( döş yaxası iki sıra düyməli) arxalıqlar, həm də Qarabağ bölgəsində geyilən oyma yaxalı arxalıqlar əhalinin sevilən geyimlərindən olmuşdur. Maddi durumundan asılı olaraq əhali arxalığı şal, mahud, kəşmir, məndulə, bez, satin, atlas, lastik, alaca, əbrişim və s. parçalardan tikdirirdi. Oyma yaxa arxalığın başlıca müştəriləri cavanlar və toy etməyə hazırlaşan gənclər olurdu. Arxalıq bel yerinə qədər bədəni kip tutmaq üçün ilgək-düymə və çarpaz-çarışqa ilə bağlanır, ətək yeri isəbüzməli və ya çinli olurdu. Arxalıq sifariş verilərkən yaş fərqinə uyğun olaraq parçanın rəngi seçilirdi. Cavanlar açıq rəngli, göz oxşayan parçalara, yaşlılar isə tünd parçalara üstünlük verirdi. Axalığın astarı fərqli rəngli parçadan qoyulmaqla, sırınırdı. Arxalığın üstündən sosial mğvqeyə görə varlılar qızıl və gümüş kəmər, ortabablar gümüş təkbənd, yoxsullar isə qayış və qurşaq bağlayırdılar. Azərbaycanın Abşeron etnoqrafik bölgəsində "don" adlandırılan arxalıq eyni adla, bəzən də "beşmet" və "zepun" adı ilə Şərqi Avropa, Volqaboyu, Qafqaz, Cənubi Qafqaz, Sibir tatarları, Qabaq və Orta Asiya xalqları arasında da geniş yayılmışdır. (8, səh. 156). Etnoqraf E.N.Studenetskaya isə qeyd edir ki, biçim üsulu və tikiş texnikasında müxtəlifliyə baxmayaraq, gürcü, erməni və Dağıstanın bir çox xalqları da bu geyim tipini arxalıq adlandırmışlar (14, səh. 25).

Arxalığın üstündən, bir qayda olaraq çuxa geyilirdi. Onu əsasən evdə toxunma şaldan və fabrik parçalarından tikirdilər. Bəhs olunan bölgə əhalisi çuxanı yaxın bazarlardan (Gəncə, Ağdam, Şəki, Bərdə) satınalma yolu ilə əldə edirdi. Bölgədə çuxanın ətəyi büzməli və çinli, qolları isə atmaqol və qolçaqlı növləri geniş istifadədə olmuşdur. Adətən çuxanın arxa hissəsi yarıq tikilir, yaxası açıq olur, üstündən heç nə bağlanmırdı. Onun da astarı arxalıqda olduğu kimi ətək yerinə qədər fərqli rəng parçadan qoyulur, yüngül sırınırdı. XIX əsrin sonu - XX əsrin əvvəllərində bölgədə vəznəli çuxa da geyilmişdir. Xanabadlı məlumatçımız Cəfərov Bəhram Cəfər oğlu kişi geyimlərindən qəlifeyi şalvar, buxara papaq, enli kəmərlər, arxalıq, yapıncı, kürk ilə yanaşı, bölgədə Qarabağ fasonlu oyma yaxa və düzdəmə yaxa çuxaların davamlı olaraq geyildiyini söylədi. Atmaqol çuxanın qolu isti mövsümdə açıq saxlanır və oraya özgə rəng parçadan astar qoyulur, soyuq havalarda isə kənar yanlarına tikilən ilgək-düymə vasitəsilə bağlanıb qol şəklinə salınırdı. Çuxa, din xadimlərindən başqa, bütün əhali təbəqəsinin geydiyi üst geyim növü olmuşdur.

Mövsümü səciyyəli kişi geyimləri içərisində kürkün öz yeri vardı. Burada kürkün sallama kürk və çoban kürkü kimi iki variantı mövcud olmuşdur. Qolları qondarma (yalançı) olduğuna və çiyinə geyilən zaman yandan sallandığına görə ona sallama kürk deyilmişdir. Bu kürkü varlı əhali təbəqəsi geyirdi. Adətən 9-10 quzu dərisindən hasilə gətirilən belə kürklər ya ziyarətlər zamanı uzaq ölkələrdən gətirilir, ya da iri şəhər bazarlarından satın alınırdı. Ondan zəvvar və çarvadarlar yatacaq kimi də istifadə edirdilər. Adətən belə kürklər Xorasan və Ərdəbil kürkü adlanırdı.

Çoban kürkü həm də geymə kürk adı ilə məlum idi. Ölçüsündən asılı olaraq onu 4-5 ədəd dəridən hazırlayırdılar. (11, səh. 438). Belə kürkü maldar-elatlar (çobanlar, sərkarlar, sığırçılar, kəllədarlar) daha çox geyirdilər.

Həm yağışlı-qarlı soyuq havalarda, həm də güclü istilər zamanı maldar-elatların daha çox üstünlük verdiyi geyim növü yapıncı idi. Onun materialını kəndbəkənd gəzib keçə salan həllaclardan alır və sadə biçimli olduğuna görə hər kəs özü biçib-tikirdi. Ümumqafqaz geyim növü olan və çoban məişət tərzinin ayrılmaz komponenti sayılan (ondan, yeri gələndə, yorğan-döşək, yatacaq kimi də istifadə olunurdu) yapıncının bölgədə knyazı, saçaqlı, saya və ya çoban yapıncısı kimi növləri istifadədə olmuşdur. Yerli əhali yapıncıya bəzən bürünmə də deyirdi. Yapıncı çiyinə salınır, qol yer olmur, yaxası açıq biçilir, boğazın altında qaytanla bağlanırdı.

Ənənəvi kişi geyimlərini tamamlayan baş və ayaq geyimləri əsasən dəridən, parçadan, keçədən və yundan hazırlanır, müxtəlif çeşidləri ilə seçilirdi. Xüsusilə kişi baş geyimləri milli ləyaqət, qeyrət, namus simvolu oldugundan, ona tələbat da böyük olmuşdur. Etnoqrafik-çöl materialları və ədəbiyyat göstəriciləri də təsdiq edir ki, bölgə əhalisinin kişi baş geyimləri içərisində qoyun və quzu dərisindən hazırlanmış böyük papaqlar (çoban papağı, motal papaq, şələ papaq və s.) geniş yayılmışdır. Xanabadlı məlumatçımız Cəfərov Bəhram Cəfər oğlu söyləyir ki, bizim tərəflərdə daqqa papaqlar da olub. Daqqa papaq əksərən qaragül dərisindən, bəzən də yerli körpə quzu dərisindən ülgü əsasında biçilib tikilirdi. Papaq gövdə, tərk və astardan ibarət olurdu. Onun tərkini (üst hissəsini) çox vaxt parçadan deyil, tumac və ya aşılı dəridən tikirdilər. İlin fəsillərindən asılı olaraq papağın astarı yun və ya pambıq parçadan qoyulurdu. (7, səh.130). Əhalinin Nuxa qəzasından satınalma yolu ilə əldə etdiyi daqqa (taqqa) papağın tərk hissəsini adətən məxmərdən qoyurdular (1, səh. 171). Ziyalılar və din adamları papağın və əmmanənin altından başlarına araqçın qoyardılar. Onlar bəzən yatacaq papağı kimi şəbkülahdan da istifadə edirdilər. Çöl-təsərrüfat işləri zamanı və yatağa uzanan vaxt yaşlılar başlarına sarıq çəkirdilər. Varlılar arasında qaragül dərisindən hazırlanan buxara papagın müxtəlif çeşidlərinə (ərəbi papaq, çalpapaq, sürpapaq) də nadir hallarda təsadüf etmək olardı.

Bölgənin cavan yaşlı əhalisi və uşaqlar başlarına "qarabağ fasonlu" yüngül, dairəvi papaqlar geyirdilər. Bu papaqların hündürlüyü 15-16 sm olur, aşağıdan yuxarıya

doğru 1,5-2 sm enlənirdi. Belə ülgülənmə səciyyəsinə görə onu bəzən qazan papaq da adlandırırdılar. Maldar-elatlar arasında papağın üstündən geyilən başlığa da təsadüf edilirdi. Onun uzun qulaqcıqlarını geyinən zaman boğaza dolayırdılar. Başıq satınalma yolu ilə əldə edilirdi.

Bödgə əhalisinin ənənəvi kişi ayaq geyimləri corab, badış, çarıq, başmaq, məst, çust, uzunboğaz və yarımboğaz çəkmə, patava və dolaqdan ibarət olmuşdur. Corablar uzunboğaz və gödəkboğaz olmaqla yun, pambıq və yarımipək saplardan toxunur, üzəri həndəsi və nəbati naxışlarla bəzədilirdi. Bu naxışlar xalça ormentlərinə çox yaxın olduğundan, onları gəbə corab adlandırırdılar. Uzunboğaz corab adətən çarıqla geyilirdi. Çöl-təsərrüfat işləri ilə məşğul olan kənd adamları daha çox çarıq geyirdilər. Onu aşılanmış, bəzən də xam göndən hazırlayırdılar. Çarıq ayaq geyiminin uzunburun, quşgözü, qarabağı, şirvanı, kalmanı, çütburun, quşburnu kimi növləri əhalinin geniş istifadəsində olmuşdur. Çarığı ayaqda möhkəm saxlamaq üçün göndən köşə çəkirdilər. Bel və baş dərisindən çəkilən köşələr daha davamlı hesab olunurdu. Çarıq ayağa geyildikdən sonra köşə (çarıqbağı) vasitəsilə baldıra bərkidilirdi. Bəzən çarıqbağı rəngli toxunma ipdən hazırlanırdı. Adətən hər kənddə bir neçə çarıq tikən çarıqçı olur, onlar əhalini daha davamlı çarıq növləri ilə təchiz edirdi. Əksəriyyət hallarda isə çarığı hər kəs özü tikə bilirdi.

Bəhs olunan dövrdə bölgədə başmaq adlanan (mərdanə başmaq) ayaq geyim növündən də istifadə edilmişdir. Onun dabanı açıq, burun hissəsi isə yuxarı qatlanmış şəkildə olurdu. Qadın başmağına nisbətdə kişi başmağı bəzəksiz olur, dabanına nal vurulurdu.

Bölgədə başmaqçı və çəkməçi dükanları olmadığından, yerli əhali başmağı Gəncə və Şəki bazarlarından əldə etmişlər. XIX əsrin ortalarında Şəkidə (Nuxada) 147 nəfər başmaqçının olması (13, səh. 108), Gəncədə isə 75 nəfər çəkməçinin işləməsi (10, səh. 339) Mingəçevir və ətraf bölgələri də bu ayaq geyimləri ilə təchiz etmişdir.

Mingəçevir və əraf bölgələrdə ayaqqabı (xüsusilə də başmaq, çust, uzunboğaz və yarımboğaz çəkmə tipli ayaqqabı) hazırlanmasının qədim tarixi vardır. Mingəçevir ərazisində aparılan arxeoloji qazıntılar zamanı tapılan və er.əv. XI-VIII əsrlərə aid edilən gil ayaqqabı – qablar (9, səh. 36-60, tablo - I-III) XIX əsrdə xalqın istifadəsində olan eyniadlı ayaqqabılarla tipoloji oxşarlıq təşkil edir. Bu isə bir daha sübut edir ki, bu ayaqqabı növləri uzun zaman əsaslı dəyişikliyə uğramadan öz mühafizəkarlığını qoruyub saxlamışdır.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Mingəçevir və ətraf bölgələrdə də "XIX əsrin sonu – XX əsrin əvvəllərindən başlayaraq xalqın geyim dəstinə rus və Avropa ayaq geyimlərinin tədriclə daxil olması həm kişi, həm də qadın ayaq geyimi olan qaloşun kütləvi istehsalı çarıq, patava, dolaq, çust, başmaq, məst və s. kimi ayaq geyimlərini ciddi surətdə sıxışdırıb məişətdən çıxarmağa nail olmuş, ayaq geyimlərində keyfiyyət dəyişiklikləri əmələ gəlmişdir. Yüngüllüyü, yumşaqlığı, ucuz başa gəlməsi və təsərrüfat işlərində davamlılığı qaloşun indi də kənd əhalisinin ayaq geyimləri içərisində üstünlüyünü qoruyub saxlayır. Bununla yanaşı, əhali fabrik istehsalı olan digər ayaqqabı növlərinə də məişətdə geniş yer ayırır" (7, səh. 82-83).

**ƏDƏBİYYAT**


1. *Azerbaydjanüı. İstoriko gtnoqrafiçeskiy oçerk. Baku: Glm, 1998.*
2. *Aslanov Q.M. K izuçeniö rannesrednevekovıx pamətnikov Minqeçaura / KSİİMK. vıp. 60, M.: 1955.*
3. *Aslanov Q.M., Vaxidov R.M., İone Q.İ. Drevniy Minqeçaur. Baku: İzd-vo AN. Azerb. SSR., 1959.*
4. *Baqirov Qasan-bek. Nekotorıə xarakternıə çertı jiteley seleniə Qeranğ-Boy-Axmedlı, Elisevetpolğskoy qubernii, Elisavetpolğskoqo uezda. // SMOMPK, vıp. VI, odt. III, Tiflisğ: 1888.*
5. *Veniaminov B. Selenie Salaxlu i tatarskie skazki, zapisannıe v nem // SMOMPK, vıp. III, otd. 2, Tiflis: İzd-vo Upravleniə Kavkazskoqo Uçebnoqo Okruqa, 1883.*
6. *Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (geyimlər, bəzəklər) Bakı: Elm, 2006.*
7. *Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı, Şərq-Qərb, 2010.*
8. *Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991.*
9. *İone Q.İ. Qlinənıe sosudı-sapojki iz Minqeçaura // Materialğnaə kulğtura Azerbaydjana. t. III, Baku: İzd-vo Akademii Nauk Azerbaydjana, 1953.*
10. *Kavkazskiy kalendarğ na 1854 q. Tiflisğ: 1853.*
11. *Mustafayev A.N. Papaqçılıq və kürkçülük. // Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007.*
12. *Osipov. Q. Selenie Barda Djevanşirskoqo uezda Elisavetpolğskoy qubernii // SMOMPK, vıp. XVII, Tiflisğ: 1893.*
13. *Sumbatzade A.S. Promışlennostğ Azerbaydjana v XIX v. Baku: İzd-vo AN. Azerb. SSR, 1964.*
14. *Studeneükaə E.N. Odejda narodov Kavkaza (o sobiranii materialov dlə Kavkazskoqo istoriko-gtnoqrafiçeskoqo atlasa) // SG., 1967, № 3.*
15. *Tərlanov M., Əfəndiyev R. Azərbaycan xalq yaradıcılığı nümunələri. Bakı: 1959.*



**Ключевые слова:** *Мингечаур, материальная культура, культура одежды, мужская одежда, головные уборы, обувь.*

**Keywords:** *Mingachevir, material culture, drtss culture, clothes for men, hear-gear, foot gear*


**РЕЗЮМЕ**


Представленная статья посвящены как составной части комплекса традиционной национальной одежды населения Мингечаура и его окресностей в XIX - начале XX века. С точки зрения этнографии исследованы характерные одеяния сезонного типа, а также повседневные одеяния, как - рубашка, брюки, архалуг, чуха, кюрк, япынчы и зыбыны. В статье, также всестронне изображены головные уборы и обувь населения региона и указаны причины происходящих качественных изменений в традиционному мужскому одеянии с начала XX века.


**SUMMARY**


The article is devoted to the traditional men clothing as a constituent part of national clothing complex in Mingechevir and surrounding areas in XIX-XXcenturies. The author has investigated the shirt, trousers, zibini, arkhaliq, chuxa, kurk and yapindji as daily and specific seasonal clothes from ethnographic point of view. The article also thoroughly investigates head covers and shoes. The reasons of quality changes in men clothes also has been indicated.

# Tarix

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ BAKI NEFTİNİN ƏHƏMİYYƏTİ MƏSƏLƏSİ AZƏRBAYCAN SOVET TARİXŞÜNASLIĞINDA

ŞƏFA MÖVSÜMOV
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu

«Motorlar müharibəsi» adlandırılan 1941-1945-ci illər müharibəsində Bakı neftinin hasilatı,emalı və onun Sovet Ordusunun Almaniya üzərində qələbəsini təmin etməsi Azərbaycan sovet tarixşünaslığında xüsusi olaraq araşdırılmayıb. Tədqiqatçılar yalnız problemə Azərbaycan iqtisadiyyatının müharibədə oynadığı rolu araşdıran zaman toxunmuş, Bakı neftinin qələbəyə təsirini ümumi olaraq vermişlər. Belə ki, müəlliflər neft idarələrinin hasilatının statistik cədvəllərini verməklə kifayətlənmişlər. Bakı neftçilərinin gərgin zəhmətini vurğulayan müəlliflər bunu «sosializm ideologiyasının və Kommunist Partiyasının zəhmətkeşləri birləşdirməyin nəticəsi»ndə mümkün olduğunu qeyd etmişlər. Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illər müharibəsinin tədqiqatçıları öz əsərlərində Bakı nefti, Bakı neftçiləri və neft sənayesindəki tədqiqat institutlarının alimlərinə aid ümumi məlumat verməklə kifayətləniblər.

Müharibə illərində Bakının neft sənayesində çalışan fəhlələrin qəhrəmanlığından bəhs edilən əsərlərdən biri Yakob Aqarunovun 1982-ci ildə rusca nəşr edilmiş «Böyük Vətən Müharibəsi illərində Azərbaycan neftçilərinin qəhrəmanlığı» adlı əsəridir. Y.Aqarunov neft sənayesində çalışanların qəhrəmanlığını, neft hasilatında əldə edilmiş uğurlar və rekord sayda neft istehsal edilməsindən bəhs edir. Həmin əsərin yazılmasında müəllif «Bakinskiy raboçiy» qəzetindən və dövrün statistik materiallarının saxlandığı arxivlərdən istifadə edərək fundamental tədqiqat aparmışdır. Odur ki, bu əsər 1941-1945-ci illər müharibəsinin tarixşünaslığında Bakı neft sənayesinin inkişafını və Bakı neftçilərinin qəhrəmanlığını öyrənmək üçün dəyərli mənbədir. Neft sənayesində planı yerinə yetirən neft idarələri haqqında geniş məlumat verilən bu əsərdə müəllif qeyd edir ki, 1941-ci ilin sonunda Bakı şəhəri artıq dünya neft sənayesi tarixində rekord həcmdə neft istehsal etmişdir : 23 milyon 541 min ton (1, s.16).

1941-1945-ci illərdə Bakı neft sənayesinin inkişafı barədə müəlliflər heyəti tərəfindən 1960-cı ildə rus dilində nəşr olunmuş «Azərbaycan sənayesi 40 il ərzində (1920-1960)» adlı əsərdə də rast gəlmək mümkündür. Sovet ideologiyasının təsiri altında yazılmış bu əsərdə müəlliflər 40 il ərzində Azərbaycanın digər sənaye sahələri ilə yanaşı neft sənayesinin müharibə illərində vəziyyətinə toxunmuşdur. «Azərbaycanın neft emalı sənayesi» adlanan bölmədə «Azərbaycanın neft sənayesi Böyük Vətən Müharibəsi illərində (1941-1945)» başlığı altında müəlliflər müharibə illərində Bakı neftinin cəbhə üçün əhəmiyyəti, neftçilərin fədakarlığı və s. haqqında ümumi məlumatlar vermişdir.

Burada müəlliflər müharibə vaxtı SSRİ-nin digər bölgələrində neft sənayesinin inkişafı və neft sahəsində kadrların hazırlanmasında böyük xidmətləri olan azərbaycanlı neftçilərin bir çoxunun adlarını çəkir, onların müharibə zamanı neft sənayesinə verdiyi töhfələri yüksək qiymətləndirirlər. Müəlliflər Bakı neftçilərinin 99 dəfə «Ümumittifaq sosialist yarışı»nda qalib gəlməsini, 26 dəfə Keçici Qırmızı Bayraq alması və 29 dəfə birincilik mükafatına layiq görülməsini qeyd etməklə kifayətlənmişlər (2, s.32).

Bakı neftçilərinin qəhrəmanlığından və Bakı neftinin qələbədə oynadığı həlledici roldan bəhs edilmiş əsərlərdən biri də yenə tədqiqatçı Yakov Aqarunova məxsusdur. Onun 1991-ci ildə yazdığı «Neft və qələbə» kitabında 1941-1945-ci illər müharibəsində azərbaycanlı neftçilərin Bakıda və SSRİ-nin müxtəlif rayonlarında neft sənayesinin inkişafına etdiyi təsirlərindən yazır.

Y.Aqarunov «Bakı nefti - diqqət mərkəzində. Qafqaz



uğrunda, Bakı nefti uğrunda» başlığı altında Almaniya və onun müttəfiqlərinin Bakı neftini ələ keçirmək üçün gördüyü işlərdən və planlardan ümumi məlumat verməklə Bakının neft rayonlarının müdafiəsinin necə mühüm strateji ərazi olduğunu vurğulamışdır. Qeyd olunan əsərdə «Faşist ordusunun Qafqaza yaxınlaşması. Neft Bakısı təhlükədə» başlığı ilə tədqiqatçı Bakı neftini ələ keçirmək üçün A. Hitlerin işğalçılıq planlarından ümumi olaraq danışır, «Edelveys» əməliyyatı haqqında məlumat verir. «Neft emalı zavodları» başlığında müəllif yazır ki, müharibə illərində Bakıda Sovet ordusu üçün aviasiya benzininin 80 faizi, liqroin və kerosinin 90 faizi, traktor yanacağının 96 faizi, sənaye yağlarının,eləcə də, bütün mazut növləri istehsal olunurdu (3, s. 61). «Neft maşınqayırma zavodları « başlığı ilə müəllif neft sənayesinin istehsalında lazımlı olan neft avadanlıqlarını istehsal edən zavodlar barədə ümumi məlumat verir,qabaqcıl mühəndislərin adlarını çəkir.»Neft institutu» adlı başlıqda bu sahədə kadrların hazırlanmasından danışılır və Azərbaycanda o vaxtkı partiya rəhbərliyinin fəaliyyətinə toxunulur. Sonda müəllif qeyd edir ki, Böyük Vətən Müharibəsinin ən ağır illərində Bakı SSRİ-nin əsas neft bazası rolunu oynadı və qələbənin qazanılmasına güclü təsir göstərdi.»Volqada neftin mənim-sənilməsi» fəslində Bakı neftçilərinin «hakim partiyanın rəhbərliyi ilə» Stavropol, Kuybışev və Volqa ətrafındakı neft sənayesinin inkişafına müharibə illərində verdiyi töhvələrdən yazılır.

Azərbaycan sovet tarixşünaslığında Bakı nefti ətrafında II Dünya Müharibəsi ərzində gedən beynəlxalq danışıqlar, Hitler Almaniyasının,eləcə də, böyük dövlətlərin Xəzərin nefti ilə bağlı maraqları kifayət qədər araşdırılmayıb. Professor Çapay Sultanovun son dövrlərdə yazdığı elmi məqalələrdə və əsərlərdə bu problem araşdırılmış, müasir dövr baxımından tədqiqat aparılmışdır.Müəllif əsərin işlənməsi zamanı dövrün arxiv materiallarından istifadə etmiş, xarici ölkə tədqiqatçılarının əsərlərindən bəhrələnmişdir. Müəllifin qeyd edilən əsərlərində müharibə vaxtı Bakı neftinin qələbəyə olduqca böyük təsiri tədqiqat problemi olaraq ortaya qoyulmuşdur. Çapay Sultanovun 2005-ci ildə rusca nəşr olunmuş «Bakı neftinin itirilməsi vəziyyətində faşizmə qarşı SSRİ və Avropanın tab gətirməsi» məsələləri araşdırılıb. «Müharibədən əvvəl Bakı nefti ətrafında soyuq müharibə» adlı başlıqda müəllif faktlarla sübut edir ki, Hitlerin SSRİ-yə hücum etməkdə əsas məqsədlərindən biri də Bakı neftini ələ keçirmək idi.

Bakı və onun ətraf rayonlarının Hitlerçilərin hava desant diversiya qrupu tərəfindən bombardman edilməməsi üçün müdafiə tədbirlərinə həsr olunmuş « Bakı diversiyaların hücumundan müdafiə olmağa hazır idimi» başlığında müəllif Azərbaycan sovet tarixşünaslığında rast gəlməyən məlumatları göstərmişdir. Berlin hökümətinin bununla əlaqədar məxfi danışıq və yazışmalarını əks etdirən arxiv materiallarını müəllif tədqiqata daxil etmişdir. Əsərin 8-ci fəslində II Dünya müharibəsi illərində Bakıda diversiya törədilməsi üçün ermənilərin hazırlığından bəhs edərək bu işdə mənfur erməni liderlərinin Gestapo rəisi Henrix Müller ilə görüşməsi və aparılan danışıqları barədə faktlar verilmişdir.

«Hər şey qələbə üçün, hər şey cəbhə üçün!» adlanan fəsildə müəllif SSRİ-də neftin 74 %-nin Bakı şəhəri verdiyini vurğulayır, SSRİ-də Bakı neftinin hərbi sənayedə aparıcı sütunun olması barədə mətbuatın heç vaxt heç yerdə yazmamasını göstərir (4, s.268).

Bakı neftinin müharibə illərində əhəmiyyətindən bəhs edərkən Çapay Sultanovun daha bir əsərinin adını çəkə bilərik. 2000-ci ildə rusca nəşr olunmuş «Neft» adlı əsərin 1-ci cildinin 5-ci fəslində müəllif geniş məlumatlar vermişdir. Əsərdə müəllif Bakının neft idarələrinin cəbhə illərində gərgin işləyərək tələb olunan planı artıqlaması ilə yerinə yetirməsini qeyd edir. Burada göstərilir ki, 1943-cü il Bakı neftçiləri cəbhəyə 5 milyon tondan çox müxtəlif neft məhsulları, o cümlədən, 795 min ton benzinin müxtəlif növlərini, 3 332 min ton liqroin, kerosin, dizel yanacağı, 640 min ton solyar, gəmi mazutu və 420 min aviayanacaq yollamışdılar (5, s.198).

Əsərin yazılması zamanı Azneftkombinatın arxiv materiallarından geniş istifadə edilmişdir. Azərbaycan sovet tarixşünaslığında müəyyən səbəblərdən rast gəlmədiyimiz bu məlumatlar müasir dövr baxımından aktual əhəmiyyət kəsb edir. Burada göstərilmiş məlumatlar Azneftin müharibə illərində hesabatlarını da əhatə edir.

1941-1945-ci illər müharibəsi zamanı Bakı neftinin ələ keçirilməsi üçün mübarizə,Almaniya üzərində qələbə qazanılmasında Bakı neftinin böyük əhəmiyyəti barədə 2005-ci ildə nəşr olunmuş «Neft və cahan savaşı» adlı əsərdə çox dəyərli məlumatlar vardır. Müəllif Nazim İsrafiloğlu əsərin əvvəlində sovet tarixşünaslığında müharibədə Bakı neftinin əhəmiyyətinin necə əks olunması məsələlərinə toxunmuş, ona verilən elmi-hüquqi dəyəri araşdırmışdır. Əsərin 10-cu fəsli «Velvet əməliyyatı» adlanır. Müəllif digər tədqiqatçılar kimi vurğulayır ki, Bakı 1942-ci ilin sentyabrın 25-də «Edelveys» planına əsasən işğal olunmalı idi (6, s.139).

Göründüyü kimi istər Almaniyanın, istərsə də Sovet rəhbərliyinin bu qədər xüsusi və məxfi əməliyyat hazırlaması Bakı neftinin necə əhəmiyyət kəsb etdiyini göstərir. Qeyd edək ki, bu faktlar 1941-1945-ci illər müharibəsinin tarixini araşdıran tədqiqatçıların əsərlərində rast gəlinməmişdir. Müəllifin əsərdə verdiyi xəritə planda Hitler ordusu tərəfindən Bakı şəhərinin bombardman edilməsinin sxemi göstərilmişdir. Buraya Qara şəhər, hökümət idarələrinin yerləşdiyi Ağ şəhər, aeroport, hərbi anbarlar, neft ehtiyatları, Şollar su anbarı və dəmiryolu şəbəkəsi daxil idi.

Almaniya üzərində qələbənin 60 illiyinə həsr olunmuş «İqtisadiyyat» qəzetinin 2007-ci ildəki xüsusi buraxılışında 1941-1945-ci illər müharibəsində Bakı neftinin xüsusi əhəmiyyəti geniş tədqiq olunmuşdur. Azərbaycan İqtisadçılar İttifaqı tərəfindən hazırlanan bu əsərdə Bakı neftçilərinin gərgin əməyi, müharibə illərində Bakıdakı neft sənayesi,ordu üçün əhəmiyyətli neft məhsulları, döyüş, silah-sursat istehsalı barədə çox geniş məlumatlar yer almışdır. Rusca nəşr olunan və «Bakı nefti olmadan qələbə mümkün olmazdı» adlanan bu əsərdə iqtisadçılarımız müharibədə Bakı neftinin xüsusi iqtisadi, hərbi və siyasi əhəmiyyətini göstərir, onun qələbənin əldə olunmasına etdiyi təsiri açıqlayırlar. Azərbaycana rəhbərlik etmiş M.C. Bağırovun L.Beriyaya 1943-cü ilin martında



cəbhənin neft ilə təminatı üçün vurduğu teleqramın tam mətni verilmişdir. Əsərdə Sovet İttifaqı Marşalı Fedor Tolbuxinin Bakı neftinin keçmiş Stalinqrad, Don, Donbass, Dnepr və Dnestryanı, Belqrad, Budapeşt və Vyana cəbhəsində düşmən üzərində qələbə qazanmaqda yüksək əhəmiyyətindən bəhs edən fikirləri yer almışdır (7, s.37).

Bakı neftinin 1941-1945-ci illər müharibəsində əhəmiyyətinə aid Georgi Zapletinin 2015-ci ildə nəşrə getmiş «Azərbaycan Böyük Vətən Müharibəsi illə-rində 1941-1945» adlı əsərini göstərmək olar. Bu əsərin I fəslinin ilk bölməsi Bakı neftçilərinin əmək qəhrəmanlığına, neft sənayesinin cəbhə illərində inkişa-fından və cəbhəyə göndərilmiş neft və neft məhsullarına həsr olunmuşdur. Təd-qiqatçı burada müharibə zamanı Almaniya ordusu üzərində qələbə qazanılmasında Bakı neftinin böyük əhəmiyyətinin olduğunu faktlarla sübuta yetirir. G. Zapletin qeyd edir ki, Bakı neftçiləri müharibə illərində 2 dəfə ölkənin orden və medalları ilə təltif edilmişdir : 6 ferval 1942 və 6 fevral 1944-cü illərdə. Burada əlavə olunur ki, 1118 nəfər orden və medallarla təltif olunur ki, bunlardan 38 nəfəri Lenin ordenini almışdır (8, s.22).

Son dövrdə nəşr olunan əsərlərdə Bakı neftinin II Dünya Müharibəsi ərəfəsi və müharibə vaxtı beynəlxalq əhəmiyyətindən bəhs edilmişdir.Belə əsərlərdən biri tədqiqatçı Pərvin Dərabadinin 2010-cu ildə Moskvada rusca nəşr olunmuş «XXI əsrdə dünya tarixi və geopolitikasında Qafqaz və Xəzər» adlanır. Burada müəllif Bakı neftinin böyük dövlətlərin maraqlarında olduqlarını, Qafqaz uğrunda aparılmış hərbi əməliyyatda Xəzərin neft ehtiyatlarının ələ keçirilməsinə toxunmuşdur. Digər başlıq altında müəllif müharibə ərzində Qafqazı ələ keçirmək üçün ingilis - fransız hərbi strateji planlarından yazır. Qeyd olunur ki, əgər Hitler ordusu tərəfindən Qroznı və Maykopla yanaşı Bakı neftinin ələ keçirilməsi baş tutsa bu İngiltərə və Fransa üçün çətin vəziyyət yaradacaq idi.Fransa Quru Qoşunlarının baş komandanı general Moris Qamelenin Fransanın baş naziri Eduard Daladyeyə 22 fevral 1940-cı ildəki məruzəsində qeyd edir: « Bakı Sovet İttifaqına neftin 75 % -ni verir. Sovetlərin kənd təsərrüfatı və hərbi gücü Bakı neftindən asılıdır». Qeyd olunan bölmədə Bakı neft mədənlərinin bombardman edilməsi planlarına aid general Şarl de Qollun «hərbi memuarları»ndan sitat gətirilib. ABŞ, Fransa, İngiltərə və SSRİ rəhbərlərinin Bakı və İran neftinin Hitlerin əlinə keçməməsi üçün



bombardman edilməsi planları əks olunmuşdur. Müharibə vaxtı Türkiyənin İsveçrədəki səfiri Y.K.Karaosmanoğlunun Ankaraya yazdığı məktubda Bakı neftini ələ keçirmək üçün Fransa səfirinin onunla görüş təklif etməsini və 5-10 günə birləşmiş qüvvələrin Bakı neftini ələ keçirərsə Sovet ordusunun yanacaqsız qalmasının çətinləşəcəyi göstərilmişdir (9, s.130).

II Dünya Müharibəsinin iştirakçısı, professor İsrafil İsmayılovun 2007-də nəşr olunmuş «Azərbaycan nefti XX əsrdə» adlı əsərinin 4-cü fəsli «Azərbaycan nefti II Dünya müharibəsi illərində (1939-1945)» adlanır. Müəllif ilk olaraq yazır ki, Almaniyanın SSRİ ilə 1939-cu ilin avqustunda bir-birinə hücum etməmək haqqında pakt imzalaması Fransa və İngiltərənin hakim dairələrini narahat edirdi. Bunun əsas səbəbini müəllif SSRİ-nin Almaniyanı guya Bakı nefti ilə təmin etməsi göstərir, 1940-cı ildən Fransa və İngiltərəyə məxsus kəşfiyyat təyyarələrinin Xəzər dənizi üzərində hücumunu da bununla izah edir. Qeyd olunan əsərdə «Faşist Almaniyası üzərində qələbədə Azərbaycan neftinin həlledici rolu» başlığı Bakı neftinin müharibədəki əhəmiyyətinə həsr olunub. Müəllif yazır ki, 1940-cı ildə Fransa höküməti Suriya və Livan ərazisindəki təyyarələri ilə Bakı, Qroznı, Maykop və Odessanı bombardman etməli idi. Ancaq Hitlerin Fransanı işğal etməsi bu planı pozdu.Əsərdə Xəzər Dənizçiliyi Donanmasının da Qafqaz uğrunda döyüşlərdə iştirakına yer verilmişdir. Xəzər gəmiçilərinin dəniz vasitəsi ilə Sovet Ordusunu yanacaqla təmin etmələrindən bəhs edilmişdir. Bakı neftinin müharibədə əhəmiyyəti haqqında keçmiş SSRİ-nin hərb xadimlərinin fikirləri ilə yanaşı prezident Heydər Əliyevin belə sözləri də yer almışdır: Bakı neftçiləri ölkəyə o qədər neft verdilər ki,bu düşmən üzərində tezliklə qələbə çalmaq üçün lazım idi. Bu gün biz daha aydın və qətiyyətlə hiss edirik ki, Azərbaycan böyük bir qələbəyə çox böyük töhfə vermişdir (10, s. 41). Sonra müəllif haqlı olaraq əlavə edir ki, 1941-1945-ci illərdə Azərbaycanın cəbhəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər tələb olunan neft məhsullarının yollamasını və cəbhəni fasiləsiz olaraq yanacaqla təmin etməsi rəhbərlik tərəfindən yüksək qiymətləndirilmədi. Bakıya «qəhrəman şəhər» adı verilmədi. Bunun səbəbi kimi müəllif Moskvada Kremldə oturan İ.Stalin, L.Beriya və A.Mikoyanın xalqımıza düşmən mövqeyində olmasını göstərir, müharibə illərində azərbaycanlıların Sibirə köçürülməsi kimi

ermənilərin mənfur planından xəbər verir. Göstərilən bu faktlara Azərbaycan sovet tarixşünaslığında rast gəlinməyib. Odur ki,əsərin qeyd olunan fəsli Bakı neftinin 1941-1945-ci illər müharibəsində rolunun araşdırılması baxımından xüsusi əhəmiyyətlidir.

Müstəqillik əldə etdikdən sona müharibə vaxtı Bakı neftinin həlledici əhəmiyyətinin araşdırılması mühüm aktuallıq kəs etmişdir. 2015-ci ildə Almaniya üzərində qələbənin 70 illiyinə aid nəşr olunan əsərləri buna misal göstərmək olar. Belə tədqiqatlardan biri həmin ildə «İqtisadiyyat» qəzetinin və Azərbaycan İqtisadçılar Birliyinin redaksiya heyətinin rusca nəşr olunmuş fundamental araşdırmasını göstərmək olar. Keçmiş SSRİ-nin dövlət arxivləri və dövrü mətbuat materialları əsasında yazılmış bu kitabda müxtəlif araşdırmalarla yanaşı, Bakı neftçilərinin əmək qəhrəmanlığı, neft sahəsində çalışan alimlər və cəbhə üçün istehsal olunan neft məhsullarına aid tədqiqatlar yer almışdır.

«Bakı Nefti.Qələbəyə gedən yol» adlanan bu əsərin girişində akademik Ziyad Səmədzadə Bakı neftinin müharibə illərindəki əhəmiyyətinə toxunmuş, ön cəbhəyə göndərilmiş neft və neft məhsulları, neftçi qəhrəmanların fəaliyyəti haqqında məlumatlar vermişdir. Bu araşdırmalarda Azərbaycan sovet tarixşünaslığında rast gəlinməyən Bakı neftçilərinin müharibə dövrünə aid fotoşəkillər, keçmiş SSRİ rəhbərlərinin məxfi yazışmaları və digər mühüm arxiv sənədləri yer almışdır.Həmçinin tədqiqatda vurğulanılır ki, Heydər Əliyev Fondunun dəstəyi və Arzu Əliyevanın rəhbərliyi altında çəkilmiş film Bakı neftinin II Dünya Müharibəsi zamanı xüsusi əhəmiyyətini göstərir və burada yer almış kadrlar və məlumatlar tarixşünaslığımız baxımından çox dəyərlidir.

Qeyd edilir ki, Vermaxt 1941-ci ilin avqustunda Moskvanı tutmalı, sonra Bakını ələ keçirməklə Rusiya ordusunun Qafqazdan neftlə təmin olunmasının qarşısını almalı idi (11, s.55). Həmçinin burada göstərilib ki, Hitler və onun dairəsi yaxşı bilirdilər ki, Bakı nefti olmadan Şərq kampaniyasında uğurlar qazanmaq mümkün olmayacaq.

1941-1945-ci illər müharibəsində Bakı neftinin əhəmiyyəti, onun beynəlxalq maraqlarda olması və Bakı neftini ələ keçirmək uğrunda mübarizədən bəhs edən əsərlərdən biri bu mövzu ilə bağlı tədqiqatlar aparan professor Çapay Sultanovun 2008-ci ildə nəşr etdirdiyi «Bakı nefti olmadan müttəfiqlər qələbə çala bilərdi?» adlanır. İngilis dilində nəşr olunmuş bu əsərdə müəllifin təqdim etdiyi plan və xəritələrdə Bakı neft mədənlərini ələ keçirmək üçün Almaniyanın hakim dairələrinin əməliyyat planları yer almışdır. Əsərin 4-cü fəsli «Bakı almanların əsas işğal hədəfində» adlanır. «Bakı hava hücumlarına və təxribata qarşı müdafiə olunurdumu?» adlanan 7-ci fəsli müəllif Bakının neft mədənlərinə qarşı olan hava hücumu planları və bunlardan müdafiəyə həsr etmişdir. Tədqiqatçı professor Çapay Sultanov qeyd edir ki, almanların planları II Dünya Müharibəsində cəbhədəki hərbi və siyasi vəziyyətə görə dəyişdi. Alman komandanlığı Bakının neft mədənlərini Stalinin casusları tərəfindən yaradılan təxribatdan qorumaq üçün müxtəlif cür hərəkatları inkişaf etdirirdilər (12, s.127).

8-ci fəsil ermənilərin II Dünya Müharibəsində Bakıda təxribat yaratmaq planına cəlb olunmasına həsr olunub. Azərbaycan ərazisində erməni daşnaklarının müharibə vaxtı məkrli planları Bakının neft mədənlərinin partladılması üçün hitlerçilərlə ermənilərin əməkdaşlığından bəhs olunur. Müəllif əlavə edir ki, erməni terrorçusu Drastamat Kanayan (Gen Dro) və yazıçı Qaro Gevirkyan Almaniyanın siyasi rəhbərlərindən biri, Daxili İşlər Naziri Henrix Himmlerle görüşür. Təxminən 30 min erməni faşistlərə qoşulmaq üçün Dro və Himmlerin çağırışına cavab verdilər. Dro cəza dəstələrində xidmət edən erməni əsgərlərini,dəfələrlə qəbul edirdi və Hitlerin nasizm ideyalarını, onların beyninə yeridirdi (12, s.190). Bakı neftinin II Dünya müharibəsi illərində beynəlxalq münasibətlərdə əsas mübarizə meydanına çevrilməsi və Almaniya üzərində qələbənin qazanılmasında böyük əhəmiyyətə malik olması müasir tarixşünaslığımızda aktual bir problem kimi tədqiqata ehtiyacı vardır.

## ƏDƏBİYYAT


1. *Агарунов Я.М. Героические свершения Азербайджанских нефтяников в годы Великой Отечественной Войны, Баку,1982*

2. *Азернефтнешр, Промышленность Азербайджана за 40 лет (1920 - 1960 г.г.), Баку,1960*

3. *Агарюнов Я. М. Нефть и Победа, Баку,1991*

4. *Султанов Ч. Выстояли СССР и Европа против фашизма, в случае потери бакинской нефти? Баку,2005.*

5. *Султанов Ч. Нефть, том 1. Баку, 2000.*

6. *İsrafiloğlu N. Neft və cahan savaşı. Bakı, 2005.*

7. *Спецвыпуск газета « Игтисадиййат», Победа была бы невозможно без Бакинской нефти. Баку, 2007*

8. *Заплетин Г. Азербайджан в годы Великой Отечественной Войне (1941 - 1945). Баку, 2015*

9. *Дарабади П. Кавказ и Каспий в мировой истории и геополитике XXI века. Москва, 2010,*

10. *İsmayılov İ. Azərbaycan nefti XX əsrdə. Bakı, 2007*

11. *Самедзаде З. Нефть Баку. Ключ к победе – 70. Баку, 2015*

12. *Sultanov Chapay. Would the allies have won without Baku oil ?, Baku, 2008*



**Açar sözlər:** *Müharibə, Azərbaycan sovet tarixşünaslığı, 1941-1945-ci illər, Bakı,neft*

**Key words:** *War, Azerbaijan soviet historiography, 1941-1945 years, Baku, oil*

**Ключевые слова:** *Война, Азербайджанская советская историография, 1941-1945 годы, Баку,нефть*


## RESUME


In the article tells of the research value of the Baku oil in the war years 1941-1945 in the Azerbaijan soviet historiography. Also, the struggle for Baku oil in studies during the last period, during the war in international relations and how it is reflected in the impact of victory over Germany.


## РЕЗЮМЕ


В статье повествуется о исследованиях значения бакинской нефти в войне 1941-1945 г.г. в Азербайджанской советской историографии. Также указана борьба за бакинскую нефть в исследованиях за последний период, в годы война в международных отношениях и в том как она отразилась в воздействии победы над Германией.